Xalqın qəzeti!

# Xalq qəzeti

№ 104 (30220) 19 may 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilmiş və ya yenidən tikilmişdir. Beləliklə, dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir.

## Azərbaycanın Cənubi Afrika Respublikası ilə əməkdaşlığı uğurla inkişaf edir

### *Prezident İlham Əliyev Cənubi Afrika Respublikası Milli Assambleyasının sədrini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri Nosivive Mapisa-Nqakulanı qəbul edib.**

Dövlətimizin başçısı Nosivive Mapisa-Nqakulanın rəhbərlik etdiyi nümayəndə heyətinə ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə təşəkkürünü bildirdi və bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi.

Azərbaycan Prezidenti ilə görüşməkdən və ulu öndərin anadan olmasının 100 illiyi münasibətilə keçirilən tədbirdə iştirak etməkdən şərəf hissi duyduqlarını bildirən Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə etdi.

*(ardı 2-ci səhifədə)*

## Həkəri postu – hamı razı və məmnun



**Yuxarıda verdiyimiz sualın müsbət cavabını zamanın özü verdi. Azərbaycanın Ermənistanla şərti sərhəddə, Laçın yolunun başlanğıcında, Həkəri çayının üzərində qurduğu nəzarət-buraxılış məntəqəsinin bölgədə hamı üçün sülhün və təhlükəsizliyin təmin olunması baxımından özünü tamamilə doğrultduğunu əminliklə söyləyə bilərik.**

Bəli, Ermənistanla sərhəd təhlükəsizliyimizin təmin edilməsi həm də qanunun aliliyindən irəli gəlir. Bunu həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyev məsələ ilə bağlı ABŞ Dövlət katibi Antoni Blinkenlə telefon danışığında, həmçinin Fransanın Xarici işlər naziri Ketrin Kolonnanı qəbul edərkən Bakının mövqeyini birmənalı şəkildə bildirdi: "Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin yaradılması Azərbaycanın suveren hüququdur və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsidir".

*(ardı 4-cü səhifədə)*

## "6 nömrəli dalan"da ilişib qalanlar



Səhifə ⇨ 6

## Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazisi və Qarabağdakı erməni hərbi birləşmələri



Səhifə ⇨ 3



Səhifə ⇨ 4

## Paşinyan üçün son seçim

## Türkiyəyə qarşı qərəz: 14 may seçkiləri və Qərbin ATƏT aləti



Səhifə ⇨ 6

## Qərbi Azərbaycana qayıtmaq soydaşlarımızın əzəli haqqıdır



Səhifə ⇨ 8

## Beynəlxalq əməkdaşlıq aqrar sahədə sürətli inkişafa zəmin yaradır

Səhifə ⇨ 7

## Ölkəmizə gətirilən elektrik avtomobilləri 6,2 dəfə çoxalıb

Səhifə ⇨ 7




Səhifə ⇨ 7

## Azərbaycan Şimal–Cənub Nəqliyyat Dəhlizinin önəmli tərəfdaşıdır

## "Qarabağ klanı" üçün "Qiyamət günü" nə vaxt olacaq?

Səhifə ⇨ 3

# Ölkəmiz Beynəlxalq Mülki Müdafiə Təşkilatı ilə əməkdaşlığın genişlənməsinə töhfə verir

***Prezident İlham Əliyev Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibini qəbul edib***



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi xanım Njupuo Yap Mariatunu qəbul edib.**



Prezident İlham Əliyev Njupuo Yap Mariatunun Azərbaycana səfərinin ölkəmizin Beynəlxalq Mülki Müdafiə Təşkilatı ilə əməkdaşlığının genişlənməsi işinə töhfə verdiyini və əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını qeyd etdi.

Njupuo Yap Mariatu, ilk növbədə, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Fövqəladə Hallar Nazirliyinin təşkil etdiyi əməliyyat-taktiki təlimdə fəxri qonaq qismində iştirak etməkdən məmnunluğunu bildirdi.

Heydər Əliyevin görkəmli dövlət xadimi və siyasətçi olduğunu vurğulayan Mülki Müdafiə Təşkilatının Baş katibi Prezident İlham Əliyevin ölkədə sabitliyin və dinamik inkişafın təmin edilməsi ilə onun siyasətini uğurla davam etdirdiyini dedi. Dövlətimizin başçısının regionda davamlı sülhün və sabitliyin təmin olunması istiqamətində fəaliyyətini yüksək qiymətləndirdiklərini deyən qonaq qeyd etdi ki, bu, Prezident İlham Əliyevin Azərbaycan və region üçün verdiyi dəyərli töhfədir. Njupuo Yap Mariatu Azərbaycanın Türkiyədə baş verən zəlzələ zamanı göstərdiyi köməyin təşkilat tərəfindən yüksək dəyərləndirildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Türkiyənin Kahramanmaraş şəhərində Azərbaycan tərəfindən 1000 evin tikintisi ilə bağlı məlumat verdi.

Qonaq qeyd etdi ki, Azərbaycan 1993-cü ildən Beynəlxalq Mülki Müdafiə Təşkilatının üzvü olaraq mülki müdafiə ilə bağlı məsələlərin təşviqi məqsədi daşıyan təşəbbüslərdə fəal iştirak edən ölkələrdən biridir və təşkilatın potensialının gücləndirilməsi proqramları çərçivəsində əməkdaşlığa töhfə verir. Njupuo Yap Mariatu Baş Assambleyanın 2022-ci ildə keçirilmiş sonuncu sessiyasında Azərbaycanın yenidən 4 il müddətinə İcraiyyə Şurasının üzvü seçilməsini məmnunluqla vurğuladı.

O, səfərinin əməkdaşlığımızın daha da inkişaf etməsinə və güclənməsinə təkan verəcəyinə əminliyini bildirdi.

Azərbaycan Prezidenti Vətən müharibəsi dövründə ermənilər tərəfindən mülki şəxslərimizə qarşı ballistik raketlərin atıldığını, dinc sakinlərimizin qətlə yetirildiyini, eyni zamanda, energetika obyektlərimizə də hücumların olduğunu qeyd etdi. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı yenidənqurma işləri barədə məlumat verdi.

Dövlətimizin başçısı COVID-19 pandemiyası zamanı ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatına göstərdiyi dəstəyi xatırladı, bunu Azərbaycanın beynəlxalq təşəbbüslərdə fəal iştirak etməsinin daha bir nümunəsi olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Afrika ölkələri ilə sıx əməkdaşlıq əlaqələri qurduğunu qeyd etdi.

Söhbət zamanı iqlim dəyişiklikləri barədə fikir mübadiləsi aparıldı.

Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

***AZƏRTAC***

# Azərbaycanın Cənubi Afrika Respublikası ilə əməkdaşlığı uğurla inkişaf edir

*(əvvəli 1-ci səhifədə)*

Qonaq ulu öndərin 100 illiyi münasibətilə keçirilən tədbirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, burada müxtəlif ölkələrdən nümayəndə heyətlərinin bir-biri ilə görüşməsi və fikir mübadiləsi aparması üçün də yaxşı imkanın yarandığını bildirdi.

Dövlətimizin başçısının ümummilli liderin siyasətini uğurla davam etdirdiyini vurğulayan Nosivive Mapisa-Nqakula ulu öndərin Azərbaycan tarixində müstəsna rol oynayan böyük şəxsiyyət və Lider olduğunu qeyd etdi, ölkəmizin inkişafında onun müstəsna rolunu vurğuladı. Qonaq dedi ki, Azərbaycanın keçdiyi inkişaf yolu bir nümunədir.

Prezident İlham Əliyev qeyd etdi ki, dövlətçiliyimizin qurucusu olan ulu öndər ölkəyə rəhbərliyə gəldiyi dövrdə Azərbaycan çox ağır vəziyyətdə idi. Məhz ümummilli liderin güclü iradəsi və yorulmaz səyləri nəticəsində Azərbaycan çətin vəziyyətdən çıxaraq inkişaf yoluna qədəm qoyub.

Söhbət zamanı ikitərəfli əlaqələrin genişlənməsinin vacibliyi vurğulandı, əməkdaşlıq üçün yaxşı potensialın olduğu qeyd edildi, kənd təsərrüfatı, enerji, turizm, təhsil sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

Görüşdə Azərbaycan və Cənubi Afrika Respublikasının beynəlxalq təşkilatlar, həmçinin Qoşulmama Hərəkatında uğurlu əməkdaşlığı qeyd edildi.

***AZƏRTAC***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Çox hörmətli cənab Prezident!**

Sizi əlamətdar yubiley – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Heydər Əliyev dünya tarixinə Azərbaycan xalqının ümidlərini doğruldan və arzularını həyata keçirən görkəmli siyasi xadim, müasir Azərbaycan dövlətinin banisi kimi daxil olub. O, doğma xalqının layiqli övladı kimi yeni Azərbaycanın – çiçəklənən və qüdrətli respublikanın inkişafının bünövrəsini qoyub.

Heydər Əliyevin Vyetnam və Azərbaycan arasında dostluq münasibətlərinin inkişafına verdiyi böyük töhfəni minnətdarlıqla qeyd etmək istəyirəm. Bu il biz Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində Vyetnama səfərinin 40 illiyini qeyd edirik. Səfər çərçivəsində həmin vaxt Vyetnamın ən iri infrastruktur obyekti – Txanq Lonq körpüsü açılıb. Yüzlərlə azərbaycanlı mütəxəssis neft hasilatı sənayesinin qurulmasına kömək üçün Vyetnama göndərildi, minlərlə vyetnamlı Heydər Əliyevin Vyetnama səfərindən sonra Bakıda təhsil almağa gəldi.

Tam əminəm ki, Heydər Əliyevin əsasını qoyduğu irsin davamı kimi, Vyetnam və Azərbaycan rəhbərlərinin dəstəyi, həmçinin Vyetnam səfirliyi əməkdaşlarının səyləri ilə bizim ənənəvi dostluğumuz və çoxtərəfli əməkdaşlığımız daha yüksək inkişaf səviyyəsinə çatmaq üçün yeni impuls qazanacaq.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və uğurlar, bütün Azərbaycan xalqına isə əmin-amanlıq, sülh, tərəqqi və müvəffəqiyyətlər arzulayıram.

**Hörmətlə,**

***Danq Min XOY,***
***Vyetnam Sosialist Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri***

* * *

**Zati-aliləri, möhtərəm cənab Prezident!**

Müstəqil Azərbaycan Respublikasının qurucusu ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə dost və qardaş Azərbaycana və onun xalqına, Zati-alinizə, bütün əziz dostlarınıza ən səmimi təbriklərimizi yetirir, rifah, xoşbəxtlik və əbədi firavanlıq arzulayırıq. Biz bosniyalılar Zati-alinizin xalqlar arasında sülh, ədalət, bərabərlik və əmin-amanlığı bərqərar etmək üçün göstərdiyi səyləri yüksək qiymətləndirir və alqışlayırıq. Bütün mənalı ömrünü xalqının tərəqqisinə həsr edən möhtərəm Heydər Əliyevin uzaqgörənliyi, əzmkarlığı və qətiyyəti Azərbaycanın müstəqilliyini möhkəmləndirdi. Müasir müstəqil Azərbaycanla fəxr edir, onun gələcəyinin daha parlaq olacağına inanırıq.

Zati-alinizə xeyir və bərəkət arzulayıram. Dahi insan, uzaqgörən lider Heydər Əliyevin xatirəsini onun 100 illik yubileyi günlərində ehtiramla yad edirik.

Dərin hörmət və ehtiramla,

***Nedzad QRABUS,***
***Bosniya və Herseqovinanın İslam İcmasının müftisi***

# “Azərbaycan mənim ürəyimdir...”



**Mayın 18-də Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə “Azərbaycan mənim ürəyimdir...” adlı tədbir təşkil edilib.**

Toplantıda Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin müavini Leyla Məmmədova açılış nitqi ilə çıxış edib. Qeyd olunub ki, öz taleyini Azərbaycanın dövlətçilik və tərəqqi salnaməsinə çevirmiş ulu öndər Heydər Əliyevin ömrü bütövlükdə Azərbaycan dövlətinin inkişaf tarixinin parlaq bir hissəsidir. Bu baxımdan ulu öndərin zəngin, çoxşaxəli irsinin tarixi və müasir geosiyasi reallıqlar müstəvisində öyrənilməsində, yeni nəslə ötürülməsində Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə ölkəmizdə 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi, Azərbaycanda və xaricdə çoxsaylı tədbirlərin keçirilməsi mühüm əhəmiyyət daşıyır.

Bildirilib ki, ümummilli liderin xatirəsinə ehtiram əlaməti olaraq Prezidentin İşlər İdarəsi də silsilə xarakterli tədbirlər keçirir, ölkəmizin inkişafında misilsiz xidmətlər göstərmiş bu dahi şəxsiyyəti dərin rəğbət və minnətdarlıq hissi ilə yad edir.

Ulu öndərin xalqına, onun qədim tarixinə və mədəniyyətinə arxalanaraq, bütün müdrikliyini, enerjisini, iradəsini doğma respublikasının tərəqqisinə yönəldərək, ürəyində və ruhunda Azərbaycanla qovuşaraq, ölkəmizi yüksəklərə qaldırdığını vurğulayan Leyla Məmmədova qeyd edib ki, Heydər Əliyevin xalqın ümummilli lideri kimi böyüklüyü həm də onun irəli sürdüyü ideyaların gələcəkdə də davamını görməsində və bunun üçün strateji hazırlıqlar aparmasında olub. Heydər Əliyevin müəyyənləşdirdiyi milli dövlətçilik kursunun Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi bu siyasətin böyük uğurudur. Dövlətimizin başçısı öz qətiyyəti, strateji baxışı, yüksək liderlik keyfiyyətləri ilə ölkəmizin davamlı inkişafının, ərazi bütövlüyünün və regionda yeni geosiyasi reallıqların memarı olmaqla Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə yüksəldib.

Leyla Məmmədova çıxışının sonunda bildirib ki, müasir ölkə tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş dahi şəxsiyyət Heydər Əliyevin əmanəti olan müstəqil Azərbaycanı və onun dövlətçilik salnaməsində yaratdığı bu irsi qoruyub saxlamaq hər birimizin şərəfli vəzifəsidir.

Sonra İctimai-Siyasi Sənədlər Arxivinin direktoru Elmira Ələkbərova “1969-1982 - Azərbaycanın inkişaf tarixinin parlaq səhifələri” adlı məruzə ilə çıxış edib. O bildirib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev iki fərqli ictimai-siyasi quruluşda Azərbaycana rəhbərlik etmiş, hər iki dövrdə ölkənin ən ağır vəziyyətində, ən taleyüklü məqamlarda hakimiyyətə gəlmiş, bütün gücünü, fitri istedadını, müdrikliyini Vətənimizin mənafeyinə, nüfuz və qüdrətinin artmasına, milli birliyin bərqərar olunmasına yönəldib. E.Ələkbərova qeyd edib ki, dahi siyasi xadimin 1969-1982-ci illərdə həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri aparılıb, sənayenin bütün sahələrində inkişafa nail olunub, yeni sənaye sahələri yaradılıb, mütərəqqi texnologiyaların istehsalata tətbiqi əsasında Azərbaycan sənayesi SSRİ-de qabaqcıl mövqeyə yiyələnib.

Sovetlərin tərkibində olduğu zaman belə müstəqil siyasət yürütməyə qadir olan Heydər Əliyevin ölkəyə rəhbərliyinin elə ilk illərindən Azərbaycanın xarici ölkə rəsmilərinin və kütləvi informasiya vasitələrinin diqqətini cəlb etdiyini vurğulayan E.Ələkbərova deyib ki, həmin dövrdə xüsusilə Türkiyə mətbuatı Azərbaycana və Heydər Əliyevin şəxsiyyətinə geniş yer ayırıb, xüsusi hörmət və ehtiramını ifadə edib.

Diqqətə çatdırılıb ki, ulu öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətini əks etdirən sənədlərin araşdırılması, təhlili və gələcək nəsillərə ötürülməsi böyük siyasi və mənəvi əhəmiyyət təşkil edir İctimai-Siyasi Sənədlər Arxivi tərəfindən Arxivdə mühafizə olunan, 1969-1982-ci illəri əhatə edən qiymətli sənədlərdən ibarət zəngin mirası gənc nəslə ötürmək üçün həmin sənədlər incələnib, 2017–2023-cü illərdə o dövrdə görülən işlərin müəyyən hissəsini əks etdirən sənədlərdən ibarət 10 cildlik toplu və bu topluya göstərici hazırlanaraq nəşr olunub. “Belə bir məsuliyyətli vəzifəni yerinə yetirə bildiyimiz üçün biz qürur duyuruq və hər bir sənədi incələdikcə, bu günün prizmasından baxaraq, ulu öndərin dərin zəkasına, siyasi uzaqgörənliyinə bir daha heyran qalırıq, – deyə o əlavə edib.

Yubiley tədbirində, həmçinin Milli Məclis sədr müavini, tarix elmləri doktoru, professor Fəzail İbrahimli “Heydər Əliyev və türk dünyası”, parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, siyasi elmlər doktoru, professor Hicran Hüseynova “Azərbaycanda dövlət qadın siyasəti” mövzusunda məruzələrlə çıxış ediblər.

Milli Məclisin deputatı, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov isə çıxışında ulu öndərin ölkəmizin çətin zamanlarında Azərbaycanın xilaskarı olduğunu və ölkəmizin inkişafı istiqamətindəki əvəzsiz xidmətlərindən, bu dahi şəxsiyyətin tariximizdəki əvəzsiz rolundan geniş söhbət açıb.

Sonra İctimai-siyasi Sənədlər Arxivində mühafizə olunan 1969-1982-ci illərə aid qiymətli sənədlər əsasında hazırlanan və ulu öndər Heydər Əliyevin şərəfli ömür yolundan bəhs edən “Quruculuq salnaməsi. Başlanğıc...” adlı sənədli xronika nümayiş olunub.

Tədbir çərçivəsində İctimai-Siyasi Sənədlər Arxivində mühafizə olunan qiymətli sənədlərdən və 2017-2023-cü illərdə Arxiv tərəfindən nəşr olunan kitablardan ibarət sərgi nümayiş etdirilib.

Bələdçilər tərəfindən tədbir iştirakçılarına sərgidə nümayiş olunan hər bir stend üzrə geniş məlumat verilib.

***“Xalq qəzeti”***

# Naxçıvanda “ASAN xidmət” mərkəzi açıldı



**Mayın 18-də Naxçıvan regional “ASAN xidmət” mərkəzi istifadəyə verilib. Açılış mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev iştirak ediblər.**

Bildirilib ki, Naxçıvanda istifadəyə verilən növbəti “ASAN xidmət” respublikada 26-cı belə mərkəzdir. Bu müasir dövlət xidməti müəssisəsi Naxçıvan şəhəri Seyid Cəfər Pişəvəri, 7 ünvanında inşa edilib. Obyektin tikintisinə 2020-ci ildə başlanılıbvə bu ay başa çatdırılıb. Mərkəzdə videomüşahidə, görüntüləmə və videonövbə sistemləri, iki ədəd lift, yanğınsöndürmə sistemi, mərkəzləşdirilmiş havalandırma, istilik sistemi, generator və UPS quraşdırılıb.

Qeyd olunub ki, mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 360-dan çox xidmət həyata keçiriləcək. Ümumilikdə, Naxçıvan Muxtar Respublikasında qeydiyyatda olan 465 min vətəndaşı əhatə edən mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək. Əməkdaşların ümumi sayı 228, könüllülərin sayı 45 nəfər nəzərdə tutulur.

Mərkəz daxilində vətəndaşlara “ASAN kafe” də xidmət göstərir. Ərazdə 50 avtomobil üçün parklama yeri yaradılıb.

***“Xalq qəzeti”***

# 11 vətəndaşımız Suriyadan ölkəmizə repatriasiya olunub

**Mayın 18-də Suriya ərazisində yerləşən düşərgələrdə saxlanılan 11 Azərbaycan vətəndaşının ölkəmizə repatriasiyası həyata keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, repatriantların 8 nəfəri uşaq və 3 nəfəri qadındır.

Azərbaycan Respublikasının hökuməti tərəfindən görülmüş mərhələli və koordinasiyalı tədbirlər nəticəsində, ilk növbədə, repatriantların yeri, şəxsiyyəti və Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyəti müəyyən edilib, daha sonra isə onların Türkiyə Respublikası ərazisinə keçidinin təmin olunması istiqamətində tədbirlər görülüb.

İraq və Suriyadan Azərbaycan vətəndaşlarının repatriasiyasına məsul olan müvafiq dövlət qurumlarının Türkiyə Respublikasına ezam edilən nümayəndələri tərəfindən repatriantların ilkin tibbi və psixoloji müayinəsi həyata keçirilib.

Daha sonra Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı səfirliyi tərəfindən aparılmış müvafiq əlaqələndirmə işi nəticəsində vətəndaşlarımız Azərbaycan Respublikasına qayıdış şəhadətnamələri və uçuş biletləri ilə təmin olunub.

Növbəti mərhələdə Azərbaycan hökuməti tərəfindən repatriantların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

***“Xalq qəzeti”***

# Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazisi və Qarabağdakı erməni hərbi birləşmələri

**Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan baş naziri Nikol Paşinyanın bu il mayın 14-də Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə "Brüssel formatı" çərçivəsində keçirilmiş görüşündən, habelə Paşinyanın Avropa Şurasının Reykyavikdəki Sammitindəki çıxışından sonra bir sual yaranır: Ermənistan 86600 kvadratkilometrlik ərazidə Azərbaycanın suveren hüquqlarını tanıyırsa, Qarabağdan qanunsuz erməni hərbi birləşmələri nə zaman çıxacaq? Onların sayı, haradasa, 10 min nəfərdir. Bu, demək olar ki, İkinci Qarabağ müharibəsində qarşı tərəfin verdiyi canlı qüvvə itkisinin sayı qədərdir. "Brüssel formatı" çərçivəsindəki məlum görüş sonrası isə Ermənistanın siyasi dairələrində isterik durum var. 86600 kvadratkilometrlik ərazidə Azərbaycanın müstəqilliyinin tanınmasının böyük ajiotaj doğurduğu aşkardır. Qarabağdakı separatçı rejimin təmsilçilərinin özlərini Ermənistandan ayrı müstəqil dövlət kimi təqdim etmələrinə də şahidik. Belə olan halda, əlavə sual da yaranır: Qanunsuz erməni hərbi birləşmələrini ərazidən kim çıxaracaq? Bu baxımdan dörd məqamın üzərində dayanmaq istərdik.**



### Birinci məqam

Bölgədə erməni əhalinin sayının 120 min olduğu deyilir. Halbuki, bu rəqəm reallığı əks etdirmir. Orada cəmi 30 minədək əhali var. Lap 120 minin özü də böyük rəqəm sayılmamalıdır. Çünki Azərbaycanın rayonları içərisində əhalisi 120 mindən artıq olanlar az deyil və 120 minə qarşılıq 10 min hərbçi çoxdur. Yəni, 10 minlik sayın ancaq yerlilərdən ibarət olduğu iddia edilə bilməz.

Bəli, hərbçilər Ermənistana məxsusdur və onların bölgəni tərk etmələrinə görə məsuliyyət, bilavasitə, İrəvanın üzərindədir. Bu məsuliyyətin nə dərəcədə dərk edildiyini söyləyə bilmərik. Onu vurğulamalıyıq ki, mayın 17-də Qarabağa növbəti dəfə silah-sursat daşındığı müşahidə edilib. Bu isə həm "Brüssel formatı"nın məntiqinə, həm də Nikolun İslandiyanın paytaxtında səsləndirdiklərinə ziddir. Son aylar bölgəyə Ermənistan ərazisindən hərbi vasitələrin gətirildiyi də danılmaz faktdır.

### İkinci məqam

10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 4-cü bəndində göstərilir ki, "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir". Sülhməramlılar yerləşdirilib, ancaq Qarabağda erməni hərbçiləri qalmaqdadır. Deməli, birincilərin mandatının legitimliyi də şübhə altındadır. Nəzərə alaq ki, hazırda sülhməramlıların sayı erməni hərbi birləşmələrinin sayından azdır. Yəni, faktiki olaraq, ikincilər birincilərin iş səmərəliliyinə də təhlükə törədən faktordur. Bəs, sülhməramlılar bunu düşünürmü? Ötən müddət göstərir ki, düşünmürlər və əksinə, həmin qanunsuz hərbi birləşmələrə silah-sursat daşınmasında patronajlıq edirlər. Yeri gəlmişkən, bu patronajlıq mayın 17-də də növbəti dəfə reallaşdırılıb.

Digər tərəfdən, Rusiyanın "Brüssel formatı" çərçivəsində keçirilmiş görüşə münasibətdən görmək mümkündür ki, Ermənistanın 86600 kvadratkilometlik ərazidə Azərbaycanın suveren hüquqlarını tanımasının Moskvaya heç bir dəxli yoxdur. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun üçtərəfli Bəyanatı ilahiləşdirməyə hesablanmış açıqlaması bunun təsdiqidir. Həmin bəyanatın yerinə yetirilməsi baxımından isə Kremlin öz baxışı var. Yəni, Rusiya sənədlə bağlı öhdəliklərinə əməl etdiyi qənaətindədir...

Bəli, erməni hərbi birləşmələri üçtərəfli Bəyanata uyğun olaraq, Ağdamı, Kəlbəcəri və Laçını tərk etdikləri kimi, Qarabağı da tərk etməlidirlər. Bu, baş verəcəkmi, hər halda Moskvanın mövcud istiqamətdəki qətiyyətindən çox, onun bölgəyə hansısa əlahiddəlik gətirmək istəklərini görürük. Nəzərə alaq ki, şimal qonşumuzun bəzi siyasi dairələrində Qarabağ ermənilərinin, guya, Rusiyaya rəğbəti fonunda qondarma iddialar səslənməkdədir. Mövcud kontekstdə belə rəy formalaşdırılır ki, sanki, sülhməramlılar arzu olunduqları üçün ərazidədirlər və onları nə Azərbaycanın iradəsi, nə də İrəvanın Bakının suveren hüquqlarını tanımaq baxımından üzərinə götürdüyü öhdəlik maraqlandırır.

Qeyd edək ki, Rusiyanın hazırkı mövqeyi Ermənistan üçün münasibdir. Rəsmi İrəvan, onsuz da, Qarabağdakı erməni hərbi birləşmələri ilə bağlı məsələnin üzərinə gəlmir. Paşinyan ötən ilin Praqa Sammitinə əsasən Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirdiyi, ancaq mayın 14-dək 86600 kvadratkilometrlik ərazinin üzərinə gəlmədiyi, daha doğrusu, Qarabağı ayrıca təsəvvürə gətirdiyi kimi, bu vacib məqamı da "unudur". Əlbəttə, çox üstünə gedilsə, özünün ənənəvi erməni xislətinə uyğun olaraq bildirə bilər ki, Qarabağda erməni silahlıları yoxdur. Ondan nə desən gözləmək mümkündür. Hər bir halda, məsuliyyətdən yayınmaq, qeyri-səmimilik olacaq.

Yeri gəlmişkən, Paşinyanın artıq Azərbaycanın ərazi bütövlüyünü tanıma məntiqinə üz çevirdiyi məlumdur. Söhbət Ermənistana məxsus pilotsuz uçuş aparatlarının dünən ölkəmizin ərazisində görünmələrindən gedir. Nəzərə alaq ki, Azərbaycan da Ermənistanı 29800 kvadratkilometr ərazidə tanıdığını açıqlayıb. Yəni, dövlətimizin başçısı İlham Əliyevin təbirincə desək, bu ərazidə rahat yaşamaq istəkləri səmimiyyətdən uzaq davranışlarla müşayiət olunmamalıdır. O da nəzərə alınmalıdır ki, ərazi bütövlüyünə hörmət qarşılıqlı olmalıdır. Necə deyərlər, hörmət hörmətə bağlıdır. Bu olmayacaqsa, deməli, bizim tərəfimizdən də hörmət gözləməyə dəyməz.

### Üçüncü məqam

Azərbaycan Qarabağda antiterror əməliyyatı keçirməlidir. Məsələ 44 günlük müharibədən dərhal sonra gündəmə gəlmişdi. "Brüssel formatı" çərçivəsindəki son görüşdən və Paşinyanın ölkəmizin ərazi bütövlüyünü tanımasından sonra, ölkəmiz bunu reallaşdırmaq üçün daha böyük əsasa malikdir. Potensial da öz yerində. Ancaq yenə Rusiya sülhməramlıları amilini vurğulamalıyıq...

Belə nəticəyə gəlmək mümkündür ki, Azərbaycanın Qarabağda antiterror əməliyyatına başlaması, ərazidəki Rusiya sülhməramlı hərbi kontingentinin varlığını heçə saymaq effekti verəcəkdir. Hər halda, qarşı tərəfin məsələni, məhz, bu cür qiymətləndirməsi tam mümkündür. Bir halda ki, Moskva üçtərəfli Bəyanat məntiqini əsas tutur, həmin bəyanat çərçivəsində üzərinə götürdüyü öhdəliklərə manipulyativ yanaşır, deməli, Bakının hərbi güc nümayişini də sənədə zidd fəaliyyət olaraq dəyərləndirə bilər. Yəni, Rusiyadan da nə desən gözləmək olar.

### Dördüncü məqam

Bu məqam əlahiddəliyi ilə digər üçündən fərqlənir. Reallıq budur ki, hazırda Qarabağdakı qanunsuz erməni hərbi birləşmələri bölgədəki erməni varlığının güc faktoru rolunda çıxış etməkdədir. Bunu Azərbaycan da yaxşı bilir, Rusiyada da bilirlər, Ermənistanda da. Hətta Qarabağın separatçı rejimindəkilər də mövcud məqamı anlamaqda çətinlik çəkmirlər.

Azərbaycanın Qarabağ ermənilərinə münasibətdə xoş məramına, onların gələcəyinin, hətta beynəlxalq müstəviyə, o cümlədən, "Brüssel formatı"na çıxarılmasına baxmayaraq, ermənilərin Azərbaycan yurisdiksiyası altında yaşamalarının qeyri-mümkünlüyünə dair fikirlər daha uca səslənməkdədir. Bu yerdə Qarabağ ermənilərinin separatçı rejimin və erməni avantürizminin əsiri olduqları, qurbana çevrildikləri ilə bağlı deyimlər əhəmiyyətini itirir.

Birincisi, həmin Qarabağ ermənilərinin özləri Azərbaycana yönələn hər hansı müsbət təşəbbüs göstərmirlər, ikincisi, böyük oyunlarda alətə çevrilmək alın yazılarıdır, bizlik nə isə yoxdur. Ölkəmiz üçün onların fikri də prinsip etibarilə elə bir əhəmiyyət daşımır. Ya hakimiyyətimiz altında bərabərhüquqlu vətəndaş olaraq yaşamalıdırlar, ya da bölgədən çıxmalıdırlar.

İstər-istəməz belə nəticəyə gəlirik ki, Qarabağ erməniləri də, separatçı rejimdəkilər kimi, qanunsuz hərbi birləşmələrə özlərinin güc və təhlükələrdən qorunma vasitəsi kimi yanaşırlar. Ortada Cənubi Qafqaz maraqları Ermənistanda itirib, Qarabağda tapmaq istəyən Rusiya da var ki, ölkə regiondakı varlığını sülhməramlıların timsalında yürüdür. Ancaq daha böyük reallıq diqqətdən yayınmamalıdır. Bir halda ki, N.Paşinyan 86600 kvadratkilometrlik ərazidə Azərbaycanın suveren haqlarını tanıyır, o zaman Qarabağda erməni hərbi birləşmələri olmamalıdır. Bu, öz yerində, üstəlik, Rusiya sülhməramlılarına da ehtiyac yoxdur.

Bütün sadaladıqlarımızın fonunda, kifayət qədər, mürəkkəb durumun formalaşdığının fərqindəyik. Yəni ilk baxışdan, hər şey məlumdur, amma heç nə aydın deyil. Belə nəticəyə gəlmək olar ki, hazırda Bakı Qarabağdakı qanunsuz erməni hərbi birləşmələri məsələsinin üzərinə getməlidir və bundan çox şey asılıdır. Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanıması, bir çox gizli (əslində, məlum olan – red.) niyyətlərin üstünü açdığı kimi, vurğuladığımız məsələ ilə bağlı göstərəcəyimiz dirəniş də həlelik, qapalı görünən xeyli mətləblərə aydınlıq gətirəcək.

***Əvəz CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# "Qarabağ klanı" üçün "Qiyamət günü" nə vaxt olacaq?

**Xalqımıza qorxunc fəlakətlər, bir-birindən dəhşətli soyqırımları gətirən Birinci Qarabağ müharibəsinin erməni separatçılarının liderləri – "Qarabağ klanı" tərəfindən gerçəkləşdiyi, həmin bandanın bu gün də regionda vəziyyəti gərginləşdirməkdə davam etdiyi heç kimə sirr deyil.**

Ötən əsrin 80-ci illərinin sonlarından etibarən Ermənistandakı soydaşlarımızın deportasiyasını həyata keçirən "Qarabağ klanı" 90-cı illərin əvvəllərindən ölkəmizə qarşı açıq müharibəyə start verib, minlərlə insanımızın qətlinə imza atıb. Ermənistanın iki keçmiş prezidenti – Robert Koçaryan və Serj Sarkisyan tərəfindən həyata keçirilən işğal və soyqırımı siyasəti Azərbaycan torpaqlarının 20 faizinin qəsb edilməsi, Xocalı soyqırımının törədilməsilə nəticələnmişdir. Azərbaycan dövləti "Qarabağ klanı"nın birbaşa iştirakı və təşviqi ilə həyata keçirilmiş bu vəhşiliklərlə bağlı beynəlxalq təşkilatları, dünya ictimaiyyətini mütəmadi şəkildə məlumatlandırmış, bu şəxslərin məsuliyyətə cəlb edilməsinin vacibliyini dilə gətirmişdi. Ancaq maraqlıdır ki, bu müddət ərzində cinayətkarlar nəinki məsuliyyətə cəlb edilməmiş, əksinə, siyasi müstəvidə geniş fəaliyyət azadlığı əldə etmişlər. Hazırda Ermənistan müxalifətinin əsas qüvvəsi məhz bu şəxslərin liderliyi altında fəaliyyət göstərməkdə, sülh sazişinin imzalanmaması üçün rəsmi İrəvana təzyiqlər etməkdədir. Xocalı qatili Robert Koçaryanın Ermənistan parlamentində təmsil olunan "Hayastan" siyasi blokuna liderlik etməsi faktı buna nümunədir. Bəs minlərlə insanın ölümündə bilavasitə rol oynayan bu şəxslərin məsuliyyətdən kənarda qalmasına səbəb nədir? Niyə faşist cəlladlarının cəzalandırıldığı məşhur Nürnberq prosesi "Qarabağ klanı"na münasibətdə təkrarlanmır?

### İkili standartların və siyasi riyakarlığın acı nəticəsi

Azərbaycan xalqına qarşı ağır hərbi cinayətlər törədən "Qarabağ klanı"nın məsuliyyətdən kənarda qalmasının ən başlıca səbəbi beynəlxalq hüquq və ədalət sistemindəki böhran, aparıcı güclərin sərgilədiyi siyasi riyakarlıqdır. İkili standartlar çərçivəsində həyata keçirilən bu siyasət beynəlxalq hüququn deyil, ayrı-ayrı güclərin maraq və mənafeyinə uyğun gəldiyi üçün "Qarabağ klanı" bu gün öz azadlığından heç nə itirmiş deyil. Əksinə, cəzasızlıq mühiti, beynəlxalq təşkilatların və lider dövlətlərin susqunluğu şəraitində separatçılar öz cinayətləri ilə öyünür, insanlığa yaraşmayan davranışlarını qəhrəmanlıq kimi təqdim edirlər. Nümunə üçün qeyd edək ki, Ermənistanın sabiq prezidenti Serj Sarkisyan tədqiqatçı Tomas de Valla müsahibəsində Xocalı soyqırımında şəxsən iştirakını bildirir və bundan fəxrlə söz açır. Sarkisyan məlum müsahibəsində bildirir ki, məhz Xocalı soyqırımı azərbaycanlılara ermənilərin öz niyətlərində nə qədər ciddi olduğunu başa saldı: "Xocalıya qədər azərbaycanlılar bizimlə sadəcə zarafat etdiklərini düşünürdülər. Azərbaycanlılar elə bilirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyən insanlardır. Bütün bu düşüncələri dəyişmək lazım idi. Belə də oldu..."

Əslində, oxşar etiraflar zaman-zaman Robert Koçaryandan da gəlib. Koçaryan 4 oktyabr 2021-ci il tarixli çıxışında Birinci Qarabağ müharibəsi zamanı Azərbaycandakı xaosdan istifadə edərək ölkəmizə məxsus torpaqları işğal etdiyini deyib. Sabiq prezident müxtəlif çıxışlarında dolayısı ilə Şuşanın erməni deyil, Azərbaycan şəhəri olduğunu da təsdiqləyib. Ancaq bütün bu etiraflara rəğmən beynəlxalq hüquq hələ də "Qarabağ klanı"nı məsuliyyətə cəlb etməyib. Bu gün Fransanın timsalında Avropadakı bəzi güclərin Ermənistanı hərbi-siyasi baxımdan açıq şəkildə dəstəkləməsi "Qarabağ klanı"nın törətdiyi cinayətlərə görə niyə hələ də məsuliyyətə cəlb olunmadığını izah edir. Rəsmi Parisin ermənipərəst bəyanatları göstərir ki, Qərb erməni separatçılarının törətdiyi vəhşiliklər haqqında məlumatlı olsa da, onları cəzalandırmaqda maraqlı deyil. Əksinə, oradakı bəzi dairələr həmin cinayətkarlardan yenidən "istifadə etməkdə" maraqlıdırlar.

### Bir qatilin digər qatildən fərqi

"Qatillər ittifaqı" kimi də dəyərləndirilə biləcək "Qarabağ klanı"nı tarixdəki analoqlarından fərqləndirən ən mühüm xüsusiyyətlərdən biri onların özünəməxsus həyasızlığı, formal da olsa, insani dəyərlərə hörmət nümayiş etdirməməsidir. Müqayisə üçün qeyd edək ki, Yuqoslaviyanın sabiq prezidenti Slobodan Miloşeviç 2001-ci ildə ölkəsində saxlanılaraq BMT-nin Haaqa Beynəlxalq Məhkəməsinə təhvil verilmiş, 2006-cı il martın 11-də Haaqada həbsxanasında ürək tutmasından dünyasını dəyişmişdir. 1990-cı illərdə Bosniya, Xorvatiya və Kosovoda dinc sakinlərə qarşı silsilə cinayətlərdə və soyqırımlarında ittiham olunan S.Miloşeviçin qəfil ölümü məhkəmə prosesini yarıda qoysa da, 2013-cü il aprelin 25-də Serbiyanın o vaxtkı prezidenti Tomislav Nikolits baş verənlərə görə soyqırımı qurbanlarından üzr istəmişdir: "Mən diz çökür və Srebrenitsada baş verən qırğın üçün Serbiyanın bağışlanmasını xahiş edirəm. Mən bəzi şəxslər tərəfindən bizim dövlətimiz və xalqımızın adından edilən bu cinayətlər üçün üzr istəyirəm".

Serbiya parlamenti isə 2010-cu ildə qətnamə qəbul edərək, serb ordusunun 15 il əvvəl Srebrenitsada törətdiyi qətliama görə bölgənin müsəlman xalqından üzr istəmiş, öz təəssüfünü bildirmişdir.

İkinci Dünya müharibəsindən sonra nasistlər üzərində gerçəkləşən Nürnberq məhkəməsi də peşmanlıq dolu etiraflar və intiharlarla zəngindir.

Sov. İKP MK-nın sonuncu Baş katibi Mixail Qorbaçov 20 Yanvar faciəsinə görə Azərbaycan xalqından üzr istəməsə də, gürcü və Litva xalqlarından üzr istəmiş, öz günahını etiraf etmişdir. Lakin bugünə qədər "Qarabağ klanı"nın heç bir nümayəndəsi xalqımıza qarşı törətdikləri vəhşiliklərə görə Azərbaycandan üzr istəməmiş, öz peşmanlığını dilə gətirməmişdir. Bu, erməni separatçılarının üzrxahlıq və vicdan hissindən, peşmanlıq duyğusundan məhrum olduğunu göstərir.

### Müharibə caniləri meydan sulayır

Unutmaq olmaz ki, bu klan Azərbaycan xalqı ilə yanaşı, erməni toplumuna da böyük bəlalar, fəlakətlər gətirib. Məhz "Qarabağ klanı"nın başlatdığı Birinci Qarabağ müharibəsi Azərbaycanla yanaşı, erməni tərəfini də ciddi itkilərə məruz qoymuş, erməni toplumu separatçıların hakimiyyət hərisliyini cəbhədə həlak olan doğmalarının qanı hesabına ödəmişdir.

Bu gün də 10 noyabr 2020-ci il Bəyanatını tanımaq istəməyən "Qarabağ klanı" Ermənistanı Azərbaycanla yeni toqquşmaya sövq edir. Paşinyan hakimiyyətinə ciddi təzyiqlərin göstərilməsi, İrəvanın təslimçi sülhə hazırlaşması ilə bağlı Ermənistan mətbuatında məlumatların tirajlanması, ordumuzun mövqelərinin tez-tez atəşə tutulması, mina terrorunun davam etdirilməsi və s. kimi proseslər də əsasən bu klan tərəfindən idarə olunur.

Xatırladaq ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində məğlub etdiyi ordunun təməli də məhz "Qarabağ klanı" tərəfindən qoyulub. Elə bu səbəbdən də Prezident İlham Əliyev çıxışlarında Vətən müharibəsində darmadağın edilən düşmən ordusunu "Sarkisyan-Koçaryan ordusu" kimi dəyərləndirir. Dövlət başçısı 2020-ci ilin dekabrında – Vətən müharibəsindən qısa müddət sonra ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan həmsədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edərkən bu gerçəkliyə toxunaraq demişdir: "Azərbaycan Sarkisyan və Koçaryan ordusunu məğlub etmişdir. İşğalçıların Ermənistan ordusu və demək olar ki, erməni dövləti məhv olmuş, erməni millətçilərinin üzdəniraq "artsax" xülyaları dağıdılmışdır".

Bütün bu faktlar onu göstərir ki, erməni toplumu onu yeni və gərəksiz müharibələrə sürükləyən "Qarabağ klanı"ndan xilas olmaq üçün qəti addımlar atmalı, onu qana boğan cinayətkarların cəzasını öz əlləri ilə verməlidir. Əks təqdirdə, "Qarabağ klanı" Ermənistan cəmiyyətinə ölümcül məhrumiyyətlər gətirməkdə davam edəcək, bundan sonra da onu öz ambisiyalarına qurban verəcəkdir.

Bəs əli Azərbaycanla yanaşı, həm də öz xalqının qanına batan "Qarabağ klanı" üçün "Qiyamət günü" nə vaxt reallaşacaq? Bu sualın cavabı öncə beynəlxalq təşkilatlardan və erməni toplumundan, onların cəsarət və iradəsindən asılıdır. Və nə zaman ki, beynəlxalq hüquq, eləcə də hüquqsuz erməni toplumu ayağa qalxacaq, "Qarabağ klanı"nın Günəşi o gün həmişəlik batacaqdır.

***Seymur ƏLİYEV***

# Həkəri postu – hamı razı və məmnun

## Məgər Qarabağda yaşayan və separatçıların girovuna çevrilən etnik ermənilərin dilə gətirməyə qorxduqları bu deyildimi?

(əvvəli 1-ci səhifədə)

Bu, sözsüz ki, dövlət başçısının apardığı ardıcıl hərbi və diplomatik siyasətin nəticəsi olaraq əldə olunmuş uğurdur. Eyni zamanda, Bakının Ermənistan ordusunun tör-töküntüsünün ərazilərimizdə qalmasına, sülhməramlıların onlara silah-sursat, mina daşımağa şərait yaratmasına, Moskvanın Ruben Vardanyan planına, təbii sərvətlərimizin talan edilməsinə, İran vətəndaşlarının qanunsuz olaraq torpaqlarımıza keçməsinə, Fransa Senatının sərsəm bəyanatlarına, eləcə də regionda yeni reallığı qəbul etmək istəməyən, Azərbaycanın güclənməsini arzulamayan qüvvələrə verilən tutarlı cavab idi.

Nəzarət-buraxılış məntəqəsinin fəaliyyətə başladığı ilk günlərdə Qarabağda yaşayan etnik ermənilərdə müşahidə edilən müəyyən gərginlikdən artıq əsər-əlamət qalmayıb. Çünki Azərbaycan sərhədçiləri onların hər iki istiqamətdə sərbəst gediş-gəlişinə lazımi şəraiti yaradıblar. Azərbaycan sərhədçiləri buraxılış məntəqəsindən keçən ermənilərlə nəzakətlə davranır, yüksək mədəniyyətlə onlarla təmas qururlar. Onlardan zəruri yoxlanışdan keçmələri üçün sərhədçi-nəzarət kabinəsinə yaxınlaşmaları xahiş olunur və bundan sonra avtomobillərin yük yerinə vizual baxış keçirilir.

Bütün proses sərhədçilərimizin yüksək peşəkarlığı ilə müşayiət olunur. İyirmi beş gün əvvəllə müqayisədə görünən odur ki, Qarabağın erməni əhalisi artıq reallığa barışmaqdan, ən vacibi isə bölgədə rahat və təhlükəsiz yaşamaları və hərəkət etmələri üçün Azərbaycan qanunvericiliyinə tabe olmaqdan başqa çıxış yollarının olmadığını qəbul ediblər. Onlar bu məntəqə quruluduqdan sonra azərbaycanlıların münasibəti barədə separatçıların apardığı anti-təbliğatın doğru olmadığını öz gözləri ilə görürlər. İnanırıq ki, indi Bakının konkret təklifini – Azərbaycan vətəndaşı olmaq şərtini qəbul etmək barədə ciddi düşünməyə başlayıblar. Bölgəyə humanitar xarakterli yüklərin daşınmasına hansısa maneçilik törətməkdən söhbət gedə bilməz.

İki gün bundan əvvəl Həkəri postunda lentə alınmış və telekanallarda, sosial şəbəkədə nümayiş etdirilən kadrlardan da göründüyü kimi, Azərbaycan sərhədçiləri və gömrükçüləri tərəfindən sənədləri yoxlanılan Qarabağın etnik erməniləri məntəqədə yaradılmış şəraitdən və gördükləri münasibətdən razıdırlar.

### Bəs aprelin 23-dək vəziyyət necə idi?

2023-cü il aprelin 23-dək Laçın-Xankəndi yolundan humanitar deyil, hərbi məqsədlər üçün istifadə edilirdi. Bu vəziyyət isə beynəlxalq hüquq normaları ilə bir araya sığmayan presedent yaradırdı. Aprelin 22-də İrəvan birtərəfli qaydada Azərbaycan-Ermənistan sərhədinin Laçın yolunun başlanğıcına yaxın ərazidə post qurmağa başladı. Buna cavab olaraq Azərbaycan öz suveren ərazisində, Laçın yolunun başlanğıcında, şərti sərhəddə nəzarət-buraxılış məntəqəsini reallaşdırmalı idi və bunun anonsu xeyli əvvəl verilmişdi. Bu addımı şərtləndirən digər səbəb ekofəalların Laçın-Xankəndi yolunda həyata keçirdikləri aksiyalarda irəli sürdükləri tələblər idi. Tələblər ondan ibarət idi ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda təbii sərvətlərimizin qeyri-qanuni daşınaraq Ermənistana aparılmasının qarşısı alınsın. Bunlardan heç də az əhəmiyyət kəsb etməyən başqa bir səbəb isə Azərbaycanın Vətən müharibəsində zəfərindən sonra imzalanmış 10 noyabr Bəyanatının müddəalarına uyğun olaraq Ermənistan silahlı qüvvələrinin qalıqlarının Qarabağdan çıxarılması və əraziyə Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi idi. Amma biz reallıqda nəyi gördük? Gördük ki, Qarabağda yaşayan ermənilərin gediş-gəlişini asanlaşdırmaq məqsədilə yaradılan yoldan separatçılar fərqli məqsədlər üçün istifadə edirlər. Həmin yolla Ermənistandan Qarabağdakı qeyri-qanuni silahlı birləşmələrə, separatçılara silah-sursat, mina, canlı qüvvə daşınır, üçüncü dövlətin xüsusi xidmət orqanları tez-tez bu ərazilərə səfərlər edirlər. Və bu təxribatlar nəinki rus sülhməramlılarının gözü qarşısında baş verirdi, bundan daha betəri, silah-sursatla, minalarla dolu kolonları məhz onlar müşayiət edirdilər. Artıq foto-video görüntülərlə təsdiqini tapan bu faktlara göz yummaq mümkün deyildi.



### Ekspert rəyi



**Aydın QULİYEV, Milli Məclisin deputatı**

10 noyabr 2020-ci il Bəyanatından sonra Azərbaycan sərhədçiləri tədricən bütün şərti sərhəd xətti boyu ərazini öz nəzarətinə götürdülər. Yalnız Laçın yolu müvəqqəti olaraq Rusiya sülhməramlılarının nəzarəti altında qalmışdı. Bu məntəqə gec-tez qurulacaqdı. Ermənistan və onu dəstəkləyən xarici qüvvələr fikirləşməli idi ki, Azərbaycan bu yolu nəzarətsiz buraxacaq və öz ərazisinə təxribatçı qrupların sərbəst daxil olmasına dözəcək. Bu, mümkün deyildi. 2020-ci ildən sonra İrəvan ərazi bütövlüyümüzü tanımaqdan imtina edirdi, Rusiya sülhməramlılarının nəzarətindəki ərazimizdə 10 min nəfərlik silahlı birləşməsini saxlayırdı və həmin erməni silahlıları Azərbaycan ordusuna qarşı mütəmadi təxribatlar törədirdilər. Hətta 2021-ci ildə Ermənistanda istehsal olunan minaları diversiya qrupları daşıyaraq ərazilərimizdə basdırırdılar. Məhz bunun nəticəsində 300-ə qədər vətəndaşımız mina partlayışlarında həlak olmuş və ya xəsarət almışdır. Bu amillər Laçın yolunda sərhəd-buraxılış məntəqəsinin qurulmasını zəruri etdi. 2023-cü il aprelin 23-də Laçın yolunda nəzarət-buraxılış məntəqəmiz quruluduqdan sonra şərti sərhədimizə tam nəzarət təmin olundu. İndi Qarabağda yaşayan ermənilər sənədlərini təqdim etməklə, bu məntəqədən rahat keçə bilirlər. İrəvanın, separatçıların blokada iddialarına cavab kimi deyirik: bu necə blokadadır ki, insanlar sərbəst şəkildə Azərbaycandan kənara çıxır və geri qayıdırlar. Bu necə blokadadır ki, sakinlərə hər cür kommunal xidmətlər göstərilir. Sayları 25 minə çatan bu sakinlər Azərbaycan vətəndaşı kimi Qarabağda qalıb yaşamağı, yaxud xaricdə özlərinə yeni ünvan seçməkdə də sərbəstdirlər.

### Söhbət həm də laçınlıların təhlükəsizliyindən gedir

Azərbaycanın beynəlxalq hüququn prinsipləri ilə üst-üstə düşən bu addımını həzm edə bilməyən Ermənistan hələ də Bakını şərti sərhəddə vəziyyəti gərginləşdirməkdə, Qarabağ bölgəsini blokadaya alaraq humanitar böhran yaratmaqda, burada etnik təmizləmə planını həyata keçirməyi hədəfləməkdə günahlandırmağa çalışır. Hayların bununla bağlı yalan və təhrifdən yoğrulmuş müraciətlərinə reaksiya verənlər isə yalnız Asiya və Avropadakı "bacı" və "qardaşları", bir də erməni lobbisinin pulla satın aldığı personalardır. Amma dünya artıq ermənilərin dezinformasiyalarından, yalanlarından bezib.

Yuxarıda Həkəri postunun qurulmasını şərtləndirən amilləri sadaladıq. Bu sıraya daha birini – laçınlıların doğma torpaqlarına qayıdışı ilə bağlı onların təhlükəsizliyinin təmin olunmasını da əlavə etməyi zəruri sayırıq. Otuz il işğal altında inləyən digər rayonlarımızla müqayisədə dağıntıya daha az məruz qalmış və bir güllə belə atmadan yağıdan geri aldığımız Laçında bərpa-quruculuq işləri sürətlə aparılır və torpağın əsl sahiblərinin ora qayıtması bu yaxınlarda gerçəkləşəcək. Birinci mərhələdə Laçın şəhərinin özünə, sonra yolun ətrafındakı kəndlərə qayıdacaq vətəndaşlarımızın təhlükəsizliyi Bakı üçün önəmli məsələdir. Bu nöqteyi-nəzərdən Həkəri çayının üzərində qurduğumuz sərhəd nəzarət-buraxılış məntəqəsinin əhəmiyyəti birə-beş artır.

Yəqin vətəndaşlığımızı qəbul edəcək Qarabağın dinc erməni sakinlərinin Azərbaycana yenidən inteqrasiyası da məhz bu ərazidən başlayacaq...

*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

# Paşinyan üçün son seçim

**Baş nazir Nikol Paşinyanın Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı son vaxtlar səsləndirdiyi fikirlər Ermənistan daxilində və Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyəti altında olan hissəsində yaşayan ermənilər arasında ona qarşı yeni cəbhə açılmasına səbəb olub.**

Qeyd edək ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü ilk dəfə 2022-ci il oktyabrın 6-da Praqada və oktyabrın 31-də Soçidə keçirilmiş görüşlərdə 1991-ci ildə imzalanmış Alma-Ata Bəyannaməsi əsasında tanıdığını bəyan edib. Bu bəyannamə ilə yeni müstəqillik qazanmış ölkələr SSRİ dövründə mövcud olmuş müttəfiq respublikaların inzibati sərhədlərini tanıyırlar. Beləliklə, Praqa və Soçi sənədləri ilə Hayastan Azərbaycanın Qarabağ üzərində suverenliyi ilə qəbullanıb.

Bu il aprelin 18-də parlamentdə çıxış edən N.Paşinyan ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tam tanıdığını bir daha bildirib: "Ermənistan 29,8 min kvadratkilometr sahədə tanınır və heç bir başqa ölkəyə ərazi iddiası yoxdur. Ermənistan və Azərbaycan arasında sülh sazişi o zaman reallaşacaq ki, iki ölkə birmənalı şəkildə, qeyri-müəyyənliklər və tələblər olmadan bir-birinin ərazi bütövlüyünü tanıyacaq və bir-birinə heç vaxt ərazi iddiası irəli sürməyəcək. Mən bir daha təsdiq edirəm ki, biz Azərbaycanın ərazi bütövlüyünü tam şəkildə tanıyırıq və gözləyirik ki, Azərbaycan da Ermənistan SSR-in bütün ərazisini Ermənistan Respublikası kimi tanımaqla eyni şeyi edəcək".

N.Paşinyan mayın 4-də Çexiyaya rəsmi səfəri zamanı Praqada Transatlantik Əlaqələr Mərkəzində çıxışı zamanı da bu fikrini təkrarlayıb. On gün sonra – mayın 14-də Brüsseldə Prezident İlham Əliyev, N.Paşinyan və Avropa İttifaqı Şurasının rəhbəri arasında keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlama verən Şarl Mişel deyib: "Liderlər 1991-ci ilin Alma-Ata Bəyannaməsinə və Ermənistanın 29,8 min kvadratkilometr və Azərbaycanın 86,6 min kvadratkilometr ərazisinin toxunulmazlığına birmənalı sadiqliklərini təsdiq etdilər".

Nəhayət, son olaraq mayın 17-də Avropa Şurasının İslandiyanın paytaxtı



Reykyavik şəhərində keçirilən dördüncü sammitində çıxışı zamanı N.Paşinyan Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirib: "Üç gün əvvəl Aİ Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə biz irəliyə doğru addım atdıq və vurğuladıq ki, Ermənistan Azərbaycanın 86,6 min kvadratkilometr, Azərbaycan isə Ermənistanın 29,8 min kvadratkilometr ərazisini tanıyır. SSRİ tərkibindəki Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasındakı inzibati hüdudlar dövlət sərhədlərinə çevrilir".

Bütün bu fikirlər qeyd etdiyimiz kimi, Hayastan daxilində və Qarabağ erməniləri arasında Paşinyan əleyhinə etirazların baş qaldırmasına səbəb olub. Xüsusilə, separatçıların mövqeyi onların N.Paşinyanın fikirlərini yaxına buraxmaq istəmədiklərini nümayiş etdirir. Mayın 15-də Xankəndidə Samvel Babayana "dövlət naziri" vəzifəsinin verilməsi tələbi ilə mitinq keçirilib. Qeyd edək ki, o, vaxtilə Qarabağdakı separatçı rejimin "təhlükəsizlik şurası"nın katibi olub. S.Babayan mitinqdə deyib ki, ona vəzifə lazım deyil və əgər müşahidəçi kimi kənardan baxsalar, "qaçqın" düşə bilərlər: "Bugünlərdə Brüsseldə dedilər ki, Qarabağ da daxil olmaqla, Azərbaycanın 86,6 min kvadratkilometr ərazisi var. Ermənistan etiraf edir ki, bu, Azərbaycan ərazisidir və bu, onun hüququdur". Babayan deyib ki, bu gün Qarabağda çoxları özlərini xilaskar kimi göstərir və sonadək mübarizə aparmağa çağırırlar, amma bu əbəsdir: "Bizə heç bir mübarizə lazım deyil. Biz yaşamalı, yaratmalı və müdafiə olunmalıyıq. Bu, bizim gələcəyimizdir və bu yolla getməliyik".

Qondarma rejimin keçmiş "dövlət naziri", Azərbaycanın tələbi ilə bu "vəzifə"dən uzaqlaşdırılmış, hazırda "Artsaxın təhlükəsizlik və inkişaf cəbhəsi" adlanan qondarma qurumun koordinatoru Ruben Vardanyan da dilə gəlib. O, mayın 18-də keçirdiyi mətbuat konfransında bildirib ki, "Artsaxın gələcəyi başqalarının deyil, bizim əlimizdədir, Artsaxın gələcəyini biz həll edirik". Vardanyanın sözlərinə görə, "Artsax xalqı öz vətənlərini sona qədər müdafiə etməyə yüz faiz hazırdır".

Bu arada dünən Ermənistanın və Qarabağın 30-dan çox "siyasi qüvvəsi" birgə bəyanatla çıxış edərək bildirib ki, hazırkı geosiyasi şəraitdə təzyiq və təhdid altında Ermənistan-Azərbaycan danışıqlarının süni şəkildə sürətləndirilməsi erməni xalqının maraqlarına uyğun deyil. Qeyd olunur ki, Brüsseldə keçirilən görüşün yekunlarına dair açıqlama, həmçinin N.Paşinyanın Reykyavikdə səsləndirdiyi yanaşmalar erməni xalqının dərin narahatlığına səbəb olub: "Nikol Paşinyan Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması ilə bağlı belə razılaşmalar əldə etmək və vədlər vermək səlahiyyətinə malik deyil. Delimitasiya və demarkasiya prosesləri Birinci Qarabağ müharibəsi nəticəsində baş vermiş qarşılıqlı de-anklavasiyanı düzəltməli və anklavlara qayıdışı istisna etməlidir. Bu müddəalara zidd olan hər hansı danışıqların nəticəsi qəbuledilməzdir və dünya ermənilərinin maraqlarını əks etdirmir".

Ermənistan və Qarabağdakı "partiyaların" Paşinyan əleyhinə yaydığı birgə bəyanata ölkənin ilk prezidenti Levon Ter-Petrosyanın rəhbərlik etdiyi Erməni Milli Konqresi partiyasının qoşulmadığı da diqqətdən yayınmır. Partiya bəyanata qoşulmamasını onun bir sıra bəndlərinin beynəlxalq hüquqa zidd olması ilə əlaqələndirib. Diqqətçəkən məqam Erməni Milli Konqresinin açıqlamasında Qarabağın "öz müqəddəratını təyinetmə" məsələsinə yer verilməməsidir.

**Mövzu ilə bağlı "Xalq qəzeti"nin suallarını cavablandıran Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin**



**İdarə Heyətinin sədri Fərid Şəfiyev** bildirib ki, Paşinyana qarşı kampaniya öncə də var idi, indi isə güclənir: "Amma Paşinyanın Reykyavikdəki açıqlaması ürəkaçan deyil. Məncə, ermənilər taktiki gediş edirlər. Deyirlər ki, bəli, biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq. Amma Paşinyanın Reykyavikdəki çıxışını kim sözbəsöz oxuyubsa, görə bilər ki, onun taktikası dəyişib. Deyir ki, biz Azərbaycanın ərazi bütövlüyünü, o cümlədən Qarabağ üzərində suverenliyini tanıyırıq. Amma eyni zamanda, üçüncü dövlətlər vasitəsilə Qarabağın "müstəqilliyi"nin tanınmasına çalışacaqlar".

F.Şəfiyev qeyd edib ki, Ermənistanın bizə qarşı Beynəlxalq Ədalət Məhkəməsində, Avropa İnsan Hüquqları Məhkəməsində iddia qaldırması da buna xidmət edir: "Azərbaycanın, guya, Qarabağda etnik təmizləmə hazırladığını da Paşinyan deyir. Ona görə də son vaxtlar Ermənistanın Azərbaycanın ərzi bütövlüyünü tanıdığı barədə fikirlər səsləndirərkən bir qədər ehtiyatlı olmaq lazımdır".

Daxildə Paşinyana qarşı çıxan qüvvələrə gəldikdə isə mərkəz rəhbəri bunu müəyyən dərəcədə teatr adlandırıb: "Amma həqiqətən, ona qarşı çıxanlar, onu xain hesab edənlər də var. Belə insanlar diasporda daha çoxdur. Təbii ki, Rusiya faktoru da var. İstənilən halda digər siyasətçilərlə müqayisədə Paşinyanla danışıqları davam etdirmək daha münasibdir".

**Politoloq Fərhad Məmmədov** qəzetimizə açıqlamasında N.Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanımaqla bağlı bəyanatının Ermənistanda böyük səs-küyə səbəb olduğunu bildirib. Qeyd edib ki, Paşinyan hansısa sənədə imza atsa belə, onun parlamentdə ratifikasiyası, Konstitusiya Məhkəməsindən keçməsi və qüvvəyə minməsi çətin ola-



caq: "Çünki Ermənistanın daxili qanunvericiliyində bir neçə sənəd var ki, həmin sənədlərdə Qarabağ ərazisi birbaşa və dolayısı ilə Ermənistan ərazisi kimi qeyd edilib. Yəni, onlar ya həmin sənədləri ləğv etməli, ya da ziddiyyət olduğu üçün Konstitusiya Məhkəməsi öz rəyini verməlidir. Bax, burada hüquqi, prosedur baxımından problemlər gözlənilir".

Siyasi müstəviyə gəldikdə isə F.Məmmədov qeyd edib ki, yaz-yay aylarında kütləvi aksiyaların keçirilməsi üçün əlverişli şərait yaranır: "Böyük ehtimalla yaxın zamanlarda Ermənistanda kütləvi aksiyalar başlayacaq".

**Politoloq Yeganə Hacıyeva** isə hesab edir ki, Ermənistanda Paşinyan tərəfindən idarə olunan və müstəqil siyasi qüvvələr var. Onun sözlərinə görə, təkcə Paşinyan üçün deyil, ondan sonra Ermə-



nistanda siyasi hakimiyyətə gələcək istənilən qüvvə üçün Azərbaycanla uzlaşma vacibdir: "Paşinyan artıq sənəd üzərində Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Burada bir də Rusiya faktoru var. Hazırda Rusiyanın Ermənistan cəmiyyətinə təsir vasitələri əvvəlki kimi deyil. Cəmiyyətin üzünü Qərbə, yaxud Yaxın Şərqə, İrana çevirməsi əsas deyil. Əsas odur ki, Rusiyanın Ermənistanda əvvəlkitək güclü təsir vasitəsi yoxdur. Bundan sonra proses sülh sazişinin imzalanmasınadək davam edəcək. Əgər vəziyyət xeyli dərəcədə gərginləşsə, Paşinyan təkrar seçkilərə gedəcək və situasiyanı 2021-ci ildə olduğu kimi, təkrar seçkilər vasitəsilə öz xeyrinə dəyişməyə çalışacaq".

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

# Heydər Əliyev ömrünün hər ili bir əsrə bərabərdir



**Vəd etdiyimiz kimi, ictimai-siyasi xadim, istər sovet, istərsə də müstəqil Azərbaycanda ulu öndər Heydər Əliyevin rəhbərliyi altında müxtəlif rəhbər vəzifələrdə çalışmış, YAP Veteranlar Şurasının üzvü Əli Həsənovla müsahibənin davamını təqdim edirik.**

**(əvvəli qəzetin 10 may 2023-cü il tarixli sayında)**



**– Əli müəllim, ulu öndər haqqında oxuduqlarımdan və apardığım araşdırmalardan belə bir qənaətə gəlmişəm ki, Heydər Əliyev Moskva dövrü fəaliyyətində SSRİ tarixində iz qoymaqla yanaşı, həm də Rusiyanın ictimai-siyasi və sosial-iqtisadi həyatında unudulmaz xidmətlər göstərib.**

– Əlbəttə. Bunu sübut edən kifayət qədər faktlar, tarixi sənədlər və o dövrün ictimai-siyasi xadimlərinin xatirələri var. Məsələn, 1984-cü il yanvarın 4-də Sov.İKP MK-nın baş katibi Konstantin Çernenkonun rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış "Ümumi təhsil və peşə məktəbi islahatının əsas istiqamətləri" haqqında layihə dərc olundu. Heydər Əliyev məktəb islahatının əsas tərtibçisi və kuratoru idi. Bir neçə aydan sonra orta təhsil islahatı qüvvəyə mindi: müəllim hazırlığının təşkili və məktəbəqədər təhsil sistemində edilən digər dəyişikliklərlə əlaqədar 1984-cü il aprelin 12-də Sov.İKP MK-nın beş qərarı dərc olundu. SSRİ Nazirlər Sovetinin bu qərarlarına müəllimlərin maaşlarının artırılması və sosial şəraitinin yaxşılaşdırılması haqqında 318 nömrəli qərar əlavə edildi. İbtidai məktəbə bir il əvvəl, 6 yaşından başlanması təklif edildi, orta ümumtəhsil məktəbində təhsil müddəti isə 10 ildən 11 ilə qədər uzadıldı. Məktəblərdə yeni bir fənn meydana çıxdı - kompüter texnologiyası və proqramlaşdırmanın əsasları. Bundan sonra kütləvi şəkildə sovet istehsalı olan fərdi kompüterlər alındı. Bu islahat məktəbin ictimai dəyərini və müəllim peşəsinin nüfuzunu yüksəltdi, təhsilin idarə edilməsi strukturu dəyişdi.

Rusiyalı salnaməçilər qeyd edirlər ki, SSRİ-nin paytaxtı Moskvanın 2000-ci ilə qədər inkişafının baş planı da qismən Heydər Əliyevin təklifləri əsasında hazırlanıb. Çünki hələ Azərbaycan KP MK-ya rəhbərlik etdiyi vaxtlarda Heydər Əliyev 1981-ci ilin oktyabrında Moskva Memarlar Evindəki görkəmli memarları və inşaatçıları heyran qoyan bir çıxış edir və məhz burada ifadə etdiyi təşəbbüslər SSRİ-nin baş şəhərinin yeni inkişaf planının hazırlanmasında istifadə edilir. Yeri gəlmişkən, onu da qeyd edim ki, 1970-ci illərin sonlarında Heydər Əliyev Azərbaycan memarları tərəfindən təklif edilmiş, Bakı buxtasında süni adada Dünya Ticarət Mərkəzi layihəsini çox dəstəkləmişdi. Lakin onu Moskvaya aparandan sonra həmin layihə bir təklif kimi qaldı. Məndə olan məlumata görə, indi Heydər Əliyevin bu arzusunun gerçəkləşməsi ideyasına yenidən nəfəs vermək Azərbaycan rəhbərliyinin gündəmindədir.

Heydər Əliyevin Moskva fəaliyyəti dövründə mədəniyyət sahəsində ünvanlı dövlət dəstəyi üsullarını da xüsusi xatırlamağa ehtiyac var. O, bu üsulu Azərbaycanda gerçəkləşdirmişdi və nəticədə Azərbaycan mədəniyyətinə yeni nəfəs vermiş, bu sahənin intibahına yol açmışdı. Yəni, onun idarəetmə təcrübəsinin bir çox elementləri bu gün Azərbaycanda olduğu kimi, Rusiyada da geniş istifadə olunur.

...1980-ci illərdə iqtisadi sistem, iqtisadiyyatı idarəetmə üsulları və ticarət sürətlə dəyişirdi. Heydər Əliyevin Moskva dövrü Nazirlər Sovetinin mühüm qərarlarından biri "Vətəndaşlara kreditlə uzun müddətə istifadə olunan malların satışı" idi və bu qərar 1985-ci il iyulun 5-də mətbuatda dərc edilmişdir. Yeni ticarət qaydaları alıcılara kreditlə mal almağa imkan verirdi. Baxın, 40 il əvvəl Heydər Əliyevin başladığı o işlər bu gün bütün postsovet məkanında geniş miqyas alıb.

Heydər Əliyevin Moskva dövrü fəaliyyəti Rusiya üçün heyrətamiz faktdır. Çünki o, böyük bir ölkənin tarixində özünəməxsus iz qoymuş və islahatçı rəhbər kimi yaddaşlara köçmüşdür. Bununla belə, o da faktdır ki, Heydər Əliyevin Kremldən, SSRİ rəhbərliyindən uzaqlaşdırılması ilə vətəndaşların sovet rəhbərlərinə romantik inam zənciri tamam qırılmışdı. İndi onun Sovet İttifaqının rəhbərlərindən biri kimi Kreml dövründəki fəaliyyəti ilə bağlı ən müsbət, xoş təəssüratlar, həmin dövrdə yaşayan, o fəaliyyəti izləyən və müşahidə etməyi bacaran minlərlə Rusiya ziyalısının, sadə insanların, vicdanlı rəhbər işçilərin çoxunda qalıb.

SSRİ Kimya Nazirliyinin Azərbaycandaki birliyində çalışanda, nazirin tikinti üzrə müavini ilə çox yaxşı münasibətim vardı. Milliyyətcə rus idi. Bilavasitə mənim rəhbərim idi və Azərbaycana vəsait ayırmağa kömək edirdi. Sonralar Moskvada onunla görüşəndə, Qorbaçovla bağlı mənə maraqlı bir epizod danışdı. Dedi, regionlardan birində bizim zavodun açılışı olmalı idi. Qorbaçov səfəri çərçivəsində həmin obyektin açılışını etməli idi. Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev də orada idi. Qorbaçov və MK-nın nümayəndələri camaatın toplaşdığı yerdə maşından düşdülər və obyektə tərəf getməyə başladılar. Bu məqamda bir yaşlı kişi Heydər Əliyevə tərəf yeridi və ona yaxınlaşanda dedi ki, yoldaş Baş katib, sizə sözüm var. Elə bildi ki, Baş katib Heydər Əliyevdir. Qorbaçovun ətrafından bir nəfər tez ona yaxınlaşıb əli ilə Qorbaçovu göstərdi ki, Baş katib odur...

**− Heydər Əliyev SSRİ kimi nəhəng bir ölkədə, bu qədər ağır sahələrə nəzarət etməyə və üstəlik, uğurlar əldə edərək xalq tərəfindən sevilməyə nəyin hesabına nail olurdu?**

− Əvvəldə qeyd etdiyim kimi, Heydər Əliyevin həyat tarixçəsi aydın göstərir ki, o, idarəçi kimi böyüyüb və sosializm sisteminin ideoloji klişələri ilə mürəkkəbləşmiş yüksək intensivlikli aparat riskləri sistemində çalışıb. Onun belə bir sistemdə karyera pillələrində sürətlə irəliləməsinə qətiyyəti, dərin zəkası, polad iradəsi, fitri idarəçilik istedadı, çevikliyi və fenomenal uzaqgörənliyi səbəb olub. Bu, çoxdan təsdiqini tapmış faktdır.

Heydər Əliyevin Moskvaya aparılması və Kremldə bacarıqlı rəhbər kimi daha gur parlaması, şübhəsiz, Brejnevdən sonra baş katib postuna gələn Andropovun adı ilə bağlıdır. Bir çox rus müəlliflərinin məqalələrindən və tədqiqatçıların əsərlərindən oxumuşam ki, yeni və ancaq qoca Andropovun ətrafındakı hakimiyyət dairəsində Heydər Əliyev birincilər sırasında idi. Bu dairədə əsas yeni fiqurlar Heydər Əliyev, Vitali Fedorçuk və Ukrayna Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Vladimir Şerbitski olub. Andropovun Sov.İKP MK Siyasi Bürosunun Baş katibi vəzifəsində olduğu dövrlə ondan əvvəlki dövr arasında fərq onda idi ki, onun tanıdığı və inandığı Heydər Əliyevin rəhbərlik etdiyi Nazirlər Soveti qrupu və bu Azərbaycan oğlunun aparatı elmi-texniki tərəqqini sürətləndirməklə, SSRİ-nin sosial-iqtisadi inkişafında güclü sıçrayış hazırlayırdı. Bunu Heydər Əliyevin böyük gələcəyə hazırlanması kimi də qiymətləndirmək olar. Bu fikri təsadüfən işlətmirəm, çünki SSRİ Xarici işlər naziri Andrey Qromıkonun oğlu xatirələrində qeyd edir ki, onun atası baş katib vəzifəsində cəmi üç gənci görürdü: Romanov, Əliyev, Qorbaçov. Bu da səbəbsiz deyildi.

Leninqrad Vilayət Partiya Komitəsinin birinci katibi Romanovun bölgəyə və şəhərə rəhbərlik etdiyi on üç il bütün XX əsrdə bölgənin həyatında ən uğurlu dövr sayılırdı. Bu da iqtisadi göstəricilərdə tam əksini tapır.

Romanov və Əliyev Andropov islahatlarının ən azı yarısı üçün iki ağır çəkili rəhbər kadr idilər. Amma Andropovdan sonra SSRİ rəhbərliyi uğrunda qruplaşmalararası mübarizədə Romanov Stavropol vilayət katibinin qruplaşması tərəfindən sıradan çıxarıldı. Doğrudur, Sovet İttifaqında Siyasi Büro Nazirlər Şurasının "mühərriki" kimi dəyərləndirilirdi, amma Heydər Əliyev Baş katib postuna namizəd kimi qəbul olunmurdu. Çünki SSRİ-də post-Stalin sindromu qüvvədə idi. Bu o deməkdir ki, 1953-cü ildən sonra Qafqazdan və ya Asiyadan olan şəxslərin SSRİ-yə rəhbərlik etməyəcəyi ilə bağlı açıqlanmayan konsensus formalaşmışdı. Məhz bu stereotiplər üzündən "Qırmızı imperiya" Heydər Əliyevə göz yummaqla büdrədi.

Nə qədər qəribə olsa da, o zaman post-Stalin sindromundan yaxşı xəbərdar olan Heydər Əliyev özü də Qorbaçovu dəstəklədi, çünki onu yaxşı rəhbər, ən əsası isə belə bir vəzifədə layiqli partiya yoldaşı hesab edirdi. Çünki Baş katib postunda fəaliyyətə başlayana qədər Qorbaçovla Heydər Əliyev arasında heç bir çəkişmə yox idi və gələcəkdə belə bir halın baş verəcəyini təsəvvür etmək çətin idi. Qorbaçov baş katib olana qədər Heydər Əliyevə yaxşı münasibət göstərib. Bütün bunlara baxmayaraq, strateji baxımdan Heydər Əliyevin SSRİ-nin iqtisadi həyatında bilavasitə icraçı rol oynadığı modernləşmə dalğası arzuolunan effekti verdi. Qorbaçov artıq bunu görürdü və içindəki qısqanclıq sürətlə alovlanmağa başladı. O, başa düşürdü ki, bu modernləşmə hansısa baş katibin yox, məhz Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır və bunu bütün SSRİ görür, başa düşür.

Ona görə də Qorbaçov demək olar ki, dərhal "köhnə qvardiya"nın nümayəndələrindən və Heydər Əliyev kimi nisbətən gənc potensial rəqiblərdən qurtulmağa başladı. Qeyd etdiyimiz kimi birinci Romanovdan başladı. Sonra növbə Qromıkoya çatdı. O, Xarici İşlər Nazirliyinin rəhbəri vəzifəsindən uzaqlaşdırıldı, yerinə Eduard Şevardnadze təyin olundu. Sonra növbə Qrişinə, Kunaevə gəldi və sonda, nəhayət, Əliyevə çatdı. Əslində bu şəxslər "qamətləri heç kimin qarşısında əyilməyən" və "nə buyurursunuz" sualı ilə Qorbaçovun ağzına baxmayan insanlar idilər...

Buna baxmayaraq, Qorbaçovun ən yaxın silahdaşlarından olan Yakovlevin 1988-ci ilin mayında İrəvana ən uğursuz missiyası baş verir. Onun səfəri Qorbaçovun erməni radikal millətçilərinin Qarabağın Azərbaycandan ayrılması istiqamətində hərəkətlərini bəyənməsinin bariz jesti kimi qəbul edilir. Heydər Əliyev bu dramı ancaq kənardan müşahidə edə bildi, qısa görüşlər və telefon zəngləri ilə, Qarabağ fəlakətinin dərinliyini rəhbərliyə çatdırmağa çalışdı. Heydər Əliyev gözəl bilirdi ki, Qarabağ fəlakəti, artıq çoxlarına aydın olduğu kimi, bütün Sovet İttifaqını özü ilə birlikdə uçuruma sürükləyir...

...1987-ci ilin mayında, doğum günündən dərhal sonra, artıq Qorbaçovun məkrli və hiyləgər hücumlarından əsəbi hala düşən Heydər Əliyev infarkt keçirdi. Amma ruhdan düşmədi. İyul ayında o, artıq xəstəxanada fəal işləməyə başlamışdı. Yay aylarında MK-nın və Nazirlər Sovetinin son qərarları çıxırdı. Onların hazırlanmasında Heydər Əliyev də iştirak etmişdi. İnfarkt keçirəndən 4 ay sonra, sentyabrın 8-də Heydər Əliyev ilk dəfə VDNX–da keçirilən beynəlxalq kitab sərgisi zamanı ictimaiyyət arasına çıxır. İctimaiyyət ona böyük sevgi ilə baxsa da, qəzəblə baxan baxışlar da az deyildi, xüsusilə Qorbaçovun dəstəsindən olanlar...

SSRİ Ali Sovetinin 1987-ci il oktyabrın 19-da keçirilən sessiyasında Qromıko, Liqaçov, Qorbaçov və Rıjkov Heydər Əliyevlə ayrıca görüş keçirərək, onu Siyasi Bürodan getməyə və Baş nazirin müavini vəzifəsindən (rəsmi olaraq səhhətinə görə) istefa verməyə razı salmağa çalışırlar. Əlbəttə, Heydər Əliyevin artıq Siyasi Büroda arxalandığı adam qalmamışdı. Beləliklə, SSRİ rəhbərliyində nəhəng ölkənin inkişaf və tərəqqisinə inamın simvoluna çevrilən Heydər Əliyevin Moskva dövrü yekunlaşdı. Sovet İttifaqının siyasi və iqtisadi qüdrəti də "demokrat" Mixail Qorbaçovun təşkil etdiyi kollegial idarəetmə nəticəsində finalına çatdı. Bir neçə ildən sonra bu, bütün ölkənin dağılmasına səbəb oldu.

**(ardı var)**

***Söhbəti qələmə aldı:***
***İlqar RÜSTƏMOV, "Xalq qəzeti"***

## Nazirlər Kabineti ulu öndərin 100 illiyinə həsr olunmuş kitab-albomu təqdim edib

**Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş kitab-albom nəşr edilib.**

Azərbaycan və ingilis dillərində buraxılmış kitab-albomda Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif məqamlarını əks etdirən fotolar yer alıb.

Nəfis tərtibatlı kitab-albom ümummilli lider Heydər Əliyevin "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub" fikirləri ilə açılır. Nəşrdə yer alan yüzlərlə foto ulu öndərin kəlamları ilə müşayiət olunur.

Nəşrin tərtibatçıları vurğulayırlar ki, Heydər Əliyev Azərbaycanın görkəmli tarixi şəxsiyyətləri sırasında xüsusilə seçilən böyük dövlət xadimidir. O, dərin zəkası və sarsılmaz iradəsi sayəsində ən müxtəlif tarixi dövr və şəraitlərdə müstəsna idarəçilik bacarığı nümayiş etdirib, Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlər göstərib.

1969-1982-ci illərdə Azərbaycanın geridə qalmış respublikadan əsl mənada çiçəklənən diyara çevrilməsi Heydər Əliyevin adı ilə bağlıdır. 1982-1987-ci illərdə o, SSRİ-nin ali rəhbərliyində ən görkəmli simalardan biri olub. 1991-ci ildə Azərbaycan Respublikasının suverenliyinin elan edilməsi ilə Heydər Əliyevin siyasi fəaliyyətinin yeni mərhələsi başlayır. Müstəqilliyin ilk illərində iqtisadi tənəzzül, Ermənistanın hərbi təcavüzü, dövlət idarəçiliyinin iflic vəziyyətə düşməsi ilə müşayiət olunan dərin siyasi böhran şəraitində xalqın Heydər Əliyevin hakimiyyətə qayıtmasına dair çağırışları 1993-cü ildə onun Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə nəticələndi.

Gənc müstəqil respublikaya ən ağır zamanlarda 10 il uğurla rəhbərlik edən dahi şəxsiyyət Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisi sayılır. Onun həyatı və zəngin siyasi fəaliyyəti Azərbaycanın milli dirçəlişinin və müstəqil dövlət quruculuğunun parlaq təcəssümüdür.

Qeyd edək ki, müstəqil Azərbaycan ulu öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli iris isə xalqımızın milli sərvəti hesab olunur. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir. Nazirlər Kabinetinin nəşr etdiyi kitab-albom da məhz həmin mərama xidmət edir.




***"Xalq qəzeti"***

## "Heydər Əliyev İli" ilə bağlı tədbir keçirilib

**Hərbi Prokurorluğunun və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı tədbir keçirilib.**



Hərbi prokurorunun böyük köməkçisi, mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev, Sumqayıt hərbi prokuroru, ədliyyə polkovnik-leytenantı Raul Şahverdiyev və digər şəxslər ümummilli lider Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

**Türkiyədə bu il mayın 14-də keçirilmiş prezident və parlament seçkiləri dünyanın ən demokratik seçki prosesi kimi tarixə düşdü, – desək, heç bir mübaliğəyə yol verməri̇k. Bunu təsdiqləyən amil kimi, ilk növbədə, yüksək seçici fəallığını vurğulamaq mümkündür. Fəallıq isə o deməkdir ki, insanlarda inam var. İnam varsa, prosesin qanuniliyini qoruyacaq immunitet də mövcuddur. Türkiyə xalqı prezident və parlament seçkilərində səfərbərlik nümunəsi göstərməklə, ortaya həm də yüksək mənəvi göstəricilərindən irəli gələn mədəniyyət qoydu. Təəssüf ki, bu mədəniyyəti gözü götürməyənlər var. Bu baxımdan seçkilərlə bağlı mənfi rəy açıqlamış ATƏT-i misal göstərmək olar.**

# Türkiyəyə qarşı qərəz: 14 may seçkiləri və Qərbin ATƏT aləti

## *Ərdoğanı seçki yolu ilə devirmək planı kimlərin işinə yarayırdı?*




...Əlbəttə, demək olmaz ki, qurumun müşahidə missiyası 14 may seçkilərində heç bir iş görməyib. Məsələn, bu missiyanın tərkibində olan Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "Bayraqdar Media"nın baş redaktoru Azər Həsrət bildirir ki, həmkarları kifayət qədər məhsuldar çalışıblar: "Bizimlə birgə daha 6 nəfər də Adana vilayətinə göndərildi. Daha sonra biz iki heyət olaraq Mersinə yollandıq. Səsvermə günü ilkin müşahidələrimizə görə fəallıq müşahidə olunurdu. Binada bir neçə məntəqə var idi. İlk saatlardan bizə hər hansı əngəl yaradılmadı. Saat 8-dən sonra da hər hansı pozuntuya rast gəlmədik. Gün ərzində, ümumilikdə, 9 məntəqədə seçki prosesini izlədik. Küçədən keçən hər kəs gəlib seçki nəticələrinin yoxlanılmasında iştirak edə bilərdi. Seçicilərin yazdığı adlar açıq şəkildə sonda göstərilirdi".

Göründüyü kimi, müşahidə missiyası səmərəli fəaliyyət göstərib. Amma, çifayda. Sən demə, bu məhsuldarlıq ATƏT-in rəhbərliyində dayananlar üçün gərəksiz imiş. Çünki onların dünyaya bəyan etmək üçün hazır qərəz mətnləri var. Nədir bu mətnlərdə olanlar? "Seçki prosesinə müdaxilə edilib", "seçicilərin böyük bir qismi səsvermədə iştirak etməkdə çətinliklə üzləşib".

ATƏT təmsilçiləri başqa cəfəngiyyatlar da irəli sürürlər. Qurumun kluarlarında hazırlanan və "model" kimi müxtəlif hədəflərə tətbiq edilən seçkiyə müdaxilə ilə bağlı iyrənc üsulların hamısını sadalamağa ehtiyac duymuruq. Ona görə ki, qərəz varsa, deməli, nələrisə "düşünüb tapmaq" mümkündür. Bəs, Türkiyə ilə bağlı seçki saxtakarlığı iddiasını gündəmə gətirmək hansı məqsəddən qaynaqlanırdı?

***

Əlbəttə, burada ilk vurğulanmalı məqam Qərbin hazırkı Türkiyə iqtidarına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana bəslədiyi hiddətli münasibətdir. Ankaranın müstəqil siyasi xətti, dünyada, xüsusən də, türk dünyasında artan nüfuzu göz önündədir və bu, qlobal siyasi dairələri ciddi qayğılandırmaqdadır. Onlar ölkənin hazırkı yüksək statusunun, bilavasitə Prezident Ərdoğanın yeritdiyi kursun nəticəsi olduğunu gözəl anlayırlar. Onu da gözəl anlayırlar ki, bu xətt Türkiyədə iqtidardakı şəxsin kimliyindən asılı olmayaraq, dövlətin daxili potensialının göstəricisi, əhalinin ədalət ruhunun məhsulu kimi oturuşmaqdadır.

Ərdoğan son iyirmi ildəki siyasəti ilə yalnız ölkənin iqtisadi tərəqqisini təmin etməyib, eyni zamanda, müasir Türkiyənin dərin dövlətçilik ənənəsini möhkəmləndirib. Elə bir ənənəni ki, özünün ideya qaynağını Osmanlı zənginliyindən götürüb. Hazırkı Türkiyə ulu öndər Mustafa Kamal Atatürkün qurduğu modeli rəhbər tutsa da, dövlətin alt qatında haqqında söz açdığımız zənginliyin olduğu danılmazdır.

Bəli, hazırda Qərbin müasir Türkiyəyə baxışı onun vaxtilə Osmanlıya baxışından heç nə ilə fərqlənmir. Yəni, ölkənin əzəmətini qəbul etmək, lakin ona qısqanc yanaşmaq, hər fürsətdə Türkiyəni sarsıtmaq. Axı son iyirmi ilədək sarsıntılara mübtəla olan, iqtisadi cəhətdən zəif, dirənişsiz bir Türkiyə olub. Bir qədər əvvəlki tarixə baxsaq, dövlət rəhbərlərinin edam kötüklərinə daşındığı, dar ağaclarından asıldığı, səhərlərini çevrilişlərlə açan ölkənin acı mənzərəsi də yaddaşlardan silinməyib. Hər bu kimi olayların dövlətin əsaslarına nə dərəcədə böyük zərbə vurduğu gün kimi aydındır.

Tam qətiyyətlə söyləmək mümkündür ki, Prezident Ərdoğan dövlətin əsaslarına zərbə vurulmasını mümkünsüzə çevirən sistem yaradıb. Ancaq görünən budur ki, Qərbin bəzi dairələri məkrli niyyətlərindən əl çəkmirlər. Onlar ölkəni ötən əsrin 50-90-cı illərinin siyasi kataklizmləri dövrünə qaytarmaqda israrlıdırlar. Mənfur niyyətlərini gerçəkləşdirmək üçün ənənəvi hərbi çevriliş yoluna baş vurduqlarını da gördük. 2016-cı ilin 15 iyul tarixi hamımızın yaxşı xatirindədir. Türkiyə dövlətinə və dövlətçiliyinə qarşı yırtıcı mahiyyətin özünü göstərdiyi o məşum tarix yaddaşlardan silinmədiyi kimi, həmin vaxtkı xalq-hakimiyyət vəhdətinin böyük qəhrəmanlıq dastanına çevrilməsi də həmçinin. Bu vəhdəti yaradan da Ərdoğandır, türk lirəsinə qarşı dollar hücumlarının qarşısında duruş gətirən işlək sistemi də quran odur.

***

ABŞ Prezidenti Co Baydenin hakimiyyətə gələr-gəlməz işlətdiyi bir söz var – Ərdoğanı seçki ilə devirəcəm. Əlbəttə, qoca Bayden başqa yolun mümkün olmadığını yaxşı bildiyindən belə deyirdi. Mayın 14-də keçirilmiş prezident və parlament seçkiləri də Türkiyə liderini devirməyə hesablanmışdı.

Qərb özünün ənənəvi seçki texnologiyalarını işə salmış, beləliklə ölkə əhalisinin iradəsinə təsir göstərməyə çalışmışdı. Bu baxımdan müxtəlif saxta rəy sorğularının keçirilməsini, həmin sorğularda iqtidarın, guya, nüfuzunun yoxluğunun göstərilməsini misal çəkmək mümkündür. Hələ, guya, seçki qutularına saxta bülletenlərin atıldığının əksini tapdığı videogörüntülər də dövriyyəyə buraxılmışdı. Ancaq bu kimi cəhdlər uğursuzluqla üzləşdi. Belə planları hazırlayanlar reallığın tamam başqa cür olduğunu görüb geri çəkildilər. Həm də, ona görə geri çəkildilər ki, mövcud iqtidarın həmin saxta səhnələrin üzərinə gedərək, onları düzüb-qoşanları ifşa edəcəyindən qorxdular. Baxın, haqqında söz açdığımız videogörüntüləri dünyanın heç bir kütləvi informasiya vasitəsi yayımlamadı. Əgər, azacıq həqiqət payı olsaydı, tərəddüdsüz edərdilər.

Əlbəttə, Qərb Ərdoğan hakimiyyətini devirmək üçün əvvəldən mövcud istiqamətdə zəmin də hazırlamışdı. Söhbət bir qədər əvvəl haqqında söz açdığımız süni devalvasiya meyillərindən gedir. Təbiidir ki, lirənin dollara nisbətdə ciddi dəyər itirməsi adi bir şey deyil. Yəni, demək olmaz ki, iqtisadi böhran sıravi Türkiyə vətəndaşının güzəranına təsirsiz ötüşdü. Elə bu təsirin nəticəsi idi ki, hakim komandanın parlament seçkilərində aşkar uğur qazanmasına baxmayaraq, prezident seçkilərində ikinci turu gözləmək zərurəti yarandı.

Ancaq Ərdoğan iqtidarının ilk turda qazandığı səsçoxluğu ikinci turun hazırkı dövlət başçısının qələbəsi ilə bitəcəyini söyləməyə son dərəcə ciddi əsaslar verməkdədir. Əvvəla, birinci turda üstünlük qazanmış siyasi qüvvənin ikinci turda mövqeyini əldən verməsi təcrübəsi yoxdur. İkinicisi, Ərdoğan 28 mayda keçiriləcək ikinci tura psixoloji rahatlıqla gedir. Nəzərə alaq ki, Qərb birinci turda bütün kartlarını xərclədi. Məlumdur ki, başlıca güc müxalif kəsimin ilk mərhələdə qələbə qazanmasına qoyulmuşdu. İkinci tura təsir göstərmək üçün resurs, sadəcə olaraq, yoxdur. Rəy sorğuları kimi manipulyasiya alətlərinin reallığı əks etdirmədiyi tam şəkildə ortadadır. ATƏT kimi qurumların qərəzli yanaşmaları da ikinci turdakı gedişata təsir göstərmək baxımından heç nədir.

***

Bəli, Türkiyədə seçki Qərbin istədiyi məcrada getmədi. Axı saxtakarlıq görmək istəyirdilər ki, xalqı buna qarşı ayağa qaldırmaq üçün vacib olan resursları işə salsınlar. Dünyanın müxtəlif yerlərində gerçəkləşdirdikləri məxməri inqilablar zamanı işə saldıqları kimi. Bacarmadılar. Nəticə etibarilə ATƏT-in seçkilərə verdiyi qiymət siyasi-hüquqi riyakarlıqdan başqa bir şey olmadı. Türk Dövlətləri Təşkilatının xətti ilə qardaş ölkədə prezident və parlament seçkilərini müşahidə etmiş Azərbaycan Milli Məclisinin deputatı Hikmət Babaoğlu da bunu deyib.

H.Babaoğlu APA-ya açıqlamasında bildirib ki, Türkiyənin siyasi sistemi və seçki institutları qədər seçkilərə və onun nəticələrinə münasibətdə həssaslıq nümayiş etdirən ikinci sistem təsəvvür etmək mümkün deyil: "Seçki prosesində ən radikal dil və üslubdan istifadə edən siyasi qüvvələrin 14 may tarixində keçirilən seçkilərin nəticələrinə heç bir xüsusi etiraz bildirməməsi də ölkə daxilində siyasi aktorların öz milli demokratiyalarına inam və etibarın göstəricisidir. Belə olan halda ATƏT-in seçkilərin nəticələrini şübhə altına alan açıqlamalarla çıxış etməsi absurd olmaqla yanaşı, həm də qərəzli və məqsədyönlü mövqe hesab edilə bilər. ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun seçki müşahidə missiyasına rəhbərlik edən Yan Petersenin "seçki prosesinə müdaxilə edildiyini", "seçicilərin böyük bir qisminin səsvermədə iştirak etməkdə çətinliklə üzləşdiyini"ni iddia etməsinə gəldikdə, bu fikir kökündən yanlışdır. Çünki seçicilərin 90 faizə yaxın iştirakçılığı ilə keçirilən bir seçkidə iştirakçılığın məhdudlaşdırılmasını iddia etmək yalnız Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun ağlına gələn "arqument" ola bilər".

***

Sonda bir daha bildirək ki, ATƏT kimi qurumların hansı rəyi verməsindən asılı olmayaraq, dünyada formalaşmış qənaət bundan ibarətdir ki, 14 may seçkiləri Türkiyə xalqının iradəsinin və əzminin təntənəsidir. Əminik ki, mayın 28-də biz bu əzmin növbəti nümayişinə şahidlik edəcəyik. Qardaşlarımızın ilk turdakı doğru seçimlərini təkrarlayacaqları şübhəsizdir.

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

# "6 nömrəli dalan"da ilişib qalanlar

## Deyəsən, Azərbaycanın Qarabağ iqtisadi rayonunda vurnuxan erməni separatçılarının tabutlarına mismarların vurulmaq məqamı yetişib



**Xeyr, hörmətli oxucu, bu gün sizə məşhur rus yazıçısı Anton Pavloviç Çexovun "6 nömrəli palata" hekayəsindən söhbət açmayacağıq. Məqsədimiz dünya şöhrətli ədibin qəhrəmanlarının müasir prototipləri kimi gördüyümüz – Qarabağımızdan çıxmağa tələsməyən və son günlər isterik çığır-bağırtıları ərşə dirənən erməni separatçılarının son "nəğmələrini" nəzərinizə çatdırmaqdır.**

Bu gün onların hamısı üçün Qarabağın hər bucağı "6 nömrəli dalan"a çevrilib. Baş rola iddialılar çox olsa da, hələlik üzdə olan Ruben Vardanyandır. Dünən mətbuat konfransı keçirən kriminal biznesmen və psevdodiplomat "yeni cəbhə" açdığını elan edib, "DQR parlamentinin" dörd "partiyası"nın iştirakı ilə "artsaxın qurtuluş planı"nın hazırlandığını bəyan edib və həmin plan "prezident" Arayik Arutyunyana, yəni doktor Raqinə təqdim olunub.

### İntriqalar kulminasiyaya doğru gedir

Doğrudur, hazırda "dalan"da baş rola yeni iddiaçı, Paşinyanın İrəvandan bölgəyə göndərdiyi emissarı Samvel Babayanla Vardanyan arasında mübarizə qarşıdurma həddinə çatıb. Qondarma rejimin "dövlət naziri" olmaq tələbi ilə Xankəndidə mitinq keçirən Babayan da "doktor Raqinə" öz təkliflərini təqdim edib. "Prezident" Arutyunyan tezliklə təkliflərlə bağlı qərar çıxarmalıdır. Başqa seçim imkanı yoxdur, çünki fərman lap yuxarıdan verilib. Ermənistanın "Joxovurd" qəzeti tamamilə haqlı olaraq yazır ki, Babayanın Qarabağda fəallaşması baş nazir Nikol Paşinyanın özəl təşəbbüsüdür. Qəzet onu da yazır ki, Babayanı kurasiya edənlər deputat Andranik Koçaryan və Qaqik Melkonyandır. Paşinyan "6 nömrəli dalan"la əlaqəni məhz deputatların vasitəsilə qurur. İndi tamaşaçılar, yəni Qarabağın etnik erməni sakinləri "doktor Raqin"dən Babayanın "dövlət naziri" təyinatını intizarla gözləməkdədir. Mənbə Arutyunyanın bu addımı kənardakı boz kardinalın -- baş nazir Paşinyanın göstərişi ilə atacağını bildirir.

### Helikopter "razvyazka" ola bilməz

Rusiyadakı biznes fəaliyyətində, Qarabağdakı "millət atası" missiyasında tam iflasa uğramış, uğursuzluğa düçar olmuş "dalanın qəhrəmanı" Ruben Vardanyanı dünənki video - müsahibəsində göz yaşlarını tökərək, hıqqına-hıqqına təcrid vəziyyətində qaldığını, Qarabağdan çıxa bilmədiyini deyib. Bu barədə məlumat yayan "Hraparak" qəzeti yazır ki, Vardanyan Azərbaycanın hüquq-mühafizə orqanlarından şikayətlənib. O, sərhəd-buraxılış məntəqəsində Qarabağa gəlib-gedən ermənilərin yoxlanıldığı üçün Xankəndidən çıxa bilmədiyini deyib. Hətta bunun üçün helikopter variantını ona görə istisna edib ki, Azərbaycanın həmin helikopteri göydə vurma ehtimalı böyükmüş.

Qarabağ ermənilərini "xoşbəxt edəcəyini" bəyan etmiş "milli qəhrəman" indi hadisələrin hansı məcrada inkişafını, özü üçün münasib "razvyazka"nı gözləməyə məhkumdur.

Vardanyanın Babayanla savaşının teatr meydanında irəli sürdüyü yeni "projelərini" ciddi qəbul etməyə dəyərmi? Çətin. Amma bir məqamı da unutmaq olmaz ki, Rusiyadakı bəzi dairələr onunla bağlı müəyyən ümidlərini hələ də basdırmayıblar. Vardanyana "suyun üzündə qalmağı" buyuran, "mübarizəni davam etdirməyi" məsləhət görən "rejissorlar" da məhz Kremldəki "pult"un arxasında əyləşənlərdir. O da gün kimi aydındır ki, Moskva Qərbin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında əldə olunması mümkün sülhü qəbul etməyəcək. Axı Rusiya bu variantda özünün bölgədəki maraqlarına birbaşa təhlükə yarada biləcək nüansları nəzərdən qaçıra bilməz. Bu gün Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada üçtərəfli danışıqlarının əsas leytmotivinin son həll mərhələsinə yaxınlaşmış köhnə münaqişənin birbaşa özünə aid məqamların təşkil edəcəyini söyləyə bilərik.

Əslində, Qarabağda "6 nömrəli dalan"a dirənmiş yerli və gəlmə separatçıların bu görüş ərəfəsində fəallaşmasını, "qəhrəmanlıq" davasına qalxmaları da təsadüfi sayılmamalıdır.

### Epiloq əvəzi

Qərarın haradan veriləcəyindən, pərdənin nə zaman endiriləcəyindən asılı olmayaraq, "6 nömrəli dalan"dakılar üçün epiloq yaxınlaşmaqdadır. Əsərin qanlı səhnələrinin sonunda kimlərin qurban veriləcəyi də onda məlum olacaq.

Sərlövhənin altındakı cümləni Qarabağdakı daşnak separatçılarının gözlənilən aqibətinin əksəriyyətimizin çox xoşladığı "mıxın mismara dönməsi" barədə ibrətamiz hekayətin sonluğuna bənzədiyinə görə seçdik.

***İ.HƏSƏNQALA, "Xalq qəzeti"***

# Oğurluq ermənilərin xislətindədir, amma...

**"Hay" ("erməni") kəlməsinin işlənməyə başladığı dövrdən indiyədək bu qövmün hansısa ədalətli addım atdığını, əsaslı iddia irəli sürdüyünü, qanuni tələblə çıxış etdiyini görən də olmayıb, eşidən də. Çünki mövcudluqları oğruluq üstündə qurulub, fəaliyyətləri isə daim saxtakarlıqlarla müşayiət olunub.**

Onlar qonşu ölkələrin hamısına qarşı ərazi iddiaları irəli sürəndə əsassız olduqları kimi, bədnam soyqırımı cəfəngiyyatını dünyaya sırımağa çalışanda da saxtakar idilər. Onlara tarixi Azərbaycan torpaqlarında dövlət yaratmaq şansının verilməsi haqsızlıq idisə, həmin ərazilərdən yüz minlərlə soydaşımızın didərgin salınması, bütün varidatlarının əllərindən alınması da orta əsrlərdən qalma barbarlıq idi. Onlar işğal edilmiş Azərbaycan ərazilərini viran qoyanda nə qədər vəhşilik törətmişdilərsə, həmin ərazilərin hər qarışında mina basdıranda da bir o qədər şərəfsiz idilər.

Onlar Azərbaycan və Türkiyə ilə aparılan danışıqların uğurla nəticələnməsini əngəlləmək üçün parlament binasını güllələbaran edəndə də erməni xisləti nümayiş etdirmişdilər, üçtərəfli Bəyanata imza ataraq, 25-30 min erməni əsgərinin ölməsinin və ya əsir düşməsinin qarşısını almış Nikol Paşinyanın övladını oğurlayanda da çirkin erməni əxlaqını ortaya qoydular.

Yeri gəlmişkən, mən bu fikri söyləməklə qətiyyən Nikol Paşinyanı müdafiə etmək istəmirəm. Çünki Paşinyanın "Dağlıq Qarabağ Ermənistandır. Nöqtə" sərsəmləməsini bütün azərbaycanlılar kimi mən də ömrüm boyu unuda bilməyəcəm. Mən baş nazirin oğlunu oğurlayıb hansısa cəza vermək istəyən əsgər anasını da ittiham etmək məqsədindən uzağam. Çünki onun oğlu kimlərinsə cəfəng iddiaları əsasında törədilmiş haqsız müharibəyə göndərilməsəydi, özgə torpaqlarında öldürülməzdi. Həmin ananın da təqsiri yoxdur, onun silahlandırılaraq qonşu dövlətin ərazisinə göndərilmiş oğlunun da.

Övladı əlindən alınaraq ədalətsiz müharibəyə göndərilmiş, indi isə öldüsü-qaldısı bilinməyən erməni əsgər anaları Tanrıya da üsyan edə bilmirlər, dövlətə də, kilsəyə də. Min-bir əziyyətlə oğul böyütmüş ana indi onun meyitini belə görə bilmirsə, düşdüyü psixoloji vəziyyətdə neyləməlidir? İndi çıxış yolunu bunda görür.

Ancaq əsgər anası bilməlidir ki, erməni xalqının əsrlərdən bəri üzləşdiyi çoxsaylı məhrumiyyətlərin təməlində Nikol Paşinyanın şərab içərək Şuşada rəqs etməsi, Azərbaycanın bu qədim diyarında "Artsax parlamenti"nə bina tikdirməsi və ya Cəbrayıla yol çəkdirmək istəməsi durmur . Bu məhrumiyyətlərin təməlində erməni kilsəsinin vəhşi təfəkkürü və beyni həmin çirkablarla doldurulmuş ideoloqların burnunun ucundan o yanı görə bilməməsi dayanır. Amma bu həqiqətlər o qədər ağırdır ki, əsgər anasının onlara qarşı mübarizə apara bilməsi tamamilə mümkünsüzdür. Ona görə də dünya ictimaiyyəti "Ermənistan baş naziri Nikol Paşinyanın oğlu Aşot Paşinyanın oğurlanmasına cəhd edilib" və ya "Aşot Paşinyanın oğurlanması cəhdinə görə həbs olunanlar var" kimi ifadələri hələ çox eşidəcək.

Dünya ona görə belə manşetləri çox eşidəcək ki, beynəlxalq aləmdəki ikili standartlar hələ də əlli-altmış il əvvəl olduğu tempdə davam edir. Bu qəbildən olan faktlar ona görə davam edəcək ki, böyük dövlətlər, nüfuzlu beynəlxalq təşkilatlar hələ də Ermənistanı haqq yoluna çağırmaq istəmirlər. İrəvanda və bu ölkənin hər yerində analoji addımların getdikcə daha çox atılacağını heç kəs istisna edə bilməz. Bunun çoxsaylı səbəblərindən biri də Birinci Qarabağ müharibəsində itkin düşmüş dörd minə yaxın azərbaycanlının anasının ah-naləsidir. Buraya İkinci Qarabağ müharibəsi günlərində yatdığı yerdə öldürülmüş körpələrin və müharibə bitəndən sonra mina tələsinə düşmüş yüzlərlə soydaşımızın əzizlərinin ah-naləsini də əlavə etmək olar.

Ona görə də Ermənistanı hələ çox bəlalar, məhrumiyyətlər, çirkinliklər gözləyir. Üstəlik, erməni xəstəliyi də digər tərəfdən öz fəsadlarını göstərməkdədir.

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***

# Azərbaycan Şimal–Cənub Nəqliyyat Dəhlizinin önəmli tərəfdaşıdır

*Bu marşrutda yükdaşıma müddəti 45 gündən 20 günədək azalacaq*



**Rusiya Prezidenti Vladimir Putin Rəşt–Astara dəmir yolunun İrandan keçən hissəsinin inşası barədə iki ölkə arasında sazişin imzalanma mərasiminə video əlaqə ilə qoşularaq Şimal–Cənub Nəqliyyat Dəhlizinin yaradılması sahəsində qarşılıqlı fəaliyyət Azərbaycanla sıx əməkdaşlıq şəraitində həyata keçirildiyini bildirib.**

Rusiya lideri bu önəmli beynəlxalq logistika şəbəkəsində ölkəmizin iştirakını yüksək qiymətləndirərək deyib: "Biz Azərbaycan tərəfinin iştirakı ilə üçtərəfli formatda dəmir yolu infrastrukturunun inkişafı və Şimal-Cənub marşrutu üzrə yük daşımalarına dair əməkdaşlıq haqqında sazişin imzalanmasına hazırlığın tezliklə başa çatacağına ümid edirik. Bununla da, üç ölkənin gələcək uğurlu koordinasiyası üçün zəruri hüquqi baza yaranacaq".

Xatırladaq ki, Rusiya ilə İran arasında imzalanan sazişə əsasən, Rusiya və İran tərəfi uzunluğu 170 kilometr olan və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizini birləşdirən Rəşt–Astara dəmir yolunun layihələndirilməsi və inşasını birgə maliyyələşdirəcək. İran Astarası ilə Azərbaycan Astarası arasında olan sahə isə Azərbaycan, Rusiya və İranın iştirakı ilə inşa olunacaq. Qəzvin-Rəşt dəmir yolunun davamı olan Rəşt-Astara dəmir yolu Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas seqmentini təşkil edir. İranın Fars körfəzi sahilindəki Bəndər Abbas və Oman dənizi sahilindəki Çabahar limanlarına daxil olan yüklərin Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu ilə Azərbaycan və Rusiya ərazisindən tranzit olaraq Avropaya daşınacağı nəzərdə tutulur. Eyni zamanda, əks istiqamətdə də yüklərin həmin yolla daşınacağı planlaşdırılır. Bu isə yolun keçdiyi dövlətlərə ikiqat tranzit gəliri gətirəcəyini şərtləndirir.

Azərbaycan sözügedən nəqliyyat dəhlizinin formalaşması ilə bağlı indiyədək bir sıra önəmli layihələr həyata keçirib. Məsələn, Ələt-Astara magistral yolunun çəkilişi, Bakı Beynəlxalq Ticarət Limanının yenidən qurulması, habelə İran Astarası və Azərbaycan Astarası arasında dəmir yolu xətti bağlantısının yaradılması kimi layihələr böyük əhəmiyyət daşıyıb.

Xatırladaq ki, Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu xəttinin Rəşt–Astara hissəsi istismara verildikdən sonra Cənub Şərqi Asiya və Fars körfəzi ölkələrindən Avropaya və əks istiqamətə yüklər İran və Azərbaycan ərazisindən keçməklə Avropaya daşınacaq. Digər beynəlxalq marşrutlarla müqayisədə adıçəkilən nəqliyyat dəhlizi ilə Avropadan Asiyaya və əks istiqamətə çatdırılan yüklər mənzil başına 20 gün tez çatdırılacaq, nəqliyyat xərclərinə isə az vəsait tələb olunacaq.

Region ölkələri, o cümlədən, Azərbaycan, Rusiya və İran tərəfindən Qəzvin–Rəşt–Astara dəmir yolunun tezliklə inşa edilməsinə daim maraq göstərilib və bu layihə diqqət mərkəzində saxlanılıb. Onu da deyək ki, yolun Qəzvin–Rəşt hissəsi 2018-ci ildə istismara verilib. Rəşt–Astara hissəsində isə işlər davam etdirilib. Rusiya bu yolun elektrik xətlərinin çəkilməsi ilə yanaşı, onun tikintisinin sürətləndirilməsi üçün yardım göstərəcəyini də bildirib.

Mütəxəssislərin fikrincə, İrana tətbiq olunan iqtisadi sanksiyalar yolun tikintisinə maliyyə vəsaitinin ayrılmasına mane olur. Rusiya isə 160 kilometrlik Rəşt–Astara dəmir yolunun tezliklə istismarı üçün səy göstərir. Çünki belə halda Rusiyanın Asiya ölkələri ilə ticarət əlaqələrinin genişləndirilməsinə əlverişli şərait yaranır. Azərbaycan ərazisindən keçəcək bu yol Rusiya, Azərbaycan və İranın dəmir yolları sistemlərini birləşdirəcək. İnfrastruktur hazır olduqdan sonra hər 3 dövlətin ticarət və tranzit əlaqələri daha da genişlənəcək və bu, hər üç ölkənin büdcə gəlirlərinə valyuta axınını təmin edəcək.

Beləliklə, böyük əhəmiyyətə malik olan bu dəmir yolu xətti Qəzvin–Rəşt–Ənzəli–Astara marşrutu ilə Azərbaycanın dəmir yolu xəttinə qoşulacaq. Bununla da o, beynəlxalq əhəmiyyətli dəmir yoluna çevriləcək. Çünki İran dəmir yolu xəttinin sözügedən marşrut ilə Azərbaycana birləşməsi ilə Hindistandan Avropanın Helsinki limanınadək olan 5200 kilometrlik dəmir yolu xətti yaranacaq. Bu, təbii ki, beynəlxalq dəmir yolu xətti sayılacaq. Bu birləşmə ilə yüklərin daşınma müddəti 45 gündən 20 günədək azalacaq, məsafə isə təxminən 3 min kilometr qısalacaq.

Mütəxəssislərin fikrincə, layihənin yalnız birinci mərhələsinin başa çatması İranla Azərbaycan arasında yük daşımalarının 10 dəfəyədək artmasını gerçəkləşdirəcək. Bundan başqa, iki ölkənin dəmir yollarının birləşdirilməsi ilə mal mübadiləsinin həcmi ildə 5 milyon tonadək artacaq.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*

## Ekspert rəyi



**Hüseynqulu QULİYEV, iqtisadçı-ekspert**

Azərbaycanda uzun illər ərzində nəqliyyat-logistika sisteminin inkişafı ilə bağlı qoyulan investisiya hesabına bu sahədə mühüm layihələr icra edilib, dəmir və magistral yollar istifadəyə verilib, yeni tankerlər, bərələr və yük gəmiləri potensialı gücləndirilib, müasir gəmiqayırma müəssisəsi işə salınıb. Dövlətimizin başçısı Bakı limanı kimi regional və beynəlxalq əhəmiyyətli nəhəng infrastrukturun inkişafını daim diqqət mərkəzində saxlayıb.

Ölkəmiz bu gün "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasında fəal rol oynayır. Bununla respublikamız hər iki transkontinental dəhlizin kəsişməsində, Avrasiya coğrafiyasının mərkəzində mühüm nəqliyyat-logistika qovşağına çevrilir. Azərbaycan dünyada yeganə ölkədir ki, onun həm Rusiya ilə, həm də İranla quru sərhədi var və bu coğrafi yerləşmə üçtərəfli regional əməkdaşlığın inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Şimal–Cənub nəqliyyat dəhlizinin Azərbaycan hissəsinin yaradılması prosesi artıq son mərhələyə qədəm qoyub. Bu dəhlizin önəmli hissəsi olan Azərbaycan–Rusiya sərhədindən Azərbaycan–İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətə gətirilib.

Azərbaycanın tərəfdaşları tərəfindən ötən müddətdə sözügedən nəqliyyat dəhlizindən səmərəli istifadə edilib. Respublikamızın ərazisindən keçən yolların çoxşaxəli olması ölkəmizin imkanlarını böyük dərəcədə artırıb. Pandemiya dövründə bütün dünyada iqtisadiyyatın tənəzzülə uğramasına baxmayaraq, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə daşınan yüklərin həcmi təxminən 20 faiz yüksəlib.

Göründüyü kimi, artıq bölgədə yeni nəqliyyat və infrastruktur xəritəsinin formalaşmasına başlanılıb. Təsadüfi deyil ki, Azərbaycan müstəqillik əldə etdikdən indiyədək Asiya və Avropanı birləşdirən yüksək əhəmiyyətli nəqliyyat dəhlizləri yaradıb. Məhz ölkəmizin təşəbbüsü ilə reallaşdırılan Şimal–Cənub, Şərq–Qərb və Cənub–Şimal nəqliyyat dəhlizləri qitələrarası daşımaların həyata keçirilməsini gerçəkləşdirib. Bu nəqliyyat dəhlizləri, həm də tarixi İpək yolunun bərpasında mühüm önəm daşıyıb.

# Yanvar–aprel aylarında 18 ölkəyə neft ixrac edilib

**Bu ilin dörd ayında Azərbaycan 18 ölkəyə 5 milyard 715 milyon 409,95 min ABŞ dolları dəyərində 9 milyon 235 min 906,05 ton xam neft ixrac edib. Bu barədə Dövlət Gömrük Komitəsinin son hesabatında məlumat verilir.**



Azərbaycan neftinin alıcıları sırasında ilk yer İtaliyaya məxsus olub. Belə ki, yanvar-aprel ayları ərzində bu ölkəyə dəyəri 2 milyard 108 milyon 111,51 min dollar təşkil edən 3 milyon 269 min 76 ton neft ixrac olunub. Ölkəmizin ümumi neft ixracında ikinci yerdə Hindistan qərarlaşıb. Hesabat dövründə bu ölkəyə 543 milyon 45 min 660 dollar dəyərində 922 min 967,24 ton neft ixrac edilib. İlk üçlüyü isə ölkəmizdən 526 milyon 641,07 min dollar dəyərində 826 min 905,05 ton neft alan İspaniya tamamlayıb.

Cari ilin yanvar-aprel aylarında Azərbaycan neftinin alıcıları sırasında sonrakı yerləri İsrail, Türkiyə, Çexiya, Almaniya, Yunanıstan, Avstriya, İrlandiya, Rumıniya, Sinqapur, Vyetnam, İndoneziya, Fransa, Portuqaliya, Xorvatiya və Tailand tutub.

Komitənin məlumatına əsasən, qeyd olunan göstəricilərdə hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan neftin dəyərinə dair məlumatlar nəzərə alınıb.

*"Xalq qəzeti"*

# Yeni içməli su standartı qüvvəyə minib

**Ölkəmizdə "İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" AZS 929:2023 dövlət standartı qüvvəyə minib. Yeni standart BMT-nin "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi" üzrə Konvensiyasının "Su və Sağlamlıq Protokolu"na əsasən Azərbaycan Respublikası tərəfindən rəsmi qəbul edilmiş Məqsədli Göstəricilərin icrası ilə əlaqədar Səhiyyə Nazirliyinin əmri ilə yaradılmış işçi qrup tərəfindən hazırlanıb. Aidiyyəti dövlət qurumlarının, elmi müəssisələrin, vətəndaş cəmiyyəti institutunun müsbət rəyini almış yeni standart İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Standartlaşdırma İnstitutunun (AZSTAND) qərarı ilə təsdiq edilib.**



AZS 929:2023 "İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" standartına mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş su təchizatı sistemlərində içməli suyun təhlükəsiz idarə edilməsinə dair tələblər, içməli suyun keyfiyyət göstəriciləri və onların yol verilən qatılıq hədlərinin siyahısı daxildir. Bu standart Ümumdünya Səhiyyə Təşkilatının Avropa ofisi tərəfindən təqdim olunan işçi sənədin tövsiyələri, insan istehlakı üçün nəzərdə tutulmuş suyun keyfiyyətinə dair 16 dekabr 2020-ci il tarixli 2020/2184 saylı Avropa Parlamenti və Avropa Şurası Direktivi, ГОСТ 2874-82, СанПиН 2.1.4.1074-02, USEPA standartları nəzərə alınaraq tərtib olunub.

Yeni standarta əsasən, içməli suyun mikrobioloji (8 göstərici), orqanoleptik, fiziki-kimyəvi (100 göstərici) və radioloji (2 göstərici) göstəriciləri öyrəniləcək. Qeyd edək ki, indiyə qədər ölkəmizdə içməli suyun keyfiyyətinə nəzarət SSRİ dövrü qəbul olunmuş ГОСТ 2874-82 standartları əsasında aparılırdı.

*"Xalq qəzeti"*

# Ölkəmizə gətirilən elektrik avtomobilləri 6,2 dəfə çoxalıb

**2023-cü ilin yanvar-aprel ayları ərzində Azərbaycana, ümumilikdə, 433 milyon 146,85 min dollar dəyərində 29 min 855 ədəd avtomobil idxal olunub. Bu barədə Dövlət Gömrük Komitəsindən məlumat verilib. Məlumata əsasən, 2022-ci ilin yanvar-aprel ayları ilə müqayisədə ölkəyə idxal olunan avtomobillərin sayı 6 min 499 ədəd və ya 28 faiz artıb.**



Hesabat dövründə avtomobil idxalında ən böyük artım elektriklə işləyən avtomobillərin payına düşüb. Belə ki, ilin ötən 4 ayında ölkəyə gətirilən elektromobillərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 476 ədəd və ya 6,2 dəfə çox olub.

*"Xalq qəzeti"*

# Beynəlxalq əməkdaşlıq aqrar sahədə sürətli inkişafa zəmin yaradır

**Son illər ölkə iqtisadiyyatının mühüm sahələrindən sayılan aqrar sektorun sürətli inkişafını təmin etmək məqsədilə mühüm tədbirlər həyata keçirilir. Artıq uzun illərdir ki, bu sahədə fəaliyyət göstərən iş adamlarına lazımi dövlət dəstəyi göstərilir, strateji məhsulların yetişdirilməsinə görə təsərrüfatlara subsidiyalar verilir, bir sıra vergi güzəştləri tətbiq olunur.**

Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında da kənd təsərrüfatında müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığın artacağı, həmçinin yeni iş yerlərinin yaradılacağı qeyd olunub. Ölkəmizin kənd təsərrüfatı sahəsində potensialı olduqca yüksəkdir. Hazırda bu sahədə mövcud imkanların tam səfərbər edilməsi, eləcə də işğaldan azad edilmiş torpaqlarımızın əkin dövriyyəsinə cəlb olunması, bu ərazilərdə heyvandarlığın dirçəldilməsi istiqamətində görülən işlər müsbət nəticələr verir. Bu baxımdan Azərbaycanın aqrar sektorunda müşahidə olunan inkişaf meyilləri 2023-cü ilin ötən dövründə də davam edib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-aprel aylarında Azərbaycanda 1 milyard 961 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3,5 faiz çoxdur. Komitənin məlumatında o da bildirilir ki, ölkədə istehsal edilmiş bitkiçilik məhsullarının dəyəri 3,2 faiz artaraq 165 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 3,5 faiz artaraq 1 milyard 796 milyon manat təşkil edib.

Məlum olduğu kimi, hazırda ölkəmizdə yaz-tarla işləri davam edir. Ötən 4 ay ərzində 266,8 min hektar sahədə yazlıq bitkilərin səpini aparılıb. Hesabat dövründə 44 min hektar sahədə dənlər və dənli paxlalı bitkilər (ondan 20,5 min hektarı dən üçün qarğıdalı), 45,9 min hektar sahədə kartof, 42,9 min hektar sahədə tərəvəz, 10,8 min hektar sahədə bostan bitkiləri, 72,2 min hektar sahədə pambıq, 7,7 min hektar sahədə dən üçün günəbaxan, 4,3 min hektar sahədə şəkər çuğunduru, 1,2 min hektar sahədə tütün, 36,6 min hektar sahədə çoxillik otlar, min hektar sahədə birillik otlar və 0,2 min hektar sahədə sair yazlıq bitkilər əkilib.

Yeri gəlmişkən, fermerlər bəzi mövsümi kənd təsərrüfatı məhsullarının da artıq bazara çıxarmağa başlayıblar. İlin ötən dövründə təsərrüfatlarda 128,3 min ton tərəvəz və 50,3 min ton kartof istehsal olunub. Ötən ilin eyni dövrü ilə müqayisədə tərəvəz istehsalı 0,6 faiz, kartof istehsalı 9,5 faiz artıb. Məhsul bolluğu isə bazarlarda qiymətlərin getdikcə aşağı düşməsinə səbəb olur.

Aqrar sektorda davam edən inkişaf təzahürləri heyvandarlıq məhsullarının istehsalında da hiss olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-aprel aylarında Azərbaycanda quş əti də daxil olmaqla diri çəkidə 187,3 min ton ət, 697,6 min ton süd, 726,5 milyon ədəd yumurta və 2,1 min ton yun istehsal edilib. Ötən ilin eyni dövrü ilə müqayisədə ölkədə ət istehsalı 3,1 faiz, süd istehsalı 1,8 faiz, yumurta istehsalı 13 faiz artıb. Bununla belə, yun istehsalında 4,3 faiz azalma qeydə alınıb.

Ölkəmizin aqrar sektorunda baş verən artım dinamikası bu sahədə beynəlxalq əməkdaşlıq üçün də yaxşı imkanlar yaradır. İndi dünyanın qabaqcıl kənd təsərrüfatı dövlətləri Azərbaycanın aqrar sektoruna, xüsusən də ölkəmizdə aqroparkların yaradılmasına sərmayə qoymağa maraq göstərirlər. Mayın 16-da Bakı Ekspo Mərkəzində keçirilən və regionun ən böyük sərgiləri sayılan 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" və 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" sərgiləri də əməkdaşlığın genişləndirilməsi baxımından yaxşı fürsət sayıla bilər. Elə builki sərgilərdə, 31 ölkədən 479 şirkətin iştirak etməsi, 9 ölkənin isə milli və regional stendlərlə təmsil olunması da bunu deməyə əsas verir. Bununla yanaşı, "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində ABŞ, Almaniya, Belarus Respublikası, Gürcüstan, İtaliya, Niderland Krallığı, Şri Lanka, Rusiya Federasiyasının regional qrupları, eləcə də debütant ölkələr Tunis və Çexiyadan olan milli qruplar iştirak ediblər.



Qeyd edək ki, 16-cı "Caspian Agro" sərgisində 24 ölkəni təmsil edən 318 şirkət üzrə kənd təsərrüfatı sənayesinin aparıcı iştirakçıları, yerli və xarici ekspertlər, o cümlədən idxalçılar, ixracatçılar, kənd təsərrüfatı məhsullarının distribütorları, topdan və pərakəndə ticarət nümayəndələri, həmçinin fermerlər bir araya gəliblər. 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" sərgisində isə 17 ölkədən 161 şirkət təmsil olunub. Sərginin əsas məqsədi keyfiyyətli malları bazara çıxarmaq və sərgi iştirakçıları ilə ziyarətçilər arasında birbaşa əlaqə yaratmaqdan ibarət olub.

Hazırda Azərbaycanda kiçik və orta biznes (KOB) subyektləri kənd təsərrüfatı və qida sənayesində uğurla fəaliyyət göstərirlər. Bu barədə Bakıda keçirilən kənd təsərrüfatı və qida sənayesi sərgiləri zamanı İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) direktoru Orxan Məmmədov məlumat verib. Rəhbərlik etdiyi qurumun bu sahələrdə fəaliyyət göstərən KOB-ları müxtəlif xidmət və mexanizmlər çərçivəsində dəstəklədiyini bildirən O. Məmmədov deyib ki, işğaldan azad edilmiş torpaqlarımızın yüksək iqtisadi potensialı və investisiya cəlbediciliyi, kənd təsərrüfatı üçün münbit torpaq ehtiyatına malik olması aqrar sektor və qida sənayesi üçün yeni imkanlar yaradır. Onun fikrincə, dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində bu potensialın reallaşdırılması aqrar və qida sənayesinin, ümumilikdə isə, ölkə iqtisadiyyatının inkişafına öz töhfəsini verəcək.

"Caspian Agro" və "İnterFood Azerbaijan" sərgilərinə fəal dəstək verən KOBİA-nın təşkilatçılığı ilə qurulmuş xüsusi stenddə aqrar və qida sektorları üzrə KOB-ların bazarlara çıxışının və satış imkanlarının genişləndirilməsi məqsədilə məhsul və xidmətləri nümayiş etdirilib. Dövlət dəstəyi hesabına yaradılmış xüsusi stenddə 12 mikro və kiçik sahibkarlıq subyekti müxtəlif şirniyyatlar, ədviyyatlar, yağlar, mürəbbə və turşular, zəfəran, qəhvə, narşərab, suvarma sistemləri və istixana avadanlıqları, dronlar, yem və s. məhsullar, eləcə də xidmətlər yer alıb. Bakı, Sumqayıt, Şirvan şəhərlərini, eləcə də Abşeron, Ağdam və Kürdəmir rayonlarını təmsil edən kiçik və orta biznes subyektləri stenddə, həmçinin satış imkanlarını genişləndirmək və yeni biznes əlaqələri qurmaq üçün müxtəlif işgüzar görüşlər keçiriblər.

Göründüyü kimi, Azərbaycanda bu tip sərgilərin keçirilməsi kənd təsərrüfatı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi ilə yanaşı, müasir texnika və texnologiyaların, eləcə də qabaqcıl təcrübənin ölkəmizə gətirilməsinə imkan yaradır.

*Mirbağır YAQUBZADƏ,*
*"Xalq qəzeti"*

# Qərbi Azərbaycana qayıtmaq soydaşlarımızın əzəli haqqıdır

**Son 2 əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən kütləvi sıxışdırma, davamlı etnik təmizləmə və genişmiqyaslı soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır.**

Mərhələ-mərhələ gerçəkləşdirilən belə amansız, cinayətkar siyasət nəticəsində azərbaycanlılar min illər boyu yaşadıqları tarixi-etnik torpaqlarından didərgin salınmış, kütləvi qırğınlara məruz qalmışlar. Xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılıb viran edilmişdir. Tarixi mənbələrdən də aydın göründüyü kimi, erməni millətçiləri heç bir əsası olmayan "dənizdən-dənizə" böyük imperiya xülyasına qapılaraq onlara öz torpaqlarında yer vermis azərbaycanlılara qarşı misilsiz xəyanətkarlığı fasiləsiz davam etdirmişlər.




1828-ci ildə Rusiya imperiyasının Qərbi Azərbaycanı işğal etməsini rəsmiləşdirən Türkmənçay sülh müqaviləsindən sonra Qacarlar səltənətinin bu alçaldıcı razılaşmanı qəbul etməsinin şərtlərindən biri kimi, 15 illik müdətdə ələ keçirilmiş torpaqlarda demoqrafik vəziyyəti dəyişmək üçün İrandan və Osmanlıdan İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərinə ermənilərin kütləvi surətdə köçürülməsi siyasəti həyata keçirilmişdir. Bu ərazilərdə çarizmin məskunlaşdırdığı və yerli əhaliyə qarşı düşmənçiliyə təhrik etdiyi gəlmə ermənilər XIX əsrin 60-70-ci illərindən başlayaraq düşmənçilik hərəkətlərini siyasi mübarizə səviyyəsinə qaldırmışlar.

Rusiya imperiyasının kommunistcəsinə yeniləşdirilməsinə başlandığı 1905–1907 və hərəkatın gerçəkləşdirildiyi 1918–1920-ci illərdə erməni millətçi partiyalarının rəhbərliyi altında azərbaycanlılar Qafqazın hər yerində kütləvi soyqırımına və deportasiyaya məruz qalmışlar. Nəticədə, qırmızı imperiya Qərbi Azərbaycanda Ermənistan adlı oyuncaq dövlət, Qarabağın dağlıq hissəsində isə erməni muxtariyyəti yaratmaqla ölkəmizin ərazi bütövlüyünə qarşı tarixi xəyanətkarlıq aktını gerçəkləşdirmişdir.

Xalqımıza qarşı ayrı-seçkilik siyasətini davam etdirən ermənipərəst sovet rəhbərliyinin xeyir-duası ilə 1948–1953 və 1988–1991-ci illərdə isə Qərbi Azərbaycandan soydaşlarımızın tamamilə qovulub-çıxarılması prosesi amansızlıqla başa çatdırılmışdır. 1988–1991-ci illərdə SSRİ dövlətinin himayəsi altında Ermənistan dövləti indiki Ermənistan ərazisindən 250 mindən artıq azərbaycanlını ata-baba torpaqlarından deportasiya etmişdir. Ümumiyyətlə, XX əsrdə 2 milyondan çox azərbaycanlı Qərbi Azərbaycanda soyqırımına və deportasiyaya məruz qalmışdır.

Beləliklə, xalqımız Rusiyanın işğalçılıq siyasəti nəticəsində iki yerə parçalandıqdan sonrakı dövrdə tarixi torpaqlarının böyük bir hissəsini də tamamilə itirmişdir. Qərbi Azərbaycan adlanan bu bölgə azərbaycanlılarsız qalmışdır. Tarix isə bu qədim türk diyarının mövcudluğunu və xalqımıza məxsusluğunun silinməz-pozulmaz, təkzibedilməz izlərini-sübutlarını qoruyub saxlamışdır.

Soydaşlarının müstəqil dövləti olan Azərbaycan Respublikasına sığınmış Qərbi Azərbaycan İcması qədim və zəngin bir tarixi irsin sahibi olaraq doğma yurda qayıtmaq haqqını gerçəkləşdirmək üçün inadlı mübarizəsini davam etdirir. Azərbaycan dövləti bu hərəkatı himayə etməklə Ermənistanın millətçi-separatçı rəhbərliyini beynəlxalq aləmdə seçim qarşısında qoymuşdur.

Ermənistan dövləti isə minilliklərdən qaynaqlanan tarixi, zəngin mədəniyyəti, adət-ənənəsi olan Qərbi Azərbaycanda qurulmuşdur. Bu bölgənin dərin kökləri və özünəməxsus siması olan memarlığı, xalq sənəti, musiqi ənənələri formalaşmışdır. Elmə, təhsilə böyük həvəs və hörmət, mütərəqqi mədəniyyətə rəğbət bölgənin insanları arasında görkəmli siyasətçilərin, elm və mədəniyyət xadimlərinin yetişməsinə səbəb olmuşdur.

Bu gün Qərbi Azərbaycan adlandırdığımız ərazidə Səfəvi dövləti tərkibində Çuxursəd bəylərbəyliyi yaradılmışdır. Nadir şahın qətlindən sonra bu ərazidə Azərbaycan feodal dövlətlərindən biri olan İrəvan xanlığı qurulmuşdur. Bu xanlıq da birmənalı olaraq xalqımıza məxsus olduğuna görə mübahisəsiz Azərbaycan ərazisidir. 1828-ci il rus işğalına qədər bu əraziyə gələn səyyahlar, tarixçilər, tacirlər bölgəni türk torpağı kimi görmüş və tanımışlar. Bu ərazidəki bütün tarixi və dini abidələr azərbaycanlı əhaliyə məxsus olmuşdur. XX əsrdə isə erməni millətçilərinin torpaqlarımızın mənimsənilməsinə yönəlmiş düşmənçilik siyasəti, sovet hakimiyyəti tərəfindən həyata keçirilən deportasiyalar Qərbi azərbaycanlıları öz yurd-yuvalarından didərgin salmış və çoxsaylı insan tələfatı ilə nəticələnmişdir.

Dövlət başçısı İlham Əliyev öz çıxışlarında dəfələrlə Qərbi Azərbaycanın, İrəvanın, Zəngəzurun və Göyçənin tarixi Azərbaycan torpaqları olduğunu vurğulamışdır. Ölkə rəhbəri Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bir daha dünyaya bəyan etmişdir: "Əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb".

Xalqımızın taleyində faciəvi rol oynamış bağışlanılmaz əməllərdən biri də Rusiyanın 1 əsr əvvəl işğal etdiyi ərazidə 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə tarixi şəhərimiz İrəvanın paytaxt olaraq Ermənistana bağışlanması olmuşdur. Bundan sonra erməni milliyətçiləri daha da iştahlanaraq min bir fitnə-fəsadla tarixi Azərbaycanın digər ərazilərinə yiyələnməyə başlamışlar. 1920-ci ildə düşmənlərimiz Qərbi Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını da Ermənistana birləşdirməyə nail olmuşlar.

1987-ci ilin noyabrında ümummilli lider Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasından istifadə edən erməni millətçiləri və onların sovet rəhbərliyindəki havadarları həyata keçirdikləri sistemli və gizli cinayətləri açıq müstəviyə çıxararaq Azərbaycana qarşı yeni ərazi iddiaları ilə geniş təcavüzkarlıq aktları törətmişlər. Hərtərəfli himayədarlıqla Qarabağ və Şərqi Zəngəzur müharibə yolu ilə işğal edilmiş, ölkənin 20 faiz ərazisinin 800 min əhalisi 30 il müddətində öz vətənində məcbiri köçkün halına salınmışdır.

Ötən illər ərzində insanlıq simasını itirmiş erməni millətçiləri qəsb etdikləri Qərbi Azərbaycanda, Qarabağda və Şərqi Zəngəzurda xalqımızın maddi-mədəni irsinə qarşı da soyqırımı siyasəti həyata keçirmişlər. Əzəli torpaqlarımız İrəvana, Zəngəzura, Göyçə mahalına zorla yiyələnən ermənilər özlərinə saxta tarix quraşdırmaq üçün, ilk növbədə, o ərazilərdəki qədim yer adlarını da bütünlüklə dəyişdirmişlər.

Tarixi həqiqəti isə dəyişdirmək mümkün deyil. Qərbi Azərbaycanın əsl sahibi xalqımızdır və soydaşlarımızın bu əraziyə qayıdıb orda yaşaması isə onların əzəli insanlıq haqqı və beynəlxalq hüquqla müəyyən edilən hüququdur.

***Arzu ABDULLAYEV,***
***tarix üzrə fəlsəfə doktoru***

**Xəbər verdiyimiz kimi, Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti bugünlərdə dünyada dini azadlıqların vəziyyətinə dair növbəti illik hesabat dərc edib. Sənədin Azərbaycan və Ermənistana dair hissələri mahiyyəti üzrə qeyri-obyektiv olmaqla açıq-aşkar anti-Azərbaycan xarakteri daşıyır. Bununla bağlı Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda bildirilib:**

# İcmanın saxta ittihama kəskin etirazı

–Azərbaycanda erməni dini abidələri ilə bağlı əsassız iddialara geniş yer verən Dövlət Departamenti, nədənsə, Ermənistandan azərbaycanlıların etnik və dini nifrət zəminində tamamilə qovulması, bu ölkədə vaxtilə dövlət tərəfindən qeydiyyatdan keçmiş 300-ə yaxın məscidin və azərbaycanlılara məxsus bütün digər dini və mədəni irsin dağıdılması faktlarını görməzdən gəlir.



Dövlət Departamentinin açıqlamasında erməni ekstremist təşkilatları tərəfindən maliyyələşdirilən üç radikal millətçi erməni müəllifin (L.Xaçaturyan, H.Qulyan, S.Bokçeriyan) yazdıqları iftiranın yer alması bu hesabatın qərəzli olmasını sübut edir.

**Bəyanatda icmanın saxta ittihamlara kəskin etirazı belə əks olunub:**

–Biz ABŞ Dövlət Departamentini hesabatın həmin hissələrini redaktə etməyi, əsassız iddiaları çıxarmağı və Ermənistanda tüğyan edən azərbaycanafob meylləri və Azərbaycanın dini və mədəni irsinin, o cümlədən, məscidlərin və qəbiristanlıqların dağıdılması kimi inanc azadlıqlarının sistemli şəkildə pozulması faktlarını əks etdirməyə çağırırıq. Bundan əlavə, ABŞ hökumətini Ermənistanı sözügedən irsi dağıtmasını dayandırmağa və artıq dağıtmış olduqlarını bərpa etməyə məcbur etmək üçün səylər göstərməyə çağırırıq.

Nəhayət, ümid edirik ki, bizim ABŞ-ın Dövlət katibi Antoni Blinkenə müraciətimizə uyğun olaraq, ABŞ hökuməti Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmalarının təmin edilməsi və qayıtdıqdan sonra onların orada hüquq və azadlıqlarının, o cümlədən, dini azadlıqlarının qorunması üçün müvafiq səylər göstərəcək.

***"Xalq qəzeti"***



# Tarixi həqiqətlər gənc nəslə çatdırılır

**Naxçıvanda ali təhsil müəssisələrinin tələbələri və Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının iştirakı ilə "Qayıdış: Qərbi Azərbaycan" mövzusunda seminar keçirilib.**

Muxtar Respublikanın Gənclər və İdman Nazirliyi, YAP Naxçıvan təşkilatı və "Gənc Vətənpərvərlər" İctimai Birliyinin start verdiyi maarifləndirmə aksiyasının məqsədi itirilmiş tarixi Azərbaycan torpaqları barədə bilgilərin və Qərbi Azərbaycan İcmasının hüquqlarının bərpası istiqamətində görülən işlərin gənclərə çatdırılmasıdır.

Toplantını giriş sözü ilə açan nazirliyin əməkdaşı Azadə Əliyeva 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi qələbəni xatırladaraq deyib ki,bu zəfər regionda və bütövlükdə dünyada geosiyasi vəziyyət dəyişib və Qərbi Azərbaycana qayıdış hərəkatını yeni mərhələyə çıxarıb. Bu yöndə atılan ciddi addımların hədəfi bir zamanlar orada yaşamış soydaşlarımızın hüquqlarının bərpa edilməsinə nail olmaqdır.

Tarix üzrə fəlsəfə doktoru, dosent Elçin Zamanov qeyd edib ki, xalqımız ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürmə və soyqırımılarından böyük əziyyət çəkmişdir. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması nəticəsində indi həmin yerlər xarabazara çevrilib. Buradakı türk-müsəlman abidələrinin çox böyük bir hissəsi məhv edilib, yerdə qalanları isə saxtakarlıqla özününküləşdirilib. Bütün bu haqsızlığa rəğmən müasir Azərbaycan dövləti öz soydaşlarının hüquqlarını bərpa etmək üçün çox ciddi addımlar atır.

Çıxışlardan sonra tədbir diskussiya formatında davam edib.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"***

**Naxçıvan**

**Qərbi Azərbaycandan zaman-zaman didərgin düşmüş soydaşlarımızın acı fəryadları, üzləşdikləri fəlakətlər yaxın tarixin erməni üzqaralıqları sırasında yer alıb. Doğma ellərdəki qərib yurdumuzun – Qərbi Azərbaycanımızın bir zamankı gözəl günləri, erməni zülmünün acı xatirələri, işağl altında qalan yerlərin həsrəti və s. sənədli və bədii əsərlərdə, qoşulan şeirlərdə, tarixi araşdırmalarda dərin izlər qoymuş, əbədiləşmişdir.**

# Doğma ellərdəki qərib yurdumuz...




Bizim çox əziz müəllimlərimizdən olmuş professor Həsən Mirzəyevin min bir zəhmətlə ərsəyə gətirdiyi və çap etdirdiyi "Qərbi Azərbaycanın Dərələyəz mahalı" irihəcmli əsəri bu yurd yerimizin tarixini, toponimikasını, etnoqrafiyasını, mədəniyyəti və ədəbiyyatını öyrənmək baxımından çox qiymətli bir əsərdir. 860 səhifəlik irihəcmli bu kitab Qərbi azərbaycanlıların bəlalı taleyi barədə əhatəli salnamədir. Mərhum müəllifin uzun illərin tədqiqatlarına dayanan dəyərli tapıntıları, fikir, mülahizə və qənaətləri bu nəşrdə geniş yer almışdır. Kitabın "Aşıq, şair və şair təbiətli adamların şeirlərində Dərələyəzin, Vətən və yurd həsrətinin tərənnümü" fəsli maraqlılığı ilə yanaşı, ciddi tarixi önəm də daşıyır.

Dərələyəz azərbaycanlıların yaşadıqları Qərbi Azərbaycanın bir hissəsidir. Əsərdə Dərələyəz ədəbi mühiti kontekstində həm aşıq mühitinin nümayəndələri, həm də bölgənin şair və yazıçıları barədə məlumatlar, onların yaradıcılığından nümunələr təqdim edilmişdir. Bu əsərlərdə müəlliflərin Dərələyəzə sevgisi, el-oba məhəbbəti, yurd nisgili, torpaq həsrəti, qayıtmaq ümidləri parlaq əksini tapmışdır.

Alim Aşıq Cəlil, Aşıq Mehdi, Aşıq Qəhrəman, Aşıq Fətulla, Aşıq Bəhman, Aşıq Qulu və başqa saz-söz sənətinin davamçıları haqqında danışmaqla bərabər, onların bədii irsindən örnəklər də vermişdir. Ustad aşıqların ləyaqətli davamçısı olan Aşıq Cəlil bütün keşməkeşli həyatı, taleyi və əsərlərinin ruhu ilə Qərbi azərbaycanlıların başına gətirilən müsibətləri təcəssüm etdirən ustad el sənətkarıdır.

Dərələyəz mahalının məşhur Sallı kəndində doğulan, "Cəlili" və "Naxçıvani" havalarının müəllifi olan Aşıq Cəlil 1918-ci il erməni zülmü və müsibətlərinin nəticəsi olaraq öz doğma torpağından didərgin düşərək Şərur rayonuna pənah gətirmiş, burada Vətən nisgili ilə yaşamış, yurd həsrəti ilə dünyasını dəyişmişdir. Aşıq "Hardasan" rədifli qoşmasında doğma vətənindən didərgin düşməyinin acı kədərini belə ifadə etmişdir:

*Üzülübdür doğma yurddan ayağım,*
*Gecələr zülmətdir, sönüb çırağım.*
*Alınmaz səngərim, arxam, dayağım.*
*Dilim, ağzım, söhbət-sözüm hardasan?*

Aşıq Mehdinin "Dığa", "Düşdü" kimi şeirlərində, müəllifli bayatılarında insanlıqdan uzaq, vandal ermənilərin zülm və sitəmləri, tərk edilərək boş qalan Vətən torpaqları və yurd həsrəti poetik əksini tapmışdır:

*Əzizim, əlim çıxıb,*
*Vətəndən əlim çıxıb.*
*Bulaqlar haya qaldı,*
*Susuzdan dilim çıxıb.*

"Dərələyəzin güvəndiyim, Torpağına zəhər düşdü" deyən nisgilli şair qorxaq və mənfur erməni dığalarının bir zaman cavablarının veriləcəyinə inamını belə bildirmişdir:

*Qarabağdan əl çək, əlin kəsilər,*
*Papa, mama deyən dilin kəsilər.*
*Xacodur, Vartazar əlin kəsilər,*
*Leşiniz itlərə pay olar, dığa.*

"Oğulluq etmədim sənə, bağışla, Vətən, günahımdan keç – keçə bilsən" deyən dərələyəzli şair Vahid Əziz isə baş vermiş faciələri belə bədiiləşdirmişdir:

*Gör nələr əkmişdim, nələr göyərdi?*
*Gör kimlər ömrümün barını dərdi?*
*Hər yanda boy atıb tikan cücərdi,*
*İndi bu "zəmini" biç, biçə bilsən.*

Dərələyəzli şairlərdən Əli Əkbər Dərələyəzli də "Vətən hey" şeirində Vətən həsrətini, könül qubarını yanğı ilə dilə gətirmişdir:

*Nə vaxtdır ki görəmmirəm üzünü,*
*Gəzəmmirəm yaylaqların düzünü.*
*Söndürən yox ürəyimin közünü,*
*Mən qalmışam yana-yana, Vətən hey!*

Şair Dərələyəzin görkəmli ziyalısı Həsən Mirzəyevə müraciətlə yazdığı şeirində isə Vətən həsrətini belə nəzmə çəkmişdir:



*Çıxmır xəyalımdan doğma yurdumuz,*
*Axır gözlərimdən çay, Həsən müəllim.*
*Gəzsən yer üzünün bütün hər yerin,*
*Tapılmaz yurduma tay, Həsən müəllim!*

Ümumiyyətlə, Dərələyəz mahalının şairlərindən olan Rəhman Mustafayev, Şair Rzaqulu, Alim Dərələyəzli, Valeh Şahquliyev, Alı Dərələyəzli, Umud İsmayılov, Şəkil Dərələyəzli, Xırda xanım Dərələyəzli, Ballı Dərələyəzli, Mənsurə Dərələyəzli, Narıngül Dərələyəzli, Əli Qozulcalı və başqalarının yaradıcılığında da Qərbi Azərbaycanımızdan didərginliyin müsibət və nisgili poetik dillə əks olunmuşdur. Həm də gözəl şair olan dilçi professor Həsən Mirzəyev də Vətən dərdini bədii yaddaşa çevirmişdir. Onun "Dərələyəz", "Dağlar" rədifli şeirlərində, "Dərdimi" qoşmasında, Aşıq Mehdi ilə deyişmələrində el həsrətinin ağrılı xatiratı əbədiləşmişdir. "Dərələyəz" rədifli şeirində şair el göynərtisini belə ümumiləşdirmişdir:

*Düşmən əlindəsən, gələ bilimirəm,*
*Axan göz yaşını silə bilmirəm.*
*Dərd məni öldürür, ölə bilmirəm.*
*Aylarım olubdu il, Dərələyəz!*
*Sənsiz lal olubdur dil, Dərələyəz!*

Sinəsi dərdli olsalar da, dərələyəzli el şairlərimiz həm də ümidli, inamlı görünürlər. İnanırlar ki, qəhrəman və yurd məhəbbətli soydaşlarımız mütləq öz elinə, obasına dönəcək, müxənnətdən, qarı düşməndən öz yurdunu təmizləyəcək. Bir də o ellərə bahar gələcək, ağaclar çiçək açacaq, təbiət güləcək. Yurdlarımız doğma sakinlərinin gəlişinə sevinəcək. El də, oba da dirçələcək, həyat yenilənəcək. Həsən müəllimin dediyi kimi:

*Mütləq gələcəyəm, bil, Dərələyəz,*
*Çox ötüb keçsə də il, Dərələyəz!*

Hər bir azərbaycanlı əmindir ki, Azərbaycana Qarabağ və Şərqi Zəngəzurda böyük Zəfər bəxş edən müzəffər Ali Baş Komandan İlham Əliyev ümummilli lider Heydər Əliyevin Qərbi Azərbaycanla bağlı arzu və istəklərini də inamla gerçəkləşdirəcək. İnanırıq ki, 35 ildir ki, qaçqınlıq taleyi yaşayan soydaşlarımız tezliklə didərgin düşdükləri qərib elimizə – Qərbi Azərbaycanımıza da qayıdacaqlar.

***Ramiz QASIMOV,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***dosent***

# "SOCAR Türkiyə" fəaliyyət ahəngini pozmadan inkişaf etməkdədir

**İzmirin Menderes hava limanına enər-enməz şəhərdəki siyasi ab-havanın gərginliyi hiss olundu. Özünü Türkiyə Respublikasının prezidenti kürsüsündə görənlərin də, Böyük Millət Məclisində yer qazanmaq istəyənlərin də çevik və parlaq ifadələrinin yer aldığı təşviqat plakatları ilə seçicilərin "peşində" olduqları sadəcə üzdə olanlar idi. Seçki mübarizəsinin gərginliyi Türkiyə mediasında daha açıq diqqət çəkirdi. Azərbaycanın böyük jurnalist qrupu isə ölkəmizin Türkiyə iqtisadiyyatında artıq son beşillikdə özünü tanıtmış və nüfuz qazanmış "SOCAR Türkiyə" şirkətinin ənənəvi dəvətilə, şirkətin son ildə əldə etdiyi nəticələr və qazandıqları uğurlarla tanış olmağa gəlmişdi.**

Seçki təbliğat və təşviqatının ilk mənzərəsini hava limanından Əliağa bölgəsində qonağı olacağımız "Radisson" hotelinədək maraqla izləyib öz aramızda təəssüratlarımızı bölüşdük. Əliağada isə mənzərə bir qədər fərqli idi. Bölgənin insanları daha çox gündəlik məişət qayğıları ilə yükləndikləri üçün seçki marafonu onları elə də çox maraqlandırmırdı. Amma buradakı köhnə dostlardan öyrəndik ki, İzmir kimi onun bir parçası olan Əliağada da insanlar kimlərə səs verəcəklərini artıq çoxdan qərarlaşdırıblar.

Bu təəssüratlarla növbəti səfər günü əsas işimizin icrasına başlamaq üçün Əliağa bölgəsinin ən gözəl yerində qərar tutmuş "SOCAR Türkiyə" şirkətinin ofisinə gəldik. Şirkətin fəaliyyətə başlamasından bu günədək üçüncü səfərimiz olduğu üçün bu yerlərdə, elə bu ofisdə çox şey bizə tanış idi. Ona görə də təfərrüata varmadan səfərimizin əsas məqsədindən bəhs edəcəm.

Geniş və uzun çəkən mətbuat konfransında əsas söz sahibləri "SOCAR Türkiyə" şirkətinin baş direktoru vəzifəsini icra edən Elçin İbadovla, "SOCAR-Türkiyə"nin emal və neft-kimya bölməsinin rəhbəri, "Star" Neft Emalı Zavodunun (NEZ) və "Petkim Petrokimya Holdinq"in baş direktoru Anar Məmmədov idilər. Öz yeni vəzifəsində Azərbaycan jurnalistlərinin qarşısına ilk dəfə çıxan Elçin İbadovun açıqlamalarından və Anar Məmmədovun geniş çıxışından ilk təəssürat ondan ibarət idi ki, "SOCAR Türkiyə" şirkəti rəhbərliyinin bu mətbuat konfransı təkcə jurnalistlər yox, həm də media vasitəsilə Azərbaycan ictimaiyyəti qarşısında geniş hesabatıdır.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinin şirkətdə geniş qeyd edilməsi xəbəri ilə çıxışa başlayan baş direktor vəzifəsini icra edən Elçin İbadov qısa girişdən sonra vurğuladı ki, şirkət bu illər ərzində bütün fəaliyyətini ulu öndərin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla reallaşdırdığı Azərbaycan–Türkiyə münasibətlərinin strateji xəttinə uyğun davam etdirmişdir. Buna əsas kimi göstərilən fakt isə ondan ibarətdir ki, "SOCAR Türkiyə" bu günə qədər Türkiyənin ən böyük xarici sərmayədarıdır və bütün fəaliyyət sahələrində qardaş ölkənin iqtisadi inkişafına töhfələr verməkdə davam edir. Reallıqda da "SOCAR Türkiyə" bu gün Türkiyədə yaratdığı əlavə dəyər və ölkə həyatının bütün sahələrini əhatə edən xammal istehsalı ilə enerji sektorunda aparıcı rol oynamaqdadır.

Elçin İbadov icra etdiyi vəzifəyə yeni təyin olunduğundan onun karyerası haqqında məlumat da jurnalistlər üçün maraqlı idi. O bunu nəzərə alaraq bildirdi ki, 2023-cü ilin fevralından "SOCAR Türkiyə" şirkətinin baş direktoru vəzifəsini icra etməsinə baxmayaraq, bu müəssisədə yeni adam deyil. 2014-cü ildən "Star" NEZ-in tikintisindən başlayaraq son təyinatına qədər bu şirkətdə çalışıb.

Şirkət rəsmisinin dediyinə görə, Türkiyənin ən böyük sənaye konqlomeratı olan "SOCAR Türkiyə"nin Əliağa bölgəsində yerləşən şirkətləri onun qan damarıdır. Əslində, bu Azərbaycan şirkətinin Türkiyə iqtisadi həyatına daxil olduğu ilk yer məhz Əliağa bölgəsidir. Şirkətin aktivlərinin əksəriyyəti, daha çox mənfəət gətirən müəssisələri məhz burada yerləşir

Azərbaycan jurnalistlərinin qrup şəklində son dəfə 2021-ci ildə "SOCAR Türkiyə" şirkətinin qonağı olduğunu, ötən müddətdə şirkətin həyatında böyük dəyişikliklərin baş verdiyini və bir çox uğurların əldə edildiyini vurğulayan E.İbadov çıxışının əsas hissəsində məhz uğurlardan bəhs edəcəyini bildirdi. Xüsusi qeyd ediləsi faktlardan biri "SOCAR Türkiyə"-nin qardaş ölkədə fəaliyyət göstərdiyi 15 ildə Türkiyə iqtisadiyyatına 18 milyon dollar investisiya yatırmasıdır. İnvestisiyanın həcminin böyüklüyü qədər digər əhəmiyyətli məsələ, təbii ki, onun rentabelliyidir. "SOCAR Türkiyə" ilk gündən öz iş planını məhz bu rentabellik üzərində qurub. Həqiqətən, böyüklük, birinci olmaq, tək olmaqdan daha vacib olanı səmərəli, mənfəətli olmaq, növbəti investisiyalara yol açmaq kimi düşüncələrin layihəyə çevrilib həyata vəsiqə almasına çalışmaq, Azərbaycan üçün də, Türkiyə üçün də daha faydalı olmaqdır.

Məhz bu baxımdan, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Əliğa yarımadasında yerləşən müəssisələrin bilavasitə "SOCAR Türkiyə"yə məxsus olmasını nəzərə alıb 2018-ci ildə fərman imzalayaraq bu əraziyə özəl sənaye bölgəsi adı verib. Maraqlı detallardan biri də ərazinin 1453 hektarda olması və bu rəqəmin də İstanbulun fəthi tarixi ilə simvollaşmasıdır.

Əliağa bölgəsində yerləşən sənaye nəhənglərindən biri "Petkim" şirkətini 2008-ci ildə Azərbaycan tərəfi 2 milyard dollar sərmayə müqabilində özəlləşdirməklə səhmlərinin 51 faizinə sahib olub. Bundan sonra "Petkim"dən qazanılan mənfəət hesabına bu şirkətə 1,6 milyard dollar sərmayə yatırılıb. Şirkət rəsmisi bunun əhəmiyyətini onunla izah etdi ki, "SOCAR Türkiyə" "Petkim"i özəlləşdirərkən onun sahib olduğu istehsal gücü, səmərəliliyi, əməliyyat çevikliyi müəssisəyə yatırılan 1,6 milyard dollar sərmayə ilə daha da gücləndirildi. Əgər həmin investisiya qoyulmasaydı, bu gün "Petkim"in hansısa uğurlarından söz açmaq mümkün olmayacaqdı. Bu uğuru təmin edəcək digər əsas məsələ neft emalı və neft-kimya şirkətlərinin inteqrasiyalı şəkildə çalışmasıdır. Dünyada bu inteqrasiyanı təmin etməyən və ayrı-ayrılıqda çalışan zavodların böyük uğur qazandıqlarına nümunə göstərmək əsla mümkün deyil. "SOCAR Türkiyə" məhz "Petkim"in səmərəliliyini artırmaq və Türkiyə bazarında neft emalı məhsullarına tələbatı bildiyinə görə 6,7 milyard dollara müasir "Star" Neft Emalı Zavodunu inşa etdi. Bu da həmin dövrdə bir nöqtəyə yatırılan ən böyük investisiya idi. Amma "SOCAR Türkiyə" komandası onun ilk olması, böyüklüyündən daha çox, rentabelliyində maraqlı idi və buna nail olmaq üçün çalışırdı.

"Star" NEZ fəaliyyətə başlayana qədər Türkiyədə yalnız bir neft emalı zavodu var idi və o da daxili bazarın tələbatının çox kiçik hissəsini qarşılayırdı. Bugünün özündə belə "Star" NEZ-in tam gücü ilə neft məhsulları emal etməsinə baxmayaraq, Türkiyə hələ də bu məhsulları idxal etməkdə davam edir, çünki daxili istehsal tələbatı qarşılaya bilmir. Belə ki, "Star" NEZ hazırda Türkiyənin ehtiyaclarının yalnız 25 faizini, "Petkim" isə 12 faizini təmin edir. İlk vaxtlarda "Petkim" tələbatın 18 faizini qarşılaya bilirdi. Lakin istehsal gücünün sabit qalmasına baxmayaraq, bazarın ehtiyacı artdı və müəssisənin məhsulları bu tələbatın 12 faizini təşkil etdi. Neft-kimya məhsullarına tələbatın artmasının pozitiv mesajı var. Bu mesaj ondan xəbər verir ki, Türkiyədə neft-kimya məhsulları bazarı genişlənir. Bu da "SOCAR Türkiyə"nin bu bazarın tələblərinə uyğun hansısa addımlar atmasına çağırış deməkdir.

Əlbəttə, əgər bu hesabatda TANAP-la bağlı açıqlama olmasaydı, bəlkə də onun natamamlığı özünü dərhal göstərəcəkdi və bu səbəbdən Elçin İbadovun verdiyi məlumatlar bu boşluğu doldurdu. Baş direktor əvəzi qeyd etdi ki, bu boru kəməri vasitəsilə Avropaya 23,3 milyard kubmetr, Türkiyəyə isə 21,5 milyard kubmetr, ümumilikdə isə, 45 milyard kubmetrə qədər qaz nəql edilib.

Baş direktor vəzifəsi icraçısının "SOCAR Türkiyə"nin şirkətlər qrupuna daxil olan "Bursaqaz" və "Kayseriqaz" müəssisələrinin fəaliyyəti və şirkətə hansı fayda verdiyi ilə bağlı bilgiləri Azərbaycan oxucusunu maraqlandırmaya bilməz. Məlumata görə, bu şirkətlər iki böyük sənaye şəhərində – Bursada və Kayseridə yaşayan insanların evlərinin, sənaye müəssisələrinin qaz təchizatını həyata keçirir. Hazırda onların 1,7 milyon abunəçisi var. Hər iki şəhərə qaz təchizatını təmin etmək üçün 14 min kilometrə qədər şəhərdaxili qaz boru xətti çəkilməsinə investisiya qoyulub. Şirkətlər hər iki şəhərdə çox yüksək xidmət göstərməkdə davam edirlər. "SOCAR Enerji" isə təbii qazın və elektrik enerjisinin pərakəndə deyil, topdan satışını həyata keçirir və uğurla fəaliyyət göstərir.

Elçin İbadov "SOCAR Terminal" haqqında da qısa məlumat verdi və qeyd etdi ki, terminal quru yüklərin daşınması sahəsində fəaliyyət göstərir. Orada yükdaşımaların həcmi ildən-ilə artmaqdadır və bu da fəaliyyətin faydalı şəkildə qurulmasının əsas göstəricisidir. Lakin terminalın tam gücü ilə işlədiyini və maksimum yükdaşıma həcminə nail olduğunu demək hələ tezdir.

"SOCAR Türkiyə"nin sahib olduğu "SOCAR-Fiber" internet satışı şirkəti də uğurla işləyir və hazırda bu sahədə Türkiyə bazarında ilk beşliyə daxil ola bilib. "SOCAR-Fiber" provayderi bilavasitə İzmir və Əliağa bölgəsində fəaliyyət göstərir, ev və ofisləri sürətli internetlə təmin edir.

E.İbadov "SOCAR Türkiyə"nın ötənilki fəaliyyəti, əldə edilən nəticələr və uğurlardan geniş bəhs edərək qeyd etdi ki, 2022-ci ildə dünyada cərəyan edən gərgin geosiyasi hadisələr səbəbindən özünü göstərən qlobal inflyasiya Türkiyədən də yan keçməyib. Digər tərəfdən, pandemiyanın təsirlərinin tam aradan qalxmaması bu prosesi ağırlaşdırıb. Bu səbəbdən 2022-ci ili iqtisadiyyatların tam gücü ilə artmadığı il kimi qiymətləndirmək olar. Amma bütün bunlara baxmayaraq, 2022-ci il səmərəlilik, mənfəətlik, aktivlik baxımından "SOCAR Türkiyə"nin ən yüksək uğurlar qazandığı rekord ili olub. Təbii ki, burada neft məhsulları bazarında şərtlərin səmərəli olması ümumi işə yarayıb. "Lakin "SOCAR Türiyə" komandasının bazarın hər hansı sürprizlərinə hazır olması və istənilən şəraitə uyğun planlarının mövcudluğu əsas rol oynayıb. Çünki komandanın hər hansı vəziyyətə görə ehtiyat planları olur. Məsələn, "Petkim"də məhsul satışı 70 faiz artdı və xalis mənfəətimiz 6,5 milyard lirə təşkil etdi ki, bu, Türkiyədəki indiki məzənnə ilə 400 milyon dollar təşkil edir. Digər tərəfdən, neft emalını artırdıq. Bildiyiniz kimi, "Star" Neft Emalı Zavodunun standart emal həcmi 10 milyon tondur. Amma biz əlavə investisiya qoymadan, yüksək mühəndislik texnologiyalarından istifadə edərək, "Star"ın emal həcmini 113 faizə çatdırdıq ki, bu da 11,3 milyon ton məhsul emalı deməkdir" – deyə E. İbadov vurğuladı.

Daha sonra Elçin İbadov şirkətdə fəaliyyət göstərən "Dəyər yaratma" platforması haqqında da qısa açıqlama verdi. Qeyd etdi ki, bu platformada şirkətdə çalışan hər hansı işçi özünün səmərəli təklifini verə bilər və əgər onun təklifi özünü doğruldarsa, həmin şəxs mükafatlandırılır. 2022-ci ildə sadəcə, "Star" NEZ-də və "Petkim"də bu platformada 120-ə yaxın layihə həyata keçirilib və onlardan 750 milyon dollar gəlir əldə edilib.

"SOCAR Türkiyə" rəsmisi qeyd etdi ki, qazanılan uğurlara, əldə edilən yüksək nəticələrə baxmayaraq, biz qarşıdakı dünya tələblərinə doğru hansı layihələrlə gedəcəyimizi düşünür və bu istiqamətdə daha çevik olmağa çalışırıq. Onlardan biri dövrün əsas tələbi kimi qarşıda duran rəqəmsallaşmadır. Biz əmin olmaq istəyirik ki, bizim 5 min 300 işçimizin hər biri bunun hansı əhəmiyyət kəsb etdiyini başa düşsün. Bu günə qədər kağız üzərində həyata keçirilən əməliyyatları, mühafizə edilən məlumatları elektron buludda yerləşdirmək, bizə görə rəqəmsallaşma deyil. Rəqəmsallaşma digital vasitələrin köməyi ilə biznesin fərqli metodlarla inkişaf etdirilməsidir.

Bu sahədə də şirkətdə işlər dinamik inkişaf etdirilir. Məsələn, "SOCAR Türkiyə" bu günə qədər rəqəmsallaşmaya 71 milyon dollar sərmayə yatırıb. Bunun nəticəsində Dünya İqtisadi Forumu 2020-ci ildə "Petkim"i, 2021-ci ildə "Star" NEZ-i "Global Lighthouse Network" mükafatına layiq görüb. "SOCAR Türkiyə" neft-kimya sənayesi sektorunda bu mükafatları alan yeganə şirkətdir və bir şirkətin iki müəssisəsinin bu mükafata layiq görülməsi nadir hadisədir.

"SOCAR Türkiyə"də ikinci xüsusi önəm daşıyan məsələ isə davamlılıqdır. Yəni insanın, ətraf mühitin və şirkətin davamlı inkişafı üçün atılacaq addımlardır. Şirkət artıq karbonsuz istehsala, yaşıl maliyyələşməyə istiqamət götürüb və bununla bağlı üç prioriteti var: mümkün olduğu qədər karbon tullantısını azaltmaq, tullantılardan yeni məhsullar istehsal etmək, həm də mümkün qədər yaşıl maliyyələşməni təmin etmək. Bu istiqamətdə konkret rəqəmsal hədəflər və onların reallaşdırılması vaxtları da müəyyən edilib. Şirkətin hədəflərindən biri ilkin olaraq 2035-ci ilə qədər karbon emissiyası və havaya atılan tullantıları 40 faizədək azaltmaq, 2050-ci ilədək isə bu göstəricini 0 faizə çatdırmaqdır.

Elçin İbadovdan sonra hesabat xarakterli çıxışla "SOCAR Türkiyə" emal və neft-kimya bölməsinin rəhbəri, "Petkim Petrokimya Holding"in baş direktoru Anar Məmmədov jurnalistlər qaşısına çıxdı. O, Əliağada yerləşən "Star" NEZ və neft-kimya məhsulları istehsalı haqqında geniş məlumat verərək qeyd etdi ki, onun rəhbəri olduğu şirkətlər qrupunda 4 şirkət var: "Star" NEZ, "Petkim" neft-kimya məhsulları müəssisəsi, "SOCAR Ticarət" və "SOCAR Depolama" şirkətləri. Bu şirkətlərin niyə eyni qrupda birləşməsinin əsas səbəbi onların hər birinin məhz Əliağa bölgəsində yanaşı olmasıdır.

Anar Məmmədov vurğuladı ki, "Star" NEZ-in dizaynı zamanı zovodda istehsal olunan məhsulların əksəriyyətinin Türkiyə bazarında qalmasına üstünlük verilib. İstehsal edilən dizel yanacağı, nafta və kerosin, demək olar ki, tamamilə Türkiyə bazarında satılır. Ümumiyyətlə, "SOCAR Türkiyə"nin istehsal etdiyi neft məhsullarının böyük hissəsini – 55 faizini dizel yanacağı təşkil edir. Yəni bizim strategiyamızın mərkəzində Türkiyə bazarı dayanır.

"Star" NEZ-də aparılan yeniliklərdən bəhs edərkən qeyd edildi ki, dizayna görə zavodun istehsal gücü 10 milyon ton olub, lakin ötən il müəyyən mühəndis layihələrini tətbiq etməklə, bunu 11,5 milyon tona çatdırmaq mümkün olub. Amma bununla da zavodun potensialı bitmir. 2023-cü ildə hədəf istehsal gücünü 12 milyon tona çatdırmaqdır.

Baş direktor "Star" NEZ-in bir özəlliyini xüsusi vurğulayaraq bildirdi ki, zavodda istənilən zaman bir məhsulun istehsalını digər məhsulla əvəz edə bilirik. Bu özəllik, demək olar, heç bir başqa neft emalı zavodunda yoxdur. Məsələn, pandemiya dövründə aviasiya kerosininə ehtiyac son dərəcə azaldı və bəzi zavodlar istehsal prosesini dayandırdılar. Amma "Star"da istehsal bir saat belə, dayanmadı və bazarda tələbatın artdığı dizel yanacağı istehsalı artırıldı.

"Petkim"in fəaliyyətinə gəldikdə isə, qeyd olundu ki, bu şirkətin istehsalı 3,6 milyon tondur. Bunun içində ara məhsulları da var, ancaq satışa çıxarılan məhsullar 3 milyon tondur. Bu həcm Türkiyə bazarı üçün çox kiçikdir, tələbatın 12 faizini ödəyir. Ümumilikdə, qardaş ölkənin ehtiyaclarını ödəmək üçün əlavə 7-8 "Petkim" kimi şirkətə ehtiyac var. "Petkim"də 21 fabrik var, onun 15-i əsas istehsal, 6-sı isə yardımçı fabriklərdir. Hazırda bu fabriklərdə 60-a yaxın məhsul çeşidi mövcuddur.





2016-cı ildə şirkət ilk olaraq "Petkim" neft-kimya məhsulları istehsalı müəssisəsində əməliyyat mükəmməlliyi proqramına başlayıb. Bu istiqamətdə həyata keçirilən layihələrlə bağlı açıqlamasında Anar Məmmədov qeyd etdi ki, bunun sayəsində əlavə sərmayə yatırmadan 700 milyon dəyər yarada bildik. Bu əməliyyat mükəmməlliyi proqramının əsasında rəqəmsallaşdırma dururdu.

Baş direktor prioritetləri də açıqladı və bildirdi ki, 2023-cü il neft-kimya sənayesi üçün heç də asan il olmayacaq. Ona görə də müəssisədə əməliyyat mükəmməlliyini, səmərəliliyi artırmağa və davamlılığı təmin etməyə çalışılır. İlk növbədə, faydalı və gəlirli olan layihələri həyata keçirməyə üstünlük veriləcək. Diqqətçəkən məqam budur ki, istehsal həcminin artırılması əlavə vəsait yatırımı hesabına həyata keçirilməyib. Bu, əsasən əməliyyat rejiminin aktivləşdirilməsi ilə, qurğuları sınaqdan keçirməklə əldə edilib.

Azərbaycan ictimaiyyətində maraq doğuran "Star" NEZ-ə yatırılan kredit və borc məbləğlərinin qaytarılması ilə bağlı məsələ ilə əlaqədar suala cavabında Anar Məmmədov qeyd etdi ki, bu layihə, həqiqətən, çox səmərəli və gəlirli layihə oldu. Ona görə də tikintiyə xərclənən borcların ödənilməsi tam qrafikə uyğun gedir. Əlbəttə, buna bazar şərtlərinin təsiri də səbəb olub. Sirr deyil ki, bizim sektorumuzda "Star" NEZ üçün çox müsbət bir il oldu. Digər tərəfdən, "SOCAR Türkiyə" komandasının dəyər yaratmaq təşəbbüsləri də öz müsbət rolunu oynadı. Bunlar olmasaydı, o dövrün bazar şərtlərindən tam faydalanmaq olmazdı.

"Star"da emal üçün hansı neftin alınmasına gəldikdə isə, A. Məmmədov bildirdi ki, vacib olan zavodun dizaynına daha uyğun, loqistika və region baxımından bu əraziyə daha yaxın olan regionlardan neftin idxal edilməsidir. Azərbaycan neftindən istifadə edilmir. Çünki bu, çox keyfiyyətli və qiymətli neftdir. "Star" NEZ-in özəlliyi ondadır ki, zavod daha ağır, lakin ucuz neft növlərinin emalı üçün dizayn edilib. "Star" NEZ dünyada ən son inşa edilən, həqiqətən, mükəmməl zavodlardan biridir. Ona görə də burada ən ucuz və keyfiyyətsiz nefti belə emal etmək və dəyər yaratmaq mümkündür. Zavodda şəffaf məhsul çıxışı 90 faizə yaxındır. Burada qudron, bitum kimi qara məhsullar qətiyyən istehsal olunmur.

Baş direktor A.Məmmədov son dövrlər mətbuatda tez-tez toxunulan "Merkuri" layihəsi ilə bağlı da geniş açıqlama verdi. O, əvvəlcə layihənin özü barədə bildirdi ki, "Star" NEZ-də ildə təqribən bir milyon tona yaxın reformat məhsullar çıxır. Bu məhsul iki sahədə istifadə edilə bilir. Birincisi, benzinin dəyərli komponenti olaraq, amma benzin istehsal olunmur. İkincisi, reformat neft-kimyanın çox dəyərli xammalıdır. Hazırda Türkiyədə bu məhsulun bazarı yoxdur, ona görə də onu Amerika və Asiya ölkələrinə ixrac etmək məcburiyyəti yaranır. Çünki bu ölkələrdə benzin çox istehsal edilir.

"Merkuri" layihəsinin əsasında duran başlıca məsələ bu məhsulun Türkiyədə necə saxlanması və ondan necə istifadə edilməsi idi. Bu məntiqlə "SOCAR Türkiyə" BP şirkəti ilə birgə layihə işlədi. Lakin layihə hazırda dayandırılıb. Əvvəla, BP şirkəti bütün neft-kimya zavodlarını sataraq, bu biznes sahəsini tərk etdb və "Merkuri" layihəsindən də çıxıb. İkincisi, o vaxtdan bu günə bazar şərtləri çox dəyişib. Amma bu o demək deyil ki, "SOCAR Türkiyə" mövcud istiqamətdə heç bir işi davam etdirməyəcək. Bu layihə yenə gündəlikdədir. Bazar şərtləri uyğun olacağı zamanda ora qayıdılacaq. Sual oluna bilər ki, "Merkuri" layihəsi Türkiyənin ehtiyaclarını qarşılayarmı? Yox, qarşılamayacaq.

Anar Məmmədov xüsusi vurğuladı ki, kimya məhsulları istehsalının inkişafı SOCAR-ın strategiyasında önəmli yer tutur: "Ümumiyyətlə, mən elə düşünürəm ki, hazırda dünyada ən böyük potensiala neft-kimya sənayesi sahibdir. Nədən? Baxın, yanacaq sektorunda çox böyük dəyişiliklər baş verir. Elektromobillər artıq reallıqdır və bu sektor çox böyük sürətlə inkişaf edir. Yəni nəqliyyat yanacaqlarının əvəzi artıq var. Neft-kimya sənayesində də belə cəhdlər nəzərə çarpır, amma hələ ki, dünyada neft-kimya məhsullarını tam əvəz edəcək məhsul yoxdur. Ona görə biz bu sahəni daim diqqətdə saxlayırıq. Əgər belə bir sahəyə yatırım etmək qərarına gəlsək, çox modern biz zavodun konfiqurasiyasını seçməliyik. Neft-kimya məhsullarının çeşidi sonsuzdur, ona görə də biz çox uzaq bir gələcəyə hesablanan layihələr işləyib hazırlamalıyıq".

Baş direktor, "Star" NEZ-in dayanması məsələsilə bağlı suala da aydınlıq gətirdi və bildirdi ki, hər bir zavodda, istər neft emalı, istərsə neft-kimya sahəsində, 4 il fasiləsiz iş rejimindən sonra böyük dayanmalar həyata keçirilir. Bunun da məqsədi zavodda istismar ehtiyaclarının yaranması, avadanlıqların təmizlənməsidir. Bu, dünyada qəbul edilmiş bir tədbirdir. "Star" NEZ fəaliyyət tarixində ilk dəfə 2024-cü ildə dayanmaya qərar verəcək. Dayanmanın müddəti hələ ki, bəlli deyil. Bu 45-60 gün uzana bilər. Bizim bu dayanmada bir neçə hədəfimiz var. Birincisi, normal təcrübəyə uyğun olaraq bunu etməliyik. İkincisi, bu böyük təmirlərin aralıq zamanını uzatmaq istəyirik. Bu gün dünyada normal təcrübə 4 ildə bir dəfə dayanmadır. Biz bu zamanı 5 ilə uzatmaq istəyirik. Buna nail olsaq, artıq zavod növbəti dəfə 2028-də deyil, 2029-da dayanacaq. 4 ildən bir zavod 2 aya dayanırsa, bu, şirkət üçün böyük zərərdir. Yəni 60 günü 4 ilə böləndə biz ildə iki həftə itirmiş oluruq. Bu vaxtı 5 ilə uzatsaq, artıq ilə iki həftə deyil, təqribən 10 gün düşür. "Star" kimi böyük zavod üçün qazandığımız 5 günün əhəmiyyəti çox böyükdür. Əgər biz buna nail olsaq, o zaman ildə təqribən 40 milyon dollara yaxın vəsaitə qənaət etmiş oluruq. Üçüncü hədəfimiz isə istehsal həcmini daha 3 faiz artırmaqdır. Yəni neft emalını 120–120,5 faizə çatdırmaqdır.

"SOCAR Türkiyə"nin daxili bazara daha çox diqqət yetirməsinə şirkətin baş direktoru vəzifəsini icra edən Elçin İbadov aydınlıq gətirərək bildirdi ki, ümumi iqtisadi fenomen belədir – hansı ölkə hansı məhsulun idxalından asılıdırsa, həmin bazarda ölkədə fəaliyyət göstərən şirkətin əldə etdiyi mənfəət daha münasib olur. Türkiyə həm neft məhsullarının, həm də neft-kimya məhsullarının idxalından asılı olan ölkə olduğuna görə biz, ilk növbədə, məhsullarımızı daxili bazarda satmağa üstünlük veririk. Amma bu o demək deyil ki, şirkətlərimiz heç bir ixrac həyata keçirmir. Belə ki, istehsal etdiyimiz bəzi məhsulların Türkiyədə bazarı yoxdur. Məsələn, "Star" NEZ-in reformat məhsulunun yalnız kiçik bir hissəsini "Petkim" istifadə edə bilər. Qalan məhsulun hamısını ixrac edirik. Dizel və kerosin məhsulunu da, loqistika məqsədlərini diqqətə alaraq, ixrac edirik. Başqa məhsullara gəldikdə isə, "Petkim"in ötən il istehsal etdiyi məhsulun 3 milyard dollarlıq satışının təqribən 910 milyon dolları ixracdan əldə edilib. Amma əsas prioritet, əlbəttə, daxili bazardır.

Azərbaycan jurnalistləri üçün təşkil edilən mediaturun əsas tədbiri bununla başa çatdı. Bizdə daxilən belə bir əminlik yarandı ki, qardaş ölkədə siyasi ab-havanın çalarlarından və hərarətindən asılı olmayaraq, Türkiyə sənayesinin Azərbaycan nəhəngi "SOCAR Türkiyə" şirkətlər qrupu öz fəaliyyət ahəngini pozmadan inkişaf etməkdə və böyüməkdədir.

**İlqar RÜSTƏMOV,**
**"Xalq qəzeti"**

**Bakı – İzmir – Bakı**

# Azərbaycan və Xorvatiyanı tərəfdaşlıq münasibətləri birləşdirir



**Milli Məclisin Sədri Sahibə Qafarova parlamentin ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək üçün Azərbaycanda səfərdə olan Xorvatiya Respublikası Parlament Sədrinin müavini Davorko Vidoviç ilə görüşüb.**

Parlamentin rəhbəri dəvəti qəbul edib səfərə gəldiyinə və xüsusi iclasda iştirak etdiyinə görə Davorko Vidoviçə təşəkkürünü bildirib. O, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətləri barədə danışaraq deyib ki, ulu öndər görkəmli dövlət və siyasi xadim olmaqla yanaşı, xalqının taleyini dəyişdirən böyük lider, əvəzolunmaz şəxsiyyətdir. Heydər Əliyev erası Azərbaycanda quruculuq, inkişaf, sabitlik, tərəqqi və müstəqillik dövrü kimi xarakterizə olunur.

Qeyd edilib ki, Azərbaycan və Xorvatiya dost dövlətlərdir. Ölkələrimizi strateji tərəfdaşlıq münasibətləri birləşdirir. Qarşılıqlı səfərlər münasibətlərimizin inkişafına xidmət edir. Bu mənada dövlət başçıları səviyyəsində həyata keçirilən səfərlərin və görüşlərin xüsusi əhəmiyyəti qeyd olunub.

Ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərin də rolunu qeyd edən S.Qafarova bildirib ki, hər iki ölkənin qanunverici orqanlarında dostluq qrupları fəaliyyət göstərir. Parlamentarilərimiz arasında təmasların artması münasibətlərin daha da dərinləşməsinə töhfə verə bilər. O, regionda gedən proseslər, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri barədə də məlumat verib.

Xorvatiya Parlament Sədrinin müavini səfərə dəvətə və göstərilən yüksək səviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, Azərbaycanda olmaqdan məmnunluğunu vurğulayıb və ölkələrimiz arasında Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduğunu diqqətə çatdırıb. O, ölkəmizə səfəri çərçivəsində Xarici İşlər və İqtisadiyyat Nazirliklərində görüşlər keçirdiyini, ictimai xidmətlər sektorunda Azərbaycan brendi olan ASAN Xidmətlə tanış olduğunu, Ermənistanın işğalından azad olunmuş Ağdama səfər etdiyini bildirib və təəssüratlarını bölüşüb. Qonaq deyib ki, Xorvatiya minalardan əziyyət çəkən ölkə kimi minatəmizləmə sahəsində təcrübəyə malikdir.

Görüşdə Azərbaycanla Xorvatiya arasında müxtəlif sahələrdə əlaqələrin inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*Ə.BƏDƏLOV,*
*"Xalq qəzeti"*

# Baş prokurorun Yevlaxda qəbulu

**Mayın 18-də baş prokuror Kamran Əliyev Yevlax Rayon Prokurorluğunun inzibati binasında Yevlax, Bərdə, Tərtər, Goranboy, Xocalı rayon, Mingəçevir və Naftalan şəhər sakinlərini, həmçinin digər bölgələrdən olan vətəndaşları qəbul edib.**



Qəbulda iştirak edən 81 nəfər vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi ilə bağlı, mülki xarakterli mübahisələrlə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

*Qəzənfər QASIMOV,*
*"Xalq qəzeti"*

# Nazir Vilayət Eyvazov Salyanda vətəndaşların müraciətlərinə baxıb



**Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 17-18-də Salyan Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Rayon Polis Şöbəsinin inzibati binasında Hacıqabul, Kürdəmir, Salyan, Şirvan şəhər və rayonlarından qəbula gələn 153 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib. 19-u Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 72 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*"Xalq qəzeti"*

# Ermənistan silahlı qüvvələri döyüş PUA-ları tətbiq edib

**Mayın 18-i saat 07:15 radələrində Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən bir neçə mövqeyinə qarşı Ermənistan silahlı qüvvələri tərəfindən döyüş PUA-ları tətbiq edilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, əraziyə baxış keçirilərkən ermənilərin PUA-lar vasitəsilə atdığı kustar üsulla hazırlanmış əldəqayırma mərmilərin qalıqları aşkar olunub.

Azərbaycan Ordusunun bölmələri itki verməyib, cavab tədbirləri görülür.

Bildiririk ki, bölgədə yaranan gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Azərkosmos "Agro Dairy" şirkəti ilə əməkdaşlıq müqaviləsi imzalayıb




**Azərkosmos və Azərbaycanın kənd təsərrüfatının ən iri şirkəti olan "Agro Dairy" peyk təsvirlərinin kənd təsərrüfatı sahələrinin monitorinqində istifadəsinə dair əməkdaşlıq müqaviləsi imzalayıblar.**

Müqavilə "Caspian Agro" Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi çərçivəsində imzalanıb. Bu əməkdaşlıq sayəsində peyk təsvirlərindən istifadə etməklə ölkədə kənd təsərrüfatı ərazilərinin, əkinlərin inkişaf vəziyyətinin monitorinqi aparılacaq və əkin ərazilərinin elektron xəritəsinin hazırlanması layihələri həyata keçiriləcək.

Bitki örtüyü xəritəsinin hazırlanmasında il ərzində müxtəlif aylarda dövri peyk təsvirləri, o cümlədən "Azersky" peykinin arxiv bazasında toplanmış təsvirlərdən də istifadə olunacaq.

Peyk təsvirləri əsasında şumlanmış ərazilərin monitorinqi, deqradasiyaya uğramış torpaqların müəyyənləşdirilməsi nəzərdə tutulub. Eyni zamanda, məhsuldarlığın proqnozlaşdırılması, əkin sahələrində yayılmış xəstəliklərin inkişaf dinamikasının və bitkilərin vegetasiya dövrünün davamlı olaraq monitorinqi aparılacaq. Kənd təsərrüfatı sahəsində baş verən dəyişikliklər üzrə operativ məlumatın təmin olunması məqsədilə sözügedən peyk xidmətləri rəqəmsal platforma üzərindən təqdim olunacaq.

Azərkosmosun İdarə Heyətinin sədri Saməddin Əsədov bildirib ki, ölkəmizdə əkin ərazilərinin effektiv planlaşdırılmasında peyk təsvirləri əvəzsiz rol oynayır. "Agro Dairy" şirkəti ilə əməkdaşlığımız sayəsində peyk təsvirlərinin istifadəsi ilə səhvi iş həcmi dəfələrlə azalmış olacaq, ölkəmizdə kənd təsərrüfatında məhsuldarlığın daha dəqiq proqnozlaşdırılması və optimallaşdırılmasına töhfə verəcəyik.

*"Xalq qəzeti"*

# Kəmaləddin Heydərov Njupuo Yap Mariatu ilə görüşüb

**Azərbaycan fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun dəvəti ilə Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) Baş katibi xanım Njupuo Yap Mariatunun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**



Nazir Kəmaləddin Heydərov ölkəmizdə fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması məqsədilə görülən işlər, habelə Fövqəladə Hallar Nazirliyinin fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verib.

Nazir Azərbaycanın 1993-cü ildən üzvü olduğu Beynəlxalq Mülki Müdafiə Təşkilatı ilə əlaqələrinin yüksək səviyyədə olduğunu məmnunluqla xatırladaraq, münasibətlərin daha da genişlənməsinə yeni təkan verən 2018-ci ildə Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Beynəlxalq Mülki Müdafiə Təşkilatı arasında informasiya mübadiləsi Reqlamenti"ni qeyd edib. Əməkdaşlıq münasibətləri çərçivəsində BMMT tərəfindən Fövqəladə Hallar Nazirliyinin Akademiyasına xüsusi trenajor komplekslərinin, o cümlədən bir sıra təlim-məşq avadanlıqları və laborator cihazlarının verilməsinə görə xanım Njupuo Yap Mariatuya təşəkkür edib.

Azərbaycanın BMMT-nin dəyərli üzvü olduğunu bildirən Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi xanım Njupuo Yap Mariatu, 2013-cü ildə Qəbələ şəhərində keçirilmiş "Mülki müdafiə və əhalinin fəlakət riskinin qarşısının alınmasına hazırlanması" mövzusunda beynəlxalq konfransı xatırladıb. Xanım Njupuo Yap Mariatu BMMT-nın Baş Assambleyasının ötən ilin noyabr ayında keçirilmiş sessiyasında Azərbaycanın təşkilatın İcraiyyə Şurasına növbəti 4 il üçün yenidən üzv seçilməsinin əhəmiyyətini vurğulayıb.

*"Xalq qəzeti"*

# Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirlərinin görüşü

**Mayın 18-də Azərbaycan Respublikasının sədrliyi ilə Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirlərinin videokonfrans formatında növbəti görüşü keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, nazir Teymur Musayevin moderatorluğu ilə keçirilən videokonfrans Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyası ərəfəsində Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirlərinin qlobal səhiyyə problemləri və onların müvafiq həll yollarını müzakirə etmək məqsədilə təşkil olunub.

Öz çıxışında Azərbaycanın səhiyyə naziri qeyd edib ki, Ümumdünya Səhiyyə Assambleyasının sessiyası ərəfəsində Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirlərinin görüşünün təşkil olması ənənə halını alıb. "Bu, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ictimai səhiyyədə beynəlxalq narahatlıq yaradan COVID-19-la bağlı fövqəladə vəziyyətin yekunlaşdığını elan etdiyindən sonra Ümumdünya Səhiyyə Assambleyasının ilk sessiyası olacaq", – deyə nazir vurğulayıb.

Teymur Musayev 2020-ci ilin əvvəlində dünya ölkələrinin COVID-19 pandemiyasına məruz qaldığı dövrdə Azərbaycanın Hərəkata sədrliyinə məsuliyyətlə yanaşmasını diqqətə çatdırıb. O, Azərbaycanın pandemiya ilə mübarizədə qlobal səylərin səfərbər edilməsi üçün bir sıra təşəbbüslər irəli sürdüyünü deyib: "Azərbaycan 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürdü. Zirvə toplantısında məlumat bazası hazırlamaq üçün Qoşulmama Hərəkatının İşçi Qrupunun yaradılması qərara alındı. ÜST pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin ehtiyaclarını müəyyən etmək üçün bu məlumat bazasına istinad edib.

Öz çıxışlarında Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirləri qeyd ediblər ki, Azərbaycanın sədrliyi dövründə təşkilatın beynəlxalq arenada rolu və nüfuzu əsaslı şəkildə artıb, bu mühüm platforma çərçivəsində ölkələr arasında çoxtərəfli əməkdaşlıq yeni səviyyəyə çatdırılıb. Onlar, həmçinin qlobal pandemiya böhranından sonrakı dövrdə infrastrukturun və xidmətlərin təkmilləşdirilməsinin vacibliyini vurğulayıblar.

*"Xalq qəzeti"*

# Kissincerdən çağırış: "Ukraynanı NATO-ya qəbul edin"



**Dünya siyasətinin nəhəng simalarından olan ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincer bildirib ki, Kiyevin Rusiya ilə ərazi mübahisələri üzrə müstəqil qərar qəbul etmək imkanlarını məhdudlaşdırmaq üçün Ukraynanın Şimali Atlantika Alyansına qoşulmasına icazə verilməlidir.**

Məşhur siyasətçi bu barədə "The Economist" jurnalına müsahibəsində danışıb. Onun fikrincə, Qərb Ukraynaya o qədər çox silah göndərib ki, o, Avropanın "ən çox silahlanmış, lakin strateji baxımdan ən təcrübəsiz rəhbərliyi olan ölkəsinə" çevriləcək.

Sabiq dövlət katibi əmindir ki, "xüsusi əməliyyat"ın nəticəsindən asılı olmayaraq, Rusiya Federasiyası Krım üzərində nəzarəti saxlayacaq, bu isə Kiyevin işinə yaramayacaq.

"Ukraynanın NATO-ya daxil olması ölkəni qorumağa və eyni zamanda onu məhdudlaşdırmağa imkan verəcək", - Kissincer deyib. Onun fikrincə, alyansda Kiyev milli səviyyədə ərazi iddiaları ilə bağlı müstəqil qərar qəbul edə bilməyəcək: "Bu, Rusiya və Ukrayna arasında qarşıdurmanın növbəti raundunun yaranmasının qarşısını alacaq".

Sonda bildirək ki, bu il mayın 27-də H.Kissincerin 100 yaşı tamam olur. O, Nobel sülh mükafatı laureatıdır. O, Misirin İsraili tanımasını təmin edən siyasətçi kimi tarixə düşüb. Kissincer 2014-cü ilin oktyabrında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin xüsusi medalı ilə də təltif olunub.

*"Xalq qəzeti"*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 157**

**Bakı şəhəri, 16 may 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2020, № 1, maddə 62; 2022, № 5, maddələr 550, 567; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 2 fevral tarixli 30 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.4-1-ci və 1.4-2-ci bəndlər əlavə edilsin:

"1.4-1. Bu Qaydanın məqsədləri üçün vergi inzibatçılığı dedikdə vergilərin dövlət büdcəsinə tam və vaxtında yığılmasını təmin etmək məqsədilə vergi orqanları tərəfindən uçot və hesabat məlumatlarının yoxlanılması, vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusuna görə məsuliyyətə cəlbetmə, vergilər üzrə borcların alınması və artıq ödənilmiş vergilərin qaytarılması ilə bağlı həyata keçirilən tədbirlər başa düşülür.

1.4-2. Vergi inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalar (azalmalar) beynəlxalq təcrübə nəzərə alınmaqla, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən hər il protokolla təsdiq edilərək proqnozlaşdırılır.".

2. 1.5-ci bəndə "anlayışlar" sözündən əvvəl "digər" sözü əlavə edilsin.

3. 4.1-ci bəndə "təlimat məktubuna" sözlərindən sonra "və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 18.3-cü maddəsinə" sözləri əlavə edilsin.

4. 4.1.2-ci yarımbənd və 4.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.1.2. inflyasiya və iqtisadi artımın təsiri nəticəsində forma-laşmış vergi bazasına tətbiq edilən vergi dərəcələri.";

"4.5. Dövlət büdcəsi gəlirlərinin proqnozlaşdırılmasında istifadə olunan hesablama modellərinin strukturu aşağıdakı kimidir:

4.5.1. fiziki şəxslərin gəlir vergisi üzrə – f (ödəyicilərin sayı, əməkhaqqı fondu, orta aylıq əməkhaqqı, qeyri-neft ÜDM, vergi dərəcəsi, qeyri-neft ÜDM-nin nominal artım (azalma) tempi, hesab-lanmış vergi, faktiki daxilolma, Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar əlavə daxilolmalar);

4.5.2. hüquqi şəxslərin mənfəət vergisi üzrə – f (qeyri-neft ÜDM, neft və qaz sahəsi üzrə hasilat, vergi dərəcəsi, qeyri-neft ÜDM-nin nominal artım (azalma) tempi, hesablanmış vergi, faktiki daxilolma, vergi inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalar, Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar əlavə daxilolmalar);

4.5.3. əlavə dəyər vergisi (bundan sonra – ƏDV) üzrə – f (qeyri-neft ÜDM, idxalın, o cümlədən ƏDV-yə cəlb olunan idxalın həcmi, ÜDM-nin nominal artım (azalma) tempi, hesablanmış vergi, faktiki daxilolma, vergi inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalar, Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar əlavə daxilolmalar);

4.5.4. aksiz vergisi üzrə – f (istehsalın həcmi, idxalın həcmi, vergi dərəcəsi, qeyri-neft ÜDM, qeyri-neft ÜDM-nin artım (azalma) tempi, hesablanmış vergi, Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar əlavə daxilolmalar);

4.5.5. sadələşdirilmiş vergi üzrə – f (sektorlar üzrə ÜDM-nin nominal artım (azalma) tempi, vergi dərəcəsi, mənbələr üzrə faktiki daxilolmalar, nağd qaydada bank hesablarından çıxarılan vəsaitlər);

4.5.6. mədən vergisi üzrə – f (hasilat, vergi dərəcəsi, qeyri-neft ÜDM, tikinti sektoru üzrə qeyri-neft ÜDM-nin artım (azalma) tempi, hesablanmış vergi, faktiki daxilolma, Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar əlavə daxilolmalar);

4.5.7. əmlak vergisi üzrə – f (hüquqi şəxslərin və fərdi sahibkarların mülkiyyətində və istifadəsində olan əmlakın ortaillik qalıq dəyəri, əsas kapitala yönəldilən investisiya, vergi dərəcəsi, Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar əlavə daxilolmalar);

4.5.8. torpaq vergisi üzrə – f (torpaq sahəsi, vergi dərəcəsi, kadastr qiymətləri, müxtəlif təyinatlar üzrə torpaq vergisinə cəlb olunan torpaq sahəsi);

4.5.9. yol vergisi üzrə – f (avtonəqliyyat vasitələrinin növü və sayı, vergi dərəcəsi, avtomobil benzininin, dizel yanacağının və maye qazın həcmi);

4.5.10. gömrük rüsumu üzrə – f (idxalın həcmi, idxala cəlb olunmayan həcm, gömrük rüsumunun dərəcəsi gömrük rüsumunun tarif dərəcəsinə görə növü);

4.5.11. vergi olmayan ödənişlər üzrə – f (qeyri-neft ÜDM, qiyməti tənzimlənən məhsullar üzrə ixracın həcmi, məhsul növü üzrə ölkədaxili topdansatış qiyməti, məhsul növü üzrə ixrac xərcləri, məhsul növü üzrə kontrakt (satış) qiyməti, daxilolmalar, qanunvericilikdə nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalar).".

5. 4.9-cu bənd ləğv edilsin.

6. 4.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

"4.10. Vergi dərəcələrindən istifadə etməklə, dövlət büdcəsinin gəlir mənbələri aşağıdakı kimi proqnozlaşdırılır:

4.10.1. növbəti il üçün fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların proqnozu bu yarımbəndin 1-ci və 2-ci abzaslarına uyğun qaydada hesablanmış məbləğlərin ədədi ortası ilə 3 nömrəli abzasına uyğun hesablanmış məbləğin cəmi kimi müəyyən edilir və aşağıdakı üsullarla hesablanır:

1. muzdlu işə aid olan fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların proqnozu ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi proqnozlarına əsasən əvvəlki il üzrə faktiki əməkhaqqı fondundan, cari il üzrə gözlənilən və növbəti il üzrə proqnozlaşdırılan orta aylıq əməkhaqlarının artım (azalma) templərindən istifadə etməklə, aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$F_{proq}=\text{Ə}F_{\text{əv}} * \text{Ə}H_{cari} * \text{Ə}H_{proq} * V_{orta}+VM_{\text{dəy}}$$

burada:

$F_{proq}$ - fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların proqnozu;

$\text{Ə}F_{\text{əv}}$ - əvvəlki ildə faktiki əməkhaqqı fondu;

$\text{Ə}H_{cari}$- cari il üzrə gözlənilən orta aylıq əməkhaqqının nominal artım (azalma) tempi;

$\text{Ə}H_{proq}$- proqnozlaşdırılan ildə orta aylıq əməkhaqqının nominal artım (azalma) tempi;

$V_{orta}$- son 2 il üzrə əməkhaqqı fondundan hesablanmış gəlir vergisi üzrə orta vergi dərəcəsi;

$VM_{\text{dəy}}$ - proqnozlaşdırılan ildə qanunvericilikdə nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalardır;

2. muzdlu işə aid olan fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların proqnozu proqnozlaşdırılan il üzrə qeyri-neft ÜDM-in həcmindən, son 2 il üzrə faktiki daxilolmaların və cari il üzrə proqnozlaşdırılan daxilolmaların qeyri-neft ÜDM-də xüsusi çəkilərindən istifadə etməklə, aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$F_{proq}=\text{ÜDM}_{proq} * X_{orta} +VM_{\text{dəy}}$$

burada:

$F_{proq}$ - fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların proqnozu;

$\text{ÜDM}_{proq}$ - proqnozlaşdırılan ildə qeyri-neft ÜDM;

$X_{orta}$ - son 2 il üzrə faktiki daxilolmaların və cari il üzrə proqnozlaşdırılan daxilolmaların qeyri-neft ÜDM-də xüsusi çəkilərinin ədədi ortası;

$VM_{\text{dəy}}$- proqnozlaşdırılan ildə qanunvericilikdə nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalardır;

3. muzdlu işə aid olmayan fiziki şəxslərin sahibkarlıq fəaliyyətindən gəlir vergisi üzrə daxilolmaların proqnozu aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$G_{proq}=G_{\text{əv}}*\text{ÜDM}_{cari}*\text{ÜDM}_{proq}+VM_{\text{dəy}}$$

burada:

$G_{proq}$ - fiziki şəxslərin sahibkarlıq fəaliyyətindən gəlir vergisi üzrə daxilolmaların proqnozu;

$G_{\text{əv}}$ - əvvəlki il üzrə muzdlu işə aid olmayan fiziki şəxslərin sahibkarlıq fəaliyyətindən hesablanmış (maliyyə sanksiyaları və faizlər daxil olmaqla) məbləğ;

$\text{ÜDM}_{cari}$ - cari il üzrə qeyri-neft ÜDM-in gözlənilən nominal artım (azalma) tempi;

$\text{ÜDM}_{proq}$ - proqnozlaşdırılan ildə qeyri-neft ÜDM-in nominal artım (azalma) tempi;

$VM_{\text{dəy}}$ - proqnozlaşdırılan ildə qanunvericilikdə nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalardır;

4.10.2. hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmaların proqnozu aşağıdakı üsullarla müəyyən edilir:

1. qeyri-neft sektoru üzrə hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmaların proqnozu əvvəlki il üzrə hesablanmış mənfəət vergisi (maliyyə sanksiyaları və faizlər daxil olmaqla) məbləğindən, ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi proqnozlarına uyğun olaraq cari il üzrə gözlənilən və növbəti il üzrə proqnozlaşdırılan qeyri-neft ÜDM-in nominal artım (azalma) tempindən istifadə etməklə, bu abzasa və bu yarımbəndin 2-ci abzasına uyğun qaydada hesablanmış məbləğlərin ədədi ortası ilə müəyyən edilir və aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$M_{proq}=MV_{\text{əv}}*\text{ÜDM}_{cari}*\text{ÜDM}_{proq}+V_i+VM_{\text{dəy}}$$

burada:

$M_{proq}$ - hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmaların proqnozu;

$MV_{\text{əv}}$ - əvvəlki ildə mənfəət vergisi üzrə hesablanmış məbləğ;

$\text{ÜDM}_{cari}$ - cari il üzrə qeyri-neft ÜDM-in gözlənilən nominal artım (azalma) tempi;

$\text{ÜDM}_{proq}$ - proqnozlaşdırılan ildə qeyri-neft ÜDM-in nominal artım (azalma) tempi;

$V_i$ - vergi inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalar;

$VM_{\text{dəy}}$ - proqnozlaşdırılan ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalardır;

2. ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi proqnozlarına uyğun olaraq proqnozlaşdırılan il üzrə qeyri-neft ÜDM-in həcmindən, son 2 il üzrə faktiki daxilolmaların və cari il üzrə proqnozlaşdırılan daxilolmaların qeyri-neft ÜDM-də xüsusi çəkilərindən istifadə etməklə aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$M_{proq}=\text{ÜDM}_{proq} * X_{orta}+V_i+VM_{\text{dəy}}$$

burada:

$M_{proq}$ - hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmaların proqnozu;

$\text{ÜDM}_{proq}$ - proqnozlaşdırılan ildə qeyri-neft ÜDM-in həcmi;

$X_{orta}$ - son 2 il üzrə faktiki daxilolmaların və cari il üzrə proqnozlaşdırılan daxilolmaların qeyri-neft ÜDM-də xüsusi çəkilərinin ədədi ortası;

$V_i$ - vergi inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalar;

$VM_{\text{dəy}}$ - proqnozlaşdırılan ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalardır;

3. neft sektoru üzrə mənfəət vergisindən daxilolmalar aşağıdakı qaydada proqnozlaşdırılır:

3.1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti üzrə mənfəət vergisindən daxilolmalar ölkənin əsas makroiqtisadi və yanacaq-enerji balansının proqnoz göstəricilərinə və həmin şirkət tərəfindən təqdim edilən büdcə məlumatlarına əsasən xam neft və neft məhsullarının, təbii qazın, kimya məhsullarının ixracı və daxili bazarda satışı, şirkətin istehsal və maliyyə göstəricilərinin, gəlirlərinin, xərclərinin və mənfəət vergisinə təsir edən digər zəruri göstəricilərin təhlili əsasında bu yarımbənd ilə müəyyən edilən üsullarla proqnozlaşdırılır;

3.2. Hasilatın Pay Bölgüsü sazişləri üzrə fəaliyyət göstərən podratçı tərəflərin mənfəət vergisindən daxilolmaların proqnozu ölkənin əsas makroiqtisadi və yanacaq-enerji balansının proqnoz göstəricilərinə və podratçılar tərəfindən təqdim edilən illik iş proqramına və büdcə məlumatlarına əsasən növbəti il üçün karbohidrogenlərin hasilat və satış həcmləri, satışdan əldə edilən gəlirlər, xərclər, xam neftin 1 (bir) barelinin dünya bazarında nəzərdə tutulan qiyməti, vergi bəyannaməsi məlumatları və digər zəruri göstəricilərdən istifadə etməklə, həmin sazişlərdə nəzərdə tutulmuş hesablamalar əsasında müəyyən edilir;

3.3. Hasilatın Pay Bölgüsü sazişləri üzrə podratçıların mənfəət vergisi üzrə daxilolmaların proqnozu zamanı aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$M_{proq}=(K_{-h}*K_{-q}*P_d-X_{HPB})*V_{\text{dər}}$$

burada:

$M_{proq}$- Hasilatın Pay Bölgüsü sazişləri üzrə mənfəət vergisindən daxilolmaların proqnozu;

$K_h$- hasil olunan karbohidrogenlərin həcmi;

$K_q$- karbohidrogenlərin nəzərdə tutulan proqnoz qiyməti;

$P_d$ - Hasilatın Pay Bölgüsü sazişləri üzrə fəaliyyət göstərən podratçıların payının ümumi hasilata nisbəti;

$X_{HPB}$ - Hasilatın Pay Bölgüsü sazişlərinə uyğun çıxılmalar;

$V_{\text{dər}}$ - Hasilatın Pay Bölgüsü sazişləri üzrə nəzərdə tutulan vergi dərəcəsidir;

$$M_{proq}=(G_k+G_d-G_x+G_{pg}-G_{px}-Z_m)*V_{\text{dər}}$$

burada:

$G_k$ - proqnoz ilində karbohidrogenlərin təqdim edilməsindən əldə edilən gəlirlər;

$G_d$ - digər gəlirlər;

$G_x$ - ümumi gəlirdən çıxılan xərclər;

$G_{pg}$ - sazişdə olan iştirak payının satılması, yaxud daimi hüquq və öhdəliklərin verilməsindən əldə olunan xalis gəlir;

$G_{px}$ - sazişdə olan iştirak payının satılması, yaxud daimi hüquq və öhdəliklərin verilməsindən əldə olunan zərər;

$Z_m$ - keçmiş illərin çıxılası zərəri;

$V_{\text{dər}}$ - Hasilatın Pay Bölgüsü sazişləri üzrə nəzərdə tutulan vergi dərəcəsidir;

4.10.3. Azərbaycan Respublikasının ərazisində istehsal edilən mallara, yerinə yetirilən işlərə və göstərilən xidmətlərə görə ƏDV üzrə daxilolmalar aşağıdakı üsullarla proqnozlaşdırılır:

1. qeyri-neft sektorundan ƏDV üzrə daxilolmaların proqnozu əvvəlki ildə hesablanmış ƏDV (maliyyə sanksiyaları və faizlər daxil olmaqla) məbləğindən, ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi proqnozlarına uyğun olaraq cari il üzrə gözlənilən və növbəti il üzrə proqnozlaşdırılan ÜDM-in nominal artım (azalma) tempindən istifadə etməklə, bu abzasa və bu yarımbəndin 2-ci abzasına uyğun qaydada hesablanmış məbləğlərin ədədi ortası ilə müəyyən edilir və aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$\text{ƏDV}_{proq}=\text{ƏDV}_{\text{əv}}*\text{ÜDM}_{cari}\hat{} *\text{ÜDM}_{proq}+V_i+VM_{\text{dəy}}$$

burada:

$\text{ƏDV}_{proq}$ - ƏDV üzrə daxilolmaların proqnoz məbləği;

$\text{ƏDV}_{\text{əv}}$ - əvvəlki ildə ƏDV üzrə hesablanmış məbləğ;

$\text{ÜDM}_{cari}$ - cari il üzrə qeyri-neft ÜDM-in gözlənilən nominal artım (azalma) tempi;

$\text{ÜDM}_{proq}$ - proqnozlaşdırılan ildə qeyri-neft ÜDM-in nominal artım (azalma) tempi;

$V_i$ - vergi inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalar;

$VM_{\text{dəy}}$ - proqnozlaşdırılan ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalardır;

2. ƏDV üzrə daxilolmaların proqnoz məbləği ölkənin sosial-iqtisadi inkişafının ortamüddətli proqnozlarına uyğun olaraq proqnozlaşdırılan il üzrə qeyri-neft ÜDM-in həcminə, son 2 il üzrə faktiki daxilolmaların və cari il üzrə proqnozlaşdırılan daxilolmaların qeyri-neft ÜDM-də xüsusi çəkilərinə əsaslanmaqla, aşağıdakı hesablamalar əsasında müəyyən edilir:

$$\text{ƏDV}_{proq}=\text{ÜDM}_{proq} * X_{orta}+V_i+VM_{\text{dəy}}$$

burada:

$\text{ƏDV}_{proq}$ - ƏDV üzrə daxilolmaların proqnoz məbləği;

$\text{ÜDM}_{proq}$ - proqnozlaşdırılan dövr üçün qeyri-neft ÜDM-in həcmi;

$X_{orta}$ - son 2 il üzrə faktiki daxilolmaların və cari il üzrə proqnozlaşdırılan daxilolmaların qeyri-neft ÜDM-də xüsusi çəkilərinin ədədi ortası;

$V_i$ - vergi inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalar;

$VM_{\text{dəy}}$ - proqnozlaşdırılan ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalardır;

4.10.4. Azərbaycan Respublikasının ərazisinə idxal edilən mallar üzrə ƏDV-nin proqnozu ortamüddətli sosial-iqtisadi inkişaf proqnozlarına uyğun olaraq idxalın proqnozlaşdırılan həcmindən, qanunvericiliyə əsasən vergiyə cəlb olunan malların cəmi idxalda xüsusi çəkisi göstəricilərindən istifadə etməklə, aşağıdakı hesab-lamalar əsasında müəyyən olunur:

$$\text{ƏDV}_{idxal}=(\text{İ}_{\text{həcm}} * \text{İ}_{\text{cəlb}}+R_{idxal}+A_{idxal}*V_{\text{dər}}+V_i$$

burada:

$\text{ƏDV}_{idxal}$ - idxal olunan mallar üzrə ƏDV-dən daxilolmaların proqnoz məbləği;

$\text{İ}_{\text{həcm}}$ - proqnozlaşdırılan il üçün idxalın həcmi;

$\text{İ}_{\text{cəlb}}$ - son 2 il üzrə faktiki və cari il üzrə proqnozlaşdırılan ƏDV-yə cəlb olunan idxalın cəmi idxalda xüsusi çəkilərinin ədədi ortası;

$R_{idxal}$ - proqnozlaşdırılan il üçün idxal olunan mallara gömrük rüsumu üzrə daxilolmaların proqnoz məbləği;

$A_{idxal}$ - proqnozlaşdırılan il üçün idxal olunan mallar üzrə aksiz vergisindən daxilolmaların proqnoz məbləği;

$V_{\text{dər}}$ - ƏDV-nin dərəcəsi;

$V_i$ - vergi inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalar;

4.10.5. qeyri-neft sektoru üzrə Azərbaycan Respublikasında istehsal edilən mallardan tutulan aksiz vergisi üzrə daxilolmaların proqnozu dövlət büdcəsinin gəlirlərinin təsnifat bölgüsünə uyğun olaraq bu yarımbəndin 1-ci və 2-ci abzaslarına uyğun qaydada hesablanmış məbləğlərin cəmi ilə müəyyən edilir və aşağıdakı üsullarla hesablanır:

1. pivə, spirtli içkilərin bütün növləri və tütün məmulatları üzrə aksiz vergisi proqnozlaşdırılan il üçün hər bir məhsul növü üzrə istehsalın həcmindən və aksiz vergisinin dərəcəsindən istifadə etməklə, hesablamalar əsasında müəyyən olunur:

$$A_{proq}=\sum A^i_{\text{həcm}}*V^i_{\text{dər}}+VM_{\text{dəy}}$$

burada:

$A_{proq}$ - proqnozlaşdırılan il üçün pivə, spirtli içkilərin bütün növləri və tütün məmulatları üzrə aksiz vergisindən daxilolmaların proqnoz məbləği;

i - aksizli malların adı;

$A^i_{\text{həcm}}$ – hər bir məhsul növü üzrə proqnozlaşdırılan il üçün istehsalın həcmi;

$V^i_{\text{dər}}$- hər bir məhsul növü üzrə aksiz vergisinin dərəcəsi ("Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aksiz dərəcəsindən tutulmalar çıxılmaqla);

$VM_{\text{dəy}}$ - proqnozlaşdırılan ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalardır.

Araq, konyak, şampan, şərab məhsulları üzrə aksiz vergisinin proqnoz məbləği müəyyən edilərkən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən müəyyən olunmuş formada vergi ödəyiciləri üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunan son 5 il üzrə xam spirtdən xammal kimi istifadə olunan aksizli məhsulların istehsalında xam spirtə görə ödənilmiş və xam spirtə görə əvəzləşdirilmiş aksizin cəmi hesablamada xüsusi çəkilərinin ədədi ortası qədər azaldılması nəzərə alınır;

2. içməli spirt və sair məhsullar üzrə aksiz vergisi üçün hesablanmış (maliyyə sanksiyaları və faizlər daxil olmaqla) məbləğdən, ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi proqnozlarına uyğun olaraq cari il üzrə gözlənilən və növbəti il üzrə proqnozlaşdırılan qeyri-neft ÜDM-in nominal artım (azalma) tempindən istifadə etməklə, daxilolmaların proqnozu aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$A_proq=\sum A^i_{\text{əv}}*\text{ÜDM}_{cari}*\text{ÜDM}_{proq}+VM_{\text{dəy}}$$

burada:

$A_{proq}$ - proqnozlaşdırılan il üçün qeyri-neft sektoru üzrə aksiz vergisindən daxilolmaların proqnoz məbləği;

$A^i_{\text{əv}}$ - əvvəlki ildə hər bir məhsul növü üzrə hesablanmış aksiz məbləği;

i - aksizli malların adı;

$\text{ÜDM}_{cari}$ - cari il üzrə qeyri-neft ÜDM-in gözlənilən nominal artım (azalma) tempi;

$\text{ÜDM}_{proq}$ - proqnozlaşdırılan ildə qeyri-neft ÜDM-in nominal artım (azalma) tempi;

$VM_{\text{dəy}}$ - proqnozlaşdırılan ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalardır;

3. neft sektoru üzrə aksiz vergisindən daxilolmalar növbəti il üzrə yanacaq-enerji balansının proqnoz göstəricilərindən və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən təqdim edilən məlumatlardan istifadə etməklə, aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$A_{proq}=\sum S^i_{\text{həcm}} *A^i_{\text{məb}}$$

burada:

$A_{proq}$ - proqnozlaşdırılan il üçün neft sektoru üzrə aksiz vergisindən daxilolmaların proqnoz məbləği;

i - aksiz vergisinə cəlb olunan məhsulların adı;

$S^i_{\text{həcm}}$ - ölkə daxilində istehsal olunan və satılan neft məhsullarının həcmi;

$A^i_{\text{məb}}$- ölkə daxilində istehsal olunan və satılan neft məhsullarının şirkətdaxili tarifinin aksiz dərəcəsinin hasilidir;

4.10.6. idxal olunan mallar üzrə aksiz vergisindən daxilolmalar gömrük yük bəyannamələrinin məlumatlarına əsasən aksizli malların hər növü üzrə idxalın həcminin dəyişməsi təhlil olunmaqla və proqnozlaşdırılan ildə manatın ABŞ dollarına ortaillik proqnozlaşdırılan məzənnəsi nəzərə alınmaqla, aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$A_{idxal}=\text{İ}_{\text{həcm}}*\text{XÇ}_{\text{göz}}$$

burada:

$A_{idxal}$ - idxal olunan mallar üzrə aksiz vergisindən daxilolmaların proqnoz məbləği;

$\text{İ}_{\text{həcm}}$ - ölkənin ortamüddətli sosial-iqtisadi inkişaf proqnoz məlumatları üzrə idxalın həcmi;

$\text{XÇ}_{\text{göz}}$ - cari ildə aksiz vergisi üzrə daxilolmaların cəmi idxalın həcmində gözlənilən xüsusi çəkisidir;

4.10.7. sadələşdirilmiş vergi üzrə daxilolmaların proqnoz məbləği dövlət büdcəsinin gəlirlərinin təsnifat bölgüsünə uyğun olaraq aşağıdakı üsullarla hesablanır:

1. avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün sadələşdirilmiş vergi üzrə daxilolmaların proqnoz məbləği aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$S_{proq} = S_{\text{əv}}*\text{ÜDM}^{\text{nəql}}_{cari}*\text{ÜDM}^{\text{nəql}}_{proq}$$

burada:

$S_{proq}$ - proqnozlaşdırılan il üçün sadələşdirilmiş vergi üzrə daxilolmaların proqnoz məbləği;

$S_{\text{əv}}$ - əvvəlki ildə faktiki daxilolmalar;

$\text{ÜDM}^{\text{nəql}}_{cari}$ - cari ildə nəqliyyat sektoru üzrə ÜDM-in gözlənilən nominal artım (azalma) tempi;

$\text{ÜDM}^{\text{nəql}}_{proq}$ - proqnozlaşdırılan ildə nəqliyyat sektoru üzrə ÜDM-in nominal artım (azalma) tempi;

2. mülkiyyətindəki yaşayış, qeyri-yaşayış və torpaq sahələrinin təqdim edilməsini həyata keçirən fiziki şəxslər üçün sadələşdirilmiş vergi üzrə daxilolmaların proqnoz məbləği aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$S_{proq} = S_{\text{əv}}*\text{ÜDM}^{tikinti}_{cari}*\text{ÜDM}^{tikinti}_{proq}$$

burada:

$S_{proq}$ - proqnozlaşdırılan ilə sadələşdirilmiş vergi üzrə daxilolmaların proqnoz məbləği;

$S_{\text{əv}}$- əvvəlki ildə faktiki daxilolmalar;

$\text{ÜDM}^{tikinti}_{cari}$ - cari ildə tikinti sektoru üzrə ÜDM-in gözlənilən nominal artım (azalma) tempi;

$\text{ÜDM}^{tikinti}_{proq}$ - proqnozlaşdırılan ildə tikinti sektoru üzrə ÜDM-in nominal artım (azalma) tempi;

3. idman mərc oyunlarının operatoru və satıcıları olan şəxslər tərəfindən ödənilən sadələşdirilmiş verginin proqnoz məbləği son 2 ildə idman mərc oyunlarının biletlərinin satışından əldə edilmiş vəsaitin və operator tərəfindən idman mərc oyunlarının satıcısına verdiyi haqların (mükafatların) orta məbləği əsasında hesablanır və aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$S_{proq}=S^1_{orta}*V^1_{\text{dər}}+S^2_{orta}*V^2_{\text{dər}}$$

burada:

$S_{proq}$ - proqnozlaşdırılan il üçün sadələşdirilmiş vergi üzrə daxilolmaların proqnoz məbləği;

$S^1_{orta}$ - son 2 il üzrə idman mərc oyunları biletlərinin satışından əldə edilmiş vəsaitin orta məbləği;

$V1_{\text{dər}}$- idman mərc oyunlarının operatoru tərəfindən idman mərc oyunları biletlərinin satışından əldə edilmiş vəsaitdən tutulan sadələşdirilmiş verginin dərəcəsi;

$S^2_{orta}$ - son 2 il üzrə operatorun idman mərc oyunlarının satıcısına verdiyi haqların (mükafatların) orta məbləği;

$V^2_{\text{dər}}$- idman mərc oyunlarının operatorunun idman mərc oyunlarının satıcısına verdiyi haqdan (mükafatdan) tutulan sadələşdirilmiş verginin dərəcəsidir;

4. lotereya təşkilatçıları və lotereya biletlərinin satıcıları tərəfindən ödənilən sadələşdirilmiş verginin proqnoz məbləği son 2 ildə lotereya biletlərinin satışından əldə edilmiş vəsaitlərin və lotereya təşkilatçısının lotereya biletlərinin satıcısına verdiyi haqların (mükafatların) orta məbləği əsasında hesablanır və aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

*(ardı 12-ci səhifədə)*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**(əvvəli 11-ci səhifədə)**

$$S_{proq}=L^{1}_{orta}*V^{1}_{\text{dər}}+L^{2}_{orta}*V^{2}_{\text{dər}}$$

burada:

$S_{proq}$ - proqnozlaşdırılan il üçün sadələşdirilmiş vergi üzrə daxilolmaların proqnoz məbləği;

$L^{1}_{orta}$ - son 2 il üzrə lotereya təşkilatçısı tərəfindən lotereya biletlərinin satışından əldə edilmiş vəsaitin orta məbləği;

$V^{1}_{\text{dər}}$ - lotereya təşkilatçısı tərəfindən lotereya biletlərinin satışından əldə edilmiş vəsaitdən tutulan sadələşdirilmiş verginin dərəcəsi;

$L^{2}_{orta}$ - son 2 il üzrə lotereya təşkilatçısının lotereya biletlərinin satıcısına verdiyi haqların (mükafatların) orta məbləği;

$V^{2}_{\text{dər}}$ - lotereya təşkilatçısının lotereya biletlərinin satıcısına verdiyi haqdan (mükafatdan) tutulan sadələşdirilmiş verginin dərəcəsi;

5. hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə tutulan sadələşdirilmiş vergi üzrə daxilolmaların proqnozu aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$S_{proq}=V_{baza}*V_{\text{dər}}$$

burada:

$S_{proq}$ - proqnozlaşdırılan il üçün sadələşdirilmiş vergi üzrə daxilolmaların proqnoz məbləği;

$V_{baza}$ - sahibkarlar tərəfindən proqnozlaşdırılan ildə bank hesablarından nağd qaydada çıxarılması ehtimal olunan pul vəsaitinin ümumi məbləği;

$V_{\text{dər}}$ - sadələşdirilmiş verginin dərəcəsidir;

6. digər hüquqi və fiziki şəxslər tərəfindən ödənilən sadələşdirilmiş verginin məbləği cari il və proqnozlaşdırılan il üzrə qeyri-neft ÜDM-in nominal artım (azalma) tempindən istifadə etməklə, aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$S_{proq}= S_{\text{əv}}*\text{ÜDM}_{cari}*\text{ÜDM}_{proq}$$

burada:

$S_{proq}$ - proqnozlaşdırılan il üçün sadələşdirilmiş vergi üzrə daxilolmaların proqnoz məbləği;

$S_{\text{əv}}$ - əvvəlki ildə faktiki daxilolmalar;

$\text{ÜDM}_{cari}$ - cari il üzrə qeyri-neft ÜDM-in gözlənilən nominal artım (azalma) tempi;

$\text{ÜDM}_{proq}$ - proqnozlaşdırılan ildə qeyri-neft ÜDM-in nominal artım (azalma) tempidir;

4.10.8. mədən vergisi üzrə daxilolmaların proqnozu Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı qazıntılardan istifadə edənlər üçün müəyyən olunmuş vergi dərəcəsinə uyğun olaraq hesablanır;

1. mədən vergisi üzrə daxilolmaların proqnozlaşdırılması üçün aşağıdakı məlumatlardan istifadə edilir:

1.1. təbii sərvətlərin (neft, qaz və digərləri) çıxarılmasının (hasilatının) natura ifadəsində proqnozlaşdırılan həcmi (müəssisələr (yataqlar), rayon (şəhər) üzrə proqnoz dövrü üçün təqdim olunan);

1.2. neft, qaz və digər faydalı qazıntılardan dolayı vergilər, daxili tələbat və onların satış (göndərilmə) məntəqələrinə qədər nəql edilməsinə faktiki xərclərin məbləğləri nəzərə alınmadan orta satış qiyməti;

1.3. neftin və qazın topdansatış qiyməti;

1.4. mədən vergisinin dərəcələri;

1.5. geri vurulan neftin və qazın həcmi;

1.6. mədən vergisinə cəlb olunan dövriyyə;

2. qeyri-neft sektoru üzrə mədən vergisindən daxilolmaların proqnozu əvvəlki ildə mədən vergisi üzrə hesablanmış (maliyyə sanksiyaları və faizlər daxil olmaqla) məbləğdən, ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi proqnozlarına uyğun olaraq cari il üzrə gözlənilən və növbəti il üzrə proqnozlaşdırılan tikinti sektoru üzrə qeyri-neft ÜDM-in nominal artım (azalma) tempindən, qeyri-neft ÜDM-in həcmindən istifadə etməklə, bu abzasa və bu yarımbəndin 3-cü abzasına uyğun qaydada hesablanmış məbləğlərin ədədi ortası ilə müəyyən edilir və aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$M_{proq}=M_{\text{əv}}*\text{ÜDM}^{tikinti}_{cari}*\text{ÜDM}^{tikinti}_{proq}+VM_{\text{dəy}}$$

burada:

$M_{proq}$ - mədən vergisindən daxilolmaların proqnoz məbləği;

$M_{\text{əv}}$ - əvvəlki ildə mədən vergisi üzrə hesablanmış məbləğ;

$\text{ÜDM}^{tikinti}_{cari}$ - cari ildə tikinti sektoru üzrə ÜDM-in gözlənilən nominal artım (azalma) tempi;

$\text{ÜDM}^{tikinti}_{proq}$ - proqnozlaşdırılan ildə tikinti sektoru üzrə ÜDM-in nominal artım (azalma) tempi;

$VM_{\text{dəy}}$ - proqnozlaşdırılan ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalardır;

3. qeyri-neft sektoru üzrə mədən vergisindən daxilolmaların proqnozu ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi proqnozlarına uyğun olaraq, proqnozlaşdırılan il üzrə qeyri-neft ÜDM-in həcmindən, son 2 il üzrə faktiki daxilolmaların və cari il üzrə proqnozlaşdırılan daxilolmaların qeyri-neft ÜDM-də xüsusi çəkilərindən istifadə etməklə, aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$M_{proq}=\text{ÜDM}_{proq}*X_{orta}+VM_{\text{dəy}}$$

burada:

$M_{proq}$ - mədən vergisindən daxilolmaların proqnoz məbləği;

$\text{ÜDM}_{proq}$ - proqnozlaşdırılan ildə qeyri-neft ÜDM-in həcmi;

$X_{orta}$ - son 2 il üzrə faktiki daxilolmaların və cari il üzrə proqnozlaşdırılan daxilolmaların qeyri-neft ÜDM-də xüsusi çəkilərinin ədədi ortası;

$VM_{\text{dəy}}$ - proqnozlaşdırılan ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalardır;

4. neft sektoru (xam neft və təbii qaz) üzrə mədən vergisindən daxilolmaların proqnoz məbləği aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$M_{proq}=H_{proq}*Q_{topdan}*V_{\text{dər}}$$

burada:

$M_{proq}$ - proqnozlaşdırılan ilə mədən vergisi üzrə daxilolmaların proqnoz məbləği;

$H_{proq}$ - proqnozlaşdırılan il üzrə mədən vergisinə cəlb olunan faydalı qazıntıların (xam neft və təbii qazın) hasilat həcmi (daxili tələbat və texniki itkilər istisna olmaqla);

$Q_{topdan}$ - mədən vergisinə cəlb olunan faydalı qazıntıların (xam neft və təbii qazın) topdansatış qiyməti;

$V_{\text{dər}}$ - mədən vergisinin dərəcəsidir;

4.10.9. hüquqi şəxslərin və fərdi sahibkarların əmlak vergisi üzrə daxilolmaların proqnozu aşağıdakı üsulla proqnozlaşdırılır:

1. neft və qeyri-neft sektorundan əmlak vergisi üzrə daxilolmaların proqnozu Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş vergi dərəcəsi əsasında əvvəlki ilin sonuna əmlakın ortaillik qalıq dəyərindən, ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi proqnozlarına uyğun olaraq cari və proqnozlaşdırılan illərin müvafiq olaraq neft və qeyri-neft sektorları üzrə əsas kapitala yönəldilən investisiyanın artım (azalma) tempindən istifadə etməklə, aşağıdakı hesablamalar əsasında müəyyən edilir:

$$\text{Ə}_{proq}=Q_{\text{əv}}*\dot{I}_{cari}*\dot{I}_{proq}*V_{\text{dər}}+VM_{\text{dəy}}$$

burada:

$\text{Ə}_{proq}$ - əmlak vergisi üzrə daxilolmaların proqnozu;

$Q_{\text{əv}}$ - əvvəlki ilin sonuna vergi tutulmalı olan əmlakın ortaillik qalıq dəyəri;

$\dot{I}_{cari}$ - cari il üzrə əsas kapitala yönəldilən investisiyanın proqnoz olunan nominal artım (azalma) tempi;

$\dot{I}_{proq}$ - proqnozlaşdırılan dövr üçün əsas kapitala yönəldilən investisiyanın proqnozlaşdırılan nominal artım (azalma) tempi;

$V_{\text{dər}}$ - vergi dərəcəsi;

$VM_{\text{dəy}}$ - proqnozlaşdırılan ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalardır;

4.10.10. torpaq vergisi üzrə daxilolmaların proqnozlaşdırılması zamanı hüquqi və fiziki şəxslər üzrə ayrılıqda kateqoriyalar üzrə torpaqların sahəsinə dair məlumatlar, sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar, yaşayış fondlarının, həyətyanı sahələrin və vətəndaşların bağ sahələrinin tutduğu torpaqların sahələri, bonitet (keyfiyyət göstəricisi) ballarına mütənasib olaraq torpaqların coğrafi yerləşməsinə, keyfiyyətinə və növlərinə görə fərqlənən baza vergi dərəcələri və digər məlumatlardan istifadə edilir. Torpaq vergisi üzrə daxilolmalar aşağıdakı üsullarla proqnozlaşdırılır:

1. təyinatı üzrə istifadə edilən və ya irriqasiya, meliorasiya və digər aqrotexniki səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisindən daxilolmaların proqnozu kadastr qiymət rayonları və oraya daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla müəyyənləşdirilən şərti ballar, torpaq sahəsi və torpaq vergisinin dərəcəsi istifadə edilməklə aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$T_{k/proq}=S_{tor}*V_{\text{dər}}*K_{\text{əmsal}}$$

burada:

$T_{k/proq}$ - təyinatı üzrə istifadə edilən və ya irriqasiya, meliorasiya və digər aqrotexniki səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisindən daxilolmaların proqnoz məbləği;

$S_{tor}$ - təyinatı üzrə istifadə edilən və ya irriqasiya, meliorasiya və digər aqrotexniki səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları üzrə torpaq sahəsi;

$V_{\text{dər}}$ - təyinatı üzrə istifadə edilən və ya irriqasiya, meliorasiya və digər aqrotexniki səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisinin dərəcəsi;

$K_{\text{əmsal}}$ - ayrı-ayrı ödəyicilər üçün kadastr qiymət rayonları və oraya daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla əmsallardır;

2. təyinatı üzrə istifadə edilməyən kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisindən daxilolmalar təyinatı üzrə istifadə edilməyən kənd təsərrüfatı torpaqları üzrə torpaq sahəsi və vergi dərəcəsi nəzərə alınmaqla, aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$T_{k/proq}=S_{tor}*V_{\text{dər}}$$

burada:

$T_{k/proq}$ - təyinatı üzrə istifadə edilməyən kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisindən daxilolmaların proqnoz məbləği;

$S_{tor}$ - təyinatı üzrə istifadə edilməyən kənd təsərrüfatı torpaqları üzrə torpaq sahəsi;

$V_{\text{dər}}$ - təyinatı üzrə istifadə edilməyən kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisinin dərəcəsidir;

3. sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar, yaşayış fondlarının, həyətyanı sahələrin və vətəndaşların bağ sahələrinin tutduğu torpaq sahəsinə uyğun olaraq, torpaq vergisi üzrə daxilolmaların proqnozu aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$\text{Stor} \le 10000\ m^2 \qquad T_{s/proq}=\frac{S_{tor}*K_1}{100}$$

$$S_{tor}>10000\ m^2 \qquad T_{s/proq}=\frac{10000*K_1+(S_{tor}-10000*K_2)100}{100}$$

burada:

$T_{s/proq}$ - sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar, yaşayış fondlarının, həyətyanı sahələrin və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə torpaq vergisindən daxilolmaların proqnoz məbləği;

S_tor - proqnoz ilində sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar, yaşayış fondlarının, həyətyanı sahələrin və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə torpaq vergisinə cəlb olunan torpaq sahəsi;

K_1 və K_2 - torpaq sahəsi 10000 m2-dək və 10000 m2-dən yuxarı olduqda, yaşayış məntəqələri üzrə hər 100 m2 üçün torpaq vergisinin dərəcəsidir;

4.10.11. yol vergisi üzrə daxilolmalar aşağıdakı üsullarla proqnozlaşdırılır:

1. Azərbaycan Respublikasının ərazisində istehsal edilərək, daxili istehlaka yönəldilən (topdan satılan) avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi üzrə daxilolmaların proqnoz məbləği onların hər litrinin topdansatış qiymətinə (ƏDV və aksizlər də daxil olmaqla) yol vergisinin dərəcəsi əlavə edilməklə, aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$Y_{proq}=D_{\text{həcm}}*V_{\text{dər}}$$

burada:

$Y_{proq}$ - yol vergisi üzrə daxilolmaların proqnoz məbləği;

$D_{\text{həcm}}$ - proqnozlaşdırılan il üçün daxili istehlaka yönəldilən (topdan satılan) avtomobil benzininin, dizel yanacağının və maye qazın həcmi;

$V_{\text{dər}}$ - yol vergisinin dərəcəsidir;

2. idxal olunan avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin onların hər litrinin topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinə (ƏDV və aksizlər də daxil olmaqla) yol vergisinin dərəcəsi əlavə edilməklə, aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$Y_{proq}=\dot{I}_{\text{həcm}}*V_{\text{dər}}$$

burada:

$Y_{proq}$ - yol vergisi üzrə daxilolmaların proqnoz məbləği;

$\dot{I}_{\text{həcm}}$ - proqnozlaşdırılan il üçün idxal olunan avtomobil benzininin, dizel yanacağının və maye qazın həcmi;

$V_{\text{dər}}$ - yol vergisinin dərəcəsidir;

3. Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtonəqliyyat vasitələrinin sahibləri olan qeyri-rezident şəxslərdən Azərbaycan Respublikasının avtomobil yollarından istifadəyə görə yol vergisi proqnozlaşdırılarkən aşağıdakı göstəricilərdən istifadə olunur:

3.1. avtonəqliyyat vasitələrinin növü, mühərrikin həcmi və Azərbaycan Respublikasının ərazisində qaldığı müddət;

3.2. oturacaq yerlərinin sayı və Azərbaycan Respublikasının ərazisində qaldığı müddət;

- avtonəqliyyat vasitələrinin oxlarının sayı və Azərbaycan Respublikasının ərazisində qaldığı müddət;

3.3. avtonəqliyyat vasitələrinin yüklə birlikdə ümumi çəkisi;

3.4. Azərbaycan Respublikasının ərazisində qət edilən məsafə;

3.5. təhlükəli yüklərin daşınması.

Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtonəqliyyat vasitələrinin sahibləri olan qeyri-rezident şəxslərdən Azərbaycan Respublikasının avtomobil yollarından istifadəyə görə yol vergisi aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$Y_{proq}=\sum N^{i}_{say}*V^{i}_{\text{dər}}$$

burada:

$Y_{proq}$ - yol vergisi üzrə daxilolmaların proqnoz məbləği;

i - nəqliyyat vasitəsinin növü;

$N^{i}_{say}$ - proqnozlaşdırılan il üçün vergiyə cəlb olunan avtonəqliyyat vasitələrinin sayı;

$V^{i}_{\text{dər}}$ - hər bir əməliyyat üzrə yol vergisinin dərəcəsidir;

4.10.12. Azərbaycan Respublikasının ərazisinə idxal edilən mallara gömrük rüsumundan daxilolmalar ortamüddətli sosial-iqtisadi inkişaf proqnozlarına uyğun olaraq idxalın proqnozlaşdırılan həcmindən, qanunvericiliyə əsasən gömrük rüsumundan azad olunan malların həcmindən və vergiyə cəlb olunan malların həcm göstəricilərindən istifadə etməklə, aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$R_{idxal}=\sum(\dot{I}_{\text{həcm}}-\dot{I}_{azad})*X_{orta}*R^{i}_{\text{dər}}$$

burada:

$R_{idxal}$ - idxal olunan mallara gömrük rüsumu üzrə daxilolmaların proqnoz məbləği;

$\dot{I}_{\text{həcm}}$ - proqnozlaşdırılan il üçün idxalın həcmi;

$\dot{I}_{azad}$ - proqnozlaşdırılan il üçün gömrük rüsumundan azad olmuş idxalın həcmi;

i - gömrük rüsumlarının tarif dərəcələrinə görə növü (5%, 15%, spesifik);

$X_{orta}$ - hər bir tarif dərəcəsinə görə son 2 il üzrə idxalın həcminin gömrük rüsumuna cəlb olunan idxalda xüsusi çəkilərinin ədədi ortası;

$R^{i}_{\text{dər}}$ - gömrük rüsumunun dərəcəsidir;

4.10.13. Azərbaycan Respublikasında istehsal edilən və qiyməti tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar üzrə proqnoz yanacaq-enerji balansının növbəti il üzrə qiyməti tənzimlənən məhsulların ixrac proqnoz həcmləri, həmin məhsulların ölkədaxili topdansatış qiyməti və kontrakt (satış qiyməti (ixrac xərcləri çıxılmaqla) nəzərə alınmaqla, aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$Q_{proq}=\sum H^{i}_{ixrac}*Y_{\text{dər}}*(Q^{i}_{kont}-X^{i}_{ixrac}-Q^{i}_{top})$$

burada:

$Q_{proq}$ - Azərbaycan Respublikasında istehsal edilən və qiyməti tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar üzrə proqnoz;

i - qiyməti tənzimlənən məhsulların növləri;

$H^{i}_{ixrac}$ - proqnozlaşdırılan il üçün qiyməti tənzimlənən məhsullar üzrə ixracın həcmi;

$Y_{\text{dər}}$ - hər il dövlət büdcəsi haqqında qanunla təsdiq edilən yığım dərəcəsi;

$Q^{i}_{kont}$ - məhsul növü üzrə kontrakt (satış) qiymətləri;

$X^{i}_{ixrac}$ - məhsul növü üzrə ixrac xərcləri;

$Q^{i}_{top}$ - məhsul növü üzrə ölkədaxili topdansatış qiymətidir;

4.10.14. xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmaların proqnozu müvafiq kredit sazişlərinin şərtləri (kreditin qaytarılması və ona hesablanmış faizlərin ödəniş qrafikləri) və manatın xarici valyutaya nəzərən məzənnəsinin proqnozu əsasında müəyyən edilir;

4.10.15. səhmlərində dövlətin payı olan hüquqi şəxslərdən alınan dividendlərin proqnozu səhmlərində dövlətin payı olan hüquqi şəxslərin təqdim etdiyi məlumatlar, həmin hüquqi şəxslər üzrə maliyyə göstəricilərinin, o cümlədən xalis mənfəətin əvvəlki illər üzrə dinamikası və növbəti illər üzrə proqnoz göstəriciləri, makroiqtisadi və digər zəruri göstəricilər əsasında müəyyən olunur;

4.10.16. Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertlərin proqnozu "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müəyyən edilir;

4.10.17. dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə verilməsindən daxilolmaların proqnoz məbləğinin hesablanması zamanı aşağıdakı göstəricilərdən istifadə olunur:

1. büdcədən maliyyələşdirilən təşkilatlar üzrə bağlanılmış müqavilələrin sayı, icarəyə verilmiş sahə;

2. kommersiya prinsipləri əsasında fəaliyyət göstərən təşkilat üzrə bağlanılmış müqavilələrin sayı, icarəyə verilmiş sahə;

3. Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici diplomatik qurumlar üzrə bağlanılmış müqavilələrin sayı, icarəyə verilmiş sahə.

Dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə verilməsindən daxilolmaların proqnozu "Dövlət əmlakının (mənzil fondundan başqa) icarəyə verilməsi üçün icarə haqqının minimum məbləği"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 noyabr tarixli 191 nömrəli Qərarına uyğun hesablanır.

1 kvadratmetr sahə üçün icarə haqqının minimum məbləği aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$\dot{I}_{m}=T_{m}*Z_{\text{ə}}*M_{\text{ə}}$$

burada:

$\dot{I}_{m}$ - icarə haqqının ilkin minimum məbləği;

$T_{m}$ - müəyyən edilmiş icarə haqqı tarifi;

$Z_{\text{ə}}$ - zona əmsalı;

$M_{\text{ə}}$ - memarlıq əmsalıdır.

Dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə verilməsindən daxilolmaların proqnozu aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$\text{ƏK}_{iproq}=\sum_{i=1}^{n} s^{i}*h^{i}$$

burada:

$\text{ƏK}_{iproq}$ - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə verilməsindən dövlət büdcəsinə daxilolmaların proqnoz məbləği;

i - icarə müqaviləsinin tipi;

$s^{i}$ - müqavilə tipi üzrə icarəyə verilmiş cəmi icarə sahəsi;

$h^{i}$ - müqavilə tipi üzrə icarəyə verilmiş obyektlərin icarə haqqıdır;

4.10.18. dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmaların proqnozu hesablanan zaman dövlət mülkiyyətində olan və icarəyə verilmiş torpaqların sahələri, kadastr qiymət rayonları və oraya daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla əmsallar, torpaq vergisinin dərəcəsi, icarə müqavilələri, hesablanmış icarə haqları üzrə məlumatlar nəzərə alınır;

4.10.19. dövlət rüsumu üzrə daxilolmalar dövlət rüsumu üzrə faktiki daxilolma məbləğinə, qeyri-neft ÜDM-in nominal artım (azalma) tempinə əsaslanmaqla, aşağıdakı hesablamalar əsasında müəyyən olunur:

$$R_{proq}=R_{\text{əv}}*\text{ÜDM}_{cari}\hat{}\ *\text{ÜDM}_{proq}+Q_{\text{dəy}}$$

burada:

$R_{proq}$ - proqnozlaşdırılan dövr üçün dövlət rüsumu üzrə daxilolmaların proqnoz məbləği;

$R_{\text{əv}}$ - əvvəlki ildə dövlət rüsumu üzrə faktiki daxilolma məbləği;

$\text{ÜDM}_{cari}$ - cari il üzrə qeyri-neft ÜDM-in gözlənilən nominal artım (azalma) tempi;

$\text{ÜDM}_{proq}$ - proqnozlaşdırılan ildə qeyri-neft ÜDM-in nominal artım (azalma) tempi;

$Q_{\text{dəy}}$ - proqnozlaşdırılan ildə qanunvericilikdə nəzərdə tutulan dəyişikliklərin qiymətləndirilməsi ilə əlaqədar gözlənilən əlavə daxilolmalar;

4.10.20. büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların proqnozu idarə və təşkilatlar tərəfindən təqdim olunan büdcədənkənar vəsaitlər üzrə gəlirlərin keçən ildə faktiki və cari il üzrə gözlənilən icrası, həmin gəlirlərin keçən ilin sonuna faktiki və cari ilin sonuna gözlənilən qalığı barədə məlumatlar və növbəti il üçün büdcədənkənar gəlirlərin proqnozuna dair hesablamalar əsasında tərtib edilir;

4.10.21. vergi orqanları xətti ilə toplanan sair daxilolmaların proqnozu fiziki şəxslərin gəlir vergisi, o cümlədən muzdlu işlə əlaqədar gəlir vergisi və muzdlu işə aid olmayan fəaliyyətdən gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi, torpaq vergisi, əmlak vergisi, ƏDV, aksiz, sadələşdirilmiş vergi, mədən vergisi, digər vergi və daxilolmalar üzrə maliyyə sanksiyalarından daxilolmalar və Azərbaycan Respublikası Vergi Məcəlləsinin pozulmasına görə inzibati cərimələr üzrə dövlət büdcəsinə daxilolmaların keçən ildə faktiki və cari il üzrə gözlənilən icrası və növbəti il üçün proqnoza dair hesablamalar əsasında müəyyən edilir;

4.10.22. sair daxilolmaların proqnozuna inzibati xətalara görə cərimələrdən daxilolmalar, büdcədən verilmiş kreditlər üzrə daxilolmalar və digər daxilolmaların proqnozu aiddir:

1. inzibati xətalara görə cərimələrdən daxilolmalar inzibati xətalara görə cərimələr üzrə dövlət büdcəsinə daxilolmaların dinamikasının təhlilinə, cari ilin daxilolmasının proqnozlaşdırılan ildə istehlak qiymətləri indeksinə uyğun düzəliş edilmiş qiymətlən-dirilməsinə əsaslanaraq proqnozlaşdırılır;

2. büdcədən verilmiş kreditlər üzrə daxilolmaların proqnozu əvvəlki illərdə verilmiş kreditlərin qaytarılması qrafikinin yerinə yetirilməsi dinamikası, verilmiş kreditlərin qaytarılması vəziyyəti, əvvəllər verilmiş və ödənilməmiş kreditlərin həcmi, kreditin ödənilməsi və onlar üzrə faizlərin ödənilməsi qrafikləri, hesablanmış cərimələr və faizlərin təhlili, kreditlərin verilməsi siyasəti, büdcə kreditlərinin verilməsi sahəsində qəbul edilmiş normativ hüquqi aktlar, vəsaitlərin büdcəyə qaytarılması tədbirlərinə uyğun olaraq həyata keçirilən kredit müqavilələrinin şərtləri (kreditin qaytarılması və ona hesablanmış faizlərin ödəniş qrafikləri) əsasında müəyyən edilir.".

7. Aşağıdakı məzmunda 4.12-ci bənd əlavə edilsin:

"4.12. Dövlət büdcəsinin layihəsi Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunanadək növbəti il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf proqnozlarında dəyişiklik baş verərsə, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi dövlət büdcəsinin gəlirlərini təmin edən orqanlarla müzakirələr aparır. Müzakirələrin nəticəsi yenidən protokollaşdırılır.".

8. 5.2-ci bəndə "Dövlət" sözündən sonra "büdcəsinin" sözü əlavə edilsin və həmin bəndə "verilmiş" sözündən sonra "və proqnozlaşdırılan dövrdə qüvvəyə minəcək" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Avropa Türkiyədən belə şəffaf seçki gözləmirdi

**Türkiyədə prezident və parlament seçkilərini müşahidə edən ATƏT missiyasının üzvü, Əməkdar jurnalist, Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü Azər Həsrət 14 may seçkiləri ilə bağlı "Xalq qəzeti"nə eksklüziv açıqlama verib:**





– Mayın 9-dan başlayaraq ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHP) Seçki Müşahidə Missiyasının üzvü kimi qardaş Türkiyədə ezamiyyətdə idim. Məqsəd həm səsvermə öncəsi durumla tanış olmaq, həm də mayın 14-də keçiriləcək səsverməni izləməkdi. Missiya çərçivəsində Mersin vilayətinin Erdemli ilçəsində (rayonunda) səsverməni müşahidə etdik. Qaydalara görə, missiya üzvləri təkbaşına müşahidə apara bilməzlər. Ona görə də burada mənimlə birlikdə Fransadan olan bir xanım da vardı.

Ümumi qənaətim bundan ibarətdir ki, qardaş ölkə ən yüksək səviyyədə səy göstərərək vətəndaşların öz iradəsini azad şəkildə ifadə etməsi üçün mümkün şəraiti yaratmışdı. Ona görə də səsvermə günü bizim heyət hər hansı pozuntu, rahatsızlıq müşahidə etmədi. Bir məntəqənin açılışında, altısının da qapanışında şəxsən iştirak etdim. Ondan başqa gün ərzində 9 məntəqədə səsverməni müşahidə etdik. Əminliklə deyə bilərəm ki, seçkinin nəticələrinə və gedişinə təsir edəcək hər hansı pozuntuya yol verilmədi.

Lakin sonrakı günlərdə ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu ATƏT Parlament Assambleyası və Avropa Şurası Parlament Assambleyası ilə birlikdə 23 səhifəlik ilkin hesabat yayaraq seçkilərin guya bir çox hallarda pozuntu ilə müşayiət olunduğunu iddia etdi. Əlbəttə, həm öz müşahidələrim, həm də missiyanın digər üzvlərindən aldığım bilgilər onu deməyə əsas verir ki, ümumilikdə ölkə üzrə nəticələrə təsir edən pozuntulara yol verilməyib. Belə bir durumda belə açıq-aşkar qərəzli dəyərləndirmə yaymaq şəxsən məni bir beynəlxalq müşahidəçi və jurnalist kimi narahat etməyə bilməzdi.

Durumun belə olmasını nəzərə alaraq, ATƏT-in ikinci turda da seçkiləri izləmək təklifini rədd etməli oldum. Düşünürəm ki, bizim topladığımız bilgiləri bir tərəfə atıb başdan-başa qərəzlə dolu qiymətləndirmə yaymaqla yuxarıda adları keçən qurumlar şəxsən mənim də etibarımı zədələyir. Ona görə də onların siyasi oyunlarına alət olmamaq qərarı verdim və missiyada fəaliyyətimi dayandırdım.

*Təqdim etdi:*
*M.HACIXANLI, "Xalq qəzeti"*



**Dünən Çinin Sian şəhərində Çin və Mərkəzi Asiya ölkələri dövlət başçılarının zirvə görüşü başlayıb.**

# Çin–Mərkəzi Asiya liderlərinin zirvə görüşü

Məlumatı "Sinxua" agentliyi yayıb. Xəbərdə deyilir ki, Çin lideri Si Cinpinin sədrlik etdiyi tədbirə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov və Tacikistan Prezidenti Emoməli Rəhmon iştirak edirlər. İki gün davam edəcək Sian görüşü Çin-Mərkəzi Asiya formatında dövlət başçılarının ilk zirvə görüşüdür.

Xatırladaq ki, ötən ay Sian şəhərində Çin-Mərkəzi Asiya ölkələrinin xarici siyasət idarələrinin görüşü olub. Diplomatlar qeyd ediblər ki, həm Pekin, həm də Orta Asiya dövlətləri qarşılıqlı inam və etimad əsasında münasibətlərin gücləndirilməsində maraqlıdır.

Qeyd edək ki, ötən il Çinin Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 40 faiz artaraq, 70 milyard ABŞ dollarını təşkil edib. Çin hazırda Özbəkistan, Qırğız Respublikası və Türkmənistanın ən iri, Qazaxıstanın 2-ci, Tacikistanın isə 3-cü ən iri ticarət tərəfdaşıdır.

Orta Asiya ölkələri zəngin təbii sərvətlərə malikdir. Onlar xarici bazarlara çıxışlarını şaxələndirmək niyyətindədir. Bu mənada Çinlə iqtisadi əlaqələrin genişlənməsi bütün tərəfləri qane edir. Çin həm böyük investisiya imkanları olan dövlətdir. Çünki hazırda Orta Asiya ölkələrinin yeni sərmayələrə kəskin ehtiyacı yaranıb.

Qlobal media bu görüşə kifayət qədər böyük diqqət ayırır. Beynəlxalq təhlilçilər qeyd edirlər ki, son illər Çinin Orta Asiya dövlətlərinə siyasi, iqtisadi təsiri artır. Hətta bəzi politoloqlar Qazaxıstanda 2022-ci ilin yanvar hadisələri zamanı rəsmi Pekinin Astananı birmənalı olaraq dəstəklədiyini vurğulayırlar.

Yeri gəlmişkən, rəsmi Moskva və Vaşinqton Siandakı görüşü diqqətlə izləyirlər. ABŞ hökuməti Çinin Orta Asiyada artan nüfuzundan narahatdır. Rusiya da uzun onillər boyu öz nüfuz dairəsində saxladığı regiona "yeni oyunçu"nun daxil olmasını qısqanclıqla qarşılayır. Sadəcə, Rusiyanın diqqəti Ukrayna münaqişəsinə yönəlib və həlelik prosesləri kənardan izləyir.

*"Xalq qəzeti"*

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dünən qurucusu və lideri olduğu Ədalət və İnkişaf Partiyasının (AKP) qərargahında keçirilən toplantıda bildirib ki, Ankaranın vasitəçiliyi ilə Rusiya-Ukrayna arasında imzalanan "taxıl sazişi"nin müddəti daha iki ay uzadılıb. Məlumatı "Anadolu" agentliyi yayıb.**

# "Taxıl sazişi" 2 ay uzadılıb

R.T.Ərdoğan, həmçinin prezident seçkilərinin ikinci turu ilə bağlı fikirlərini də ifadə edib: "Biz bu məsələni bitirənə qədər eyni əzmlə işləməyə davam edəcəyik".

Türkiyənin müdafiə naziri Hulusi Akar "taxıl sazişi"nin müddətinin iki ay uzadılması ilə əlaqədar jurnalistlərlə görüşü zamanı deyib: "Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə həyata keçirilən "taxıl sazişi" daha 2 ay uzadılıb".

Nazir qeyd edib ki, dünyada ərzaq təchizatı ilə bağlı ciddi ehtiyacları olan ölkələr üçün böyük əhəmiyyət kəsb edən bu təşəbbüsə töhfə verən və dəstəkləyən BMT rəsmilərinə, Rusiyanın müdafiə naziri Sergey Şoyquya, o cümlədən Ukraynanın infrastruktur naziri Oleksandr Kubrakova təşəkkür edirik.

Yeri gəlmişkən, dünən Ukrayna Prezidenti Volodimir Zelenski Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğana zəng edərək onu 14 may seçkilərində qələbə münasibətilə təbrik edib, Ukrayna xalqına verdiyi hərtərəfli dəstəyə görə minnətdarlığını bildirib.

*"Xalq qəzeti"*



# ABŞ Rusiya–İran dəmir yolu sazişindən narahatdır

**ABŞ iki gün əvvəl Tehranda İran və Rusiya arasında Rəşt-Astara dəmir yolunun tikintisi ilə bağlı mzalanmış sazişlə bağlı mövqeyini açıqlayıb. Çərşənbə günü Dövlət Departamenti bildirib ki, Rusiya və İran arasında dəmir yolu ilə bağlı sonuncu sövdələşməni "izləyəcək və ona xüsusi diqqət yetirəcək".**




Sanksiyalardan yayınmağa yönəlmiş istənilən cəhdlər ciddi narahatlıq doğuracaq və "ABŞ tərəddüdsüz növbəti addımları atacaq", – deyə məbuat katibinin müavini Vedant Patel bildirib.

ABŞ Dövlət Departamentinin rəsmisi deyib: "Mənim bu layihə ilə bağlı fikrim yoxdur, amma belə ciddi sanksiya rejimi tətbiq etməyimizin səbəbi var və onlardan yayınmağa yönəlmiş istənilən cəhdlər bizdə böyük narahatlıq doğurur", – deyə o qeyd edib.

*"Xalq qəzeti"*

# Xirosimada "Böyük yeddilər"in sammiti keçirilir




**Dünən Yaponiyanın Xirosima şəhərində "Böyük yeddilər"in sammiti öz işinə başlayıb. Tədbirdə bir çox aktual qlobal problemlər, o cümlədən Rusiyanın hərbi təcavüzünə məruz qalan Ukraynaya hərtərəfli dəstəyin artırılması, Çinin yüksələn nüfuzunun qarşısının alınması, nüvə silahından istifadə təhlükəsinin önlənməsi və s. problemlər müzakirə olunacaq. Sammit üç gün davam edəcək.**

ABŞ Prezidenti Cozef Bayden sammitdə iştirak etmək üçün Yaponiyaya gəlib. "The Associated Press" agentliyi yazır ki, Prezidentin təyyarəsi Birləşmiş Ştatların Yamaquti prefekturasının İvakuni şəhərində yerləşən dəniz piyadalarının aviabazasına enib. Amerikanın dövlət başçısı oradan Yaponiyanın Baş naziri Fumio Kisida ilə ikitərəfli görüşünün planlaşdırıldığı Xirosima şəhərinə yola düşüb.

Qeyd edək ki, Cozef Bayden dövlət başçısı postunda Xirosima şəhərini ziyarət edən ikinci ABŞ prezidenti olacaq. Bundan öncə 2016-cı ildə Barak Obama II Dünya müharibəsinin sonlarında ABŞ tərəfindən atom bombardmanına məruz qalan şəhərə səfər etmişdi.

Bu arada məlum olub ki, "G7" ölkələrinin Yaponiyada keçirilən sammitində Rusiyanın milyard dollarlıq almaz ixracına sanksiya tətbiq edilməsi də müzakirə ediləcək. Bu barədə AFP-yə adı açıqlanmayan Aİ rəsmisi bildirib: "Biz inanırıq ki, Rusiya ticarətinin bu sektordakı ixracını məhdudlaşdırmalıyıq".

Xatırladaq ki, dünya iqtisadiyyatının təxminən 65 faizini təmsil edən "Böyük yeddilər"ə ABŞ, Kanada, Fransa, Almaniya, İtaliya, Yaponiya və Birləşmiş Krallıq daxildir. 1997-ci ildən Rusiya bu klubun üzvü olmuşdur. O zaman qrup "Böyük səkkizlər" adlanırdı. 2008-ci ilin avqustunda Rusiaya Gürcüstanın iki vilayətini ilhaq etdikdən sonra klubdan kənarlaşdırılıb.

*"Xalq qəzeti"*

# İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində neft ehtiyatı azalıb

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ölkələrində neftin və neft məhsullarının kommersiya ehtiyatları bu ilin mart ayında 56,3 milyon barel azalıb. Bu barədə Beynəlxalq Enerji Agentliyinin aylıq hesabatında OECD ölkələrində neft məhsullarının kommersiya ehtiyatları mart ayının yekunlarına görə 2,753 milyard barel təşkil edib, bu da son beşillik ortalama göstəricidən 88,7 milyon barel azdır.**



Qlobal neft və neft məhsullarının kommersiya ehtiyatlarının orta beşillik səviyyəyə çatdırılması əvvəlcədən "OPEC+" (OPEC və təşkilata daxil olmayan ölkələri əhatə edən neft istehsalının azaltması üzrə təşəbbüs) razılaşmasının məqsədi kimi müəyyənləşdirilib. Qeyd edək ki, neft hasilatının məhdudlaşdırılması ilə bağlı razılaşmaya əsasən, öhdəlikləri olan "OPEC+" ölkələri aprel ayında neft hasilatını sutkada 400 min barel azaldıb. Beynəlxalq Enerji Agentliyinin (IEA) aylıq hesabatına əsasən, kvotası olan 19 "OPEC+" sövdələşmə iştirakçısının gündəlik hasilatı fevralda 400 min barel azalaraq, 37,6 milyon barelə enib.

Eyni zamanda, OPEC+ ölkələrinin aprel ayı üçün hasilatın hədəf səviyyəsi sutkada 40,1 milyon barel təşkil edib. Beləliklə, plandan geri qalma, təxminən, 2,5 milyon barel səviyyəsində olub. "OPEC+" 2020-ci ilin may ayında koronavirus pandemiyasının səbəb olduğu neftə tələbatın azalması səbəbindən gündəlik neft hasilatını 9,7 milyon barel azaldıb. Ötən ilin avqust ayından etibarən alyans bu ixtisarlardan çıxmaq üçün son mərhələyə keçib, noyabr ayından isə hasilatı yenidən aşağı salıb. Məsələn, "OPEC+" avqust ayı üçün mümkün olan maksimum səviyyədən gündəlik 2 milyon barel azaldıb. Bu qərar cari ilin sonuna qədər qüvvədə saxlanılıb. Bundan əlavə, may ayından etibarən "OPEC+" razılaşması ölkələrinin bəziləri tərəfindən də gündəlik neft hasilatının əlavə olaraq 1,66 milyon barel azaldılması qərarına gəlinib.

Yeri gəlmişkən, bu ilin mart ayında Azərbaycanda gündəlik neft (kondensatla birlikdə) hasilatı 632 min barel olub. Hasil olunan 632 min barel neftin 515 min barelini xam neft, 117 min barelini isə kondensat təşkil edib. OPEC+ əməkdaşlığı çərçivəsində mart ayında Azərbaycanın ixtisarlarla bağlı öhdəliyi gündəlik 33 min barel, gündəlik xam neft hasilatı üzrə kvotası isə 684 min bareldir.

Cari ilin ötən ayında isə Azərbaycanda gündəlik neft (kondensatla birlikdə) hasilatı 626 min barel olub. Energetika Nazirliyinin məlumatına əsasən, bunun 512 min barelini xam neft, 114 min barelini isə kondensat təşkil edib.

Yuxarıda adıçəkilən OECD-nin yaranması ilə bağlı bəzi məqamlara da aydınlıq gətirmək istərdik. Xatırladaq ki, bu təşkilatın fəaliyyətə başlaması ikinci dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Belə ki, 1948-ci ildə müharibədən sonrakı Avropanın yenidən qurulması ilə bağlı ABŞ hökumətinin qəbul etdiyi "Marşal planı"nın icrası məqsədilə OECD-in əsası qoyulub. Qurumun rəsmiləşdirilməsi isə1960-cı il dekabrın 14-də Kanada və ABŞ tərəfindən yeni OECD Konvensiyasının imzalanması ilə gerçəkləşib. Beləliklə, həmin vaxtdan etibarən OECD dünyada insanların iqtisadi və sosial rifahını yaxşılaşdırmaq kimi məqsədi reallaşdırmaq siyasəti yürüdüb.

Onu da vurğulayaq ki, hazırda 36 dövləti təmsil edən OECD qlobal iqtisadiyyatın artmaqda olan çətinliklərlə üzüzə qaldığını bildirir. Təşkilatın "Qlobal iqtisadi görünüş" hesabatına görə, qlobal iqtisadiyyatın artım tempi aşağı düşüb, inflyasiya uzun müddətdir ki, yüksək olaraq qalır, inam zəifləyib və qeyri-müəyyənlik özünü qabarıq büruzə verir. Rusiyanın Ukraynaya qarşı müharibəsi isə xüsusilə enerji qiymətlərini əhəmiyyətli dərəcədə bahalaşdırıb, eyni zamanda, inflyasiya təzyiqlərini artırıb. Bu perspektivlərə əsasən, OECD qlobal ÜDM artımının bu il 3,1 faiz, gələn il isə daha da yavaşlayaraq 2,2 faiz olacağını proqnozlaşdırıb.

Təşkilat inkişaf etmiş aparıcı iqtisadiyyatlarda əsas inflyasiyanın bu il 4,25 faiz geriləyəcəyini, 2024-cü ildə isə 2,5 faizə düşəcəyini proqnozlaşdırır.

OECD öz fəaliyyətində Azərbaycanda hazırda həyata keçirilən sosial-iqtisadi layihələri yüksək dəyərləndirir. Təşkilat tərəfindən "Azərbaycanda iqtisadi islahatların idarəedilməsi modeli" nümunəvi innovativ təcrübə kimi qəbul edilib və rəsmi platformasında göstərilib. Bu isə respublikamızın iqtisadi modelinə verilən yüksək qiymət kimi ölkəmizin beynəlxalq imicini daha da yaxşılaşdırıb, investor inamını artırıb, beynəlxalq və regional miqyaslı layihələrin həyata keçirilməsində mövqelərimizi gücləndirib. Başqa sözlə, OECD-nin "Azərbaycanda iqtisadi islahatların idarəedilməsi modeli"nə xüsusi diqqət yetirməsi Azərbaycanda islahatların davamlı xarakter daşımasına, post-konflikt quruculuğuna və regional inkişafa əlavə stimul verib.

Beləliklə, OECD-nin "Azərbaycanda iqtisadi islahatların idarəedilməsi modeli" ölkəmizin innovasiya sahəsində çeviklıyi, məsuliyyətliliyi, inklüzivliyi diqqətdə saxladığını, proqnozlaşdırma və qlobal istifadəyə üstünlük verdiyini dünyaya nümayiş etdirir. Bu baxımdan, respublikamızda iqtisadi islahatların ən nüfuzlu təşkilatlardan biri olan sözügedən qurum tərəfindən innovativ təcrübə kimi dəyərləndirilməsi ölkəmizin getdikcə yüksələn nüfuzunun daha da artmasını şərtləndirir.

*"Xalq qəzeti"*

# Bakıda bədii gimnastika üzrə Avropa çempionatı davam edir

## Tədbir “Ulduz kimi parla” şüarı altında keçirilir

**Bakıda, Milli Gimnastika Arenasında artıq üçüncü gündür ki, Avropa qitəsinin ən güclü bədii gimnastları gözəl, zərif və fantastik çevik hərəkətləri ilə gimnastikasevərlərin ürəyini fəth edirlər. Avropa çempionatının keçirildiyi arenada bu zərif qızların bir-birindən möhtəşəm çıxışlarına baxdıqca onların kifayət qədər çətin olan tutmaları, atmaları, tullanmaları, dönmələri necə asanlıqla yerinə yetrimələrinə heyran olursan. Onların arasında ən istedadlılardan olan Azərbaycan gimnastlarının möhtəşəm çıxışları qəlbimizi riqqətə gətirir, onlarla qürur duyuruq. Təsadüfi deyil ki, yarışın birinci günündə qrup hərəkətləri üzrə Azərbaycanın gənclərdən ibarət komandasına “Audience Award” mükafatı verilib. Mükafatın qalibi tamaşaçılar arasında keçirilən səsvermə nəticəsində müəyyənləşib.**





Maraqlı mübarizə şəraitində keçən yarışda Azərbaycanın iki bədii gimnastı fərdi proqramda çıxış edib.

Azərbaycan gimnastları Zöhrə Ağamirova və İlona Zeynalova hər iki alətlə kompozisiyalarını təqdim ediblər.

Zöhrə Ağamirova top (32.550) və halqa (32.150 xal) ilə hərəkətlərin icrasında finala vəsiqə əldə edib. Gimnastımız təsnifat mərhələsində topla 5-ci, halqa ilə isə 6-cı olub.

Yarışın ilk günündə Avropa çempionatında iki bürünc medal qazanmış qrup hərəkətləri üzrə Azərbaycanın gənclərdən ibarət komandasının üzvləri mükafatlandırma mərasimində qazanılmış uğurda onları dəstəkləyən tamaşaçıların da böyük payının olduğunu vurğulamış, onlara minnətdarlıq etmişlər. Komandanın üzvü Ayan Sadıqova Avropa çempionatında çıxış etməyin onlar üçün böyük şərəf olduğunu deyib. Qeyd edib ki, çoxnövçülükdə, eləcə də beş topla hərəkətlərdə bürünc medal qazandıqlarına görə çox sevinirlər.



Xarici komandalar da Bakıdakı yarışdan zövq aldıqlarını xüsusilə vurğulayırlar. Andorralı gimnastlar çempionatın şüarı – “Ulduz kimi parla”nın yarışa çox yaraşdığını qeyd ediblər: “Şüar çıxış etdiyimiz zal ilə ahəng təşkil edir. Milli Gimnastika Arenasında çıxışımız zamanı özümüzü əsl ulduz kimi hiss edirik”.



Qızlar, həmçinin hər bir şəraiti olan möhtəşəm Milli Gimnastika Arenasında güclü gimnastların çıxışlarını canlı izləməyin onlarda məmnunluq doğurduğunu bildiriblər.

Gənc gimnastlardan ibarət Yunanıstan komandasının üzvləri Milli Gimnastika Arenasında mübarizədən zövq aldıqlarını bildiriblər. Bakıya ilk dəfə səfər etdiklərini bildirən qızlar paytaxtımızda hər şeyin çox gözəl olduğunu diqqətə çatdırıblar. Deyiblər ki, Avropa çempionatı yüksək səviyyədə təşkil olunub. Azərbaycanlı azarkeşlərin dəstəyi xoş təəssüratla xatırlanacaq.

Portuqaliya komandasının məşqçisi Silviya Kanelaş Azərbaycan Gimnastika Federasiyasının yarışları qüsursuz keçirdiyini bildirib. O qeyd edib ki, bütün ölkələrdə gimnastlar üçün Azərbaycanda olduğu kimi şərait yaradılmır.

38 ölkədən gimnastların qatıldığı mötəbər Avropa çempionatının ikinci günündə idmançı fərdi proqramda güclərini sınayıblar.

Qeyd edək ki, Zöhrə mayın 21-də keçiriləcək ayrı-ayrı alətlər üzrə final mərhələsində mübarizəyə qoşulacaq.

Sabah qitə çempionatında gimnastlar fərdi təsnifat proqramında gürzlər və lentlə çıxışlarını nümayiş etdirəcəklər.

Xatırladaq ki, Avropa çempionatının birinci günü Azərbaycanın Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərovadan ibarət gənclər komandası qrup hərəkətlərində çoxnövçülük və beş topla proqramda iki bürünc medal qazanıblar.

Qeyd edək ki, “Ulduz kimi parla” şüarı ilə keçirilən qitə çempionatında 38 ölkədən 315 gimnast (böyüklər – 191, gənclər 124) mübarizə aparır. Fərdi gimnastlar ayrı-ayrı alətlər (top, halqa, gürzlər lent), komanda hesabı və çoxnövçülük proqramında, qrup hərəkətləri üzrə komandalar isə böyüklər arasında beş halqa, üç lent və iki top proqramında güclərini sınayırlar.

***Leyla SABİRQIZI, “Xalq qəzeti”***

---

*Həmkarımızın xatirəsi*

# Unudulmaz Ələsgər müəllim

**Bugünlərdə anadan olmasının 90 illiyi tamam olan tanınmış jurnalist dostumuz Ələsgər Cabbarov xatirələrimizin “şah” budağında qərar tutan unudulmaz insanlardandır. O, 1933-cü il may ayının 16-da Qəbələ rayonunda anadan olub və 83 illik şərəfli bir ömür yaşayıb. Azərbaycan Sənaye İnstitutunu (indiki Neft və Sənaye Universitetinin) bitirən gənc mühəndis bir müddət Keşlə maşınqayrıma zavodunda çalışsa da, jurnalistikaya olan həvəsi onu mətbuata gətirib. 7 il əvvəl dünyasını dəyişsə də unudulmaz Ələsgər müəllimi tez-tez yad edirik.**

Ələsgər Cabbarov imzası ilk vaxtlar respublika radiosundakı çıxışları, reportajları ilə tanınıb. “Bakı” və “Baku”, “Azərbaycan gəncləri” qəzetlərində dərin məzmunlu təhlili yazıları, oçerkləri, rus dilindən tərcümələri ilə diqqət çəkib. "Elm və həyat" jurnalında şöbə müdiri olub.1966-cı ildə Ələsgər müəllimin yaradıcılığı Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru Rəsul Rzanın nəzərindən yayınmayıb və onu bu nəşrin texnika redaksiyasına müdir təyin edib. Həmin illərdə bu nəşrdə çalışanlar Milli Ensiklopediyamızın ilk 10 cildinin hazırlanmasında Ələsgər Cabbarovun müstəsna xidmətlərini yaxşı xatırlayırlar. “Səhər” qəzetində Azərbaycan ictimaiyyətini 20 Yanvarla bağlı ilk məlumatlandıran insanlardan biri də o olub.

1992-ci ildən sonra Ələsgər müəllim "Xalq qəzeti"ndə çalışıb. Burada işləyərkən özünün yaradıcılıq əzmi, səmimiliyi və fədakarlığı ilə kollektivin hörmətini qazanıb.2016-cı ildə dünyasını dəyişsə də, gözəl insan və peşəkar jurnalist kimi dostlarının, haqqında yazdığı qəhrəmanlarının və el-obasının ürəklərində yaşayır. Mərhum Fikrət Qoca, Aqşin Babayev, Yusif Kərimov, Məzahir Süleymanzadə, həmçinin qələm yoldaşları – Əməkdar jurnalistlər Flora Xəlilzadə, Tahir Aydınoğlu və başqaları onun yaradıcılığına, ziyalılığına yüksək qiymət verib və bu barədə ürək sözlərini qələmə alıblar.

Unudulmaz dostumuzun obrazını tamamlamaq üçün Tahir Aydınoğlunun onun haqqında xatirələrindən bəzi qeydləri oxucuların diqqətinə çatdırırıq: “Ələsgər Cabbarov “Xalq qəzeti”nə redaksiyamız üçün ağır bir dövrdə – 1992-ci ilin təlatümlü günlərində gəlmişdi. O vaxt qəzetin üzləşdiyi çətin mənəvi və maliyyə böhranı zamanı bir sıra əməkdaşlar redaksiyanı tərk edəndə təcrübəli həmkarımız 70 il fəaliyyət göstərmiş əsas anadilli qəzetimizin öz fəaliyyətini dayandırmaması üçün redaksiyaya gəldi və öz köməyini təklif etdi. Gərəkli fəaliyyəti ilə kollektivə yardımçı olan təcrübəli jurnalist tezliklə işə qəbul olundu, sonrakı illərdə bilik və bacarığını əsirgəmədən çalışdı.

Ümummilli liderimiz Heydər Əliyevin xoş məramı ilə 1995-ci ilin noyabrında “Xalq qəzeti” yeni mötəbər ststusla fəaliyyətə başlayanda Ələsgər Cabbarov əvvəl kommersiya direktoru, sonra isə bölgə müxbiri kimi redaksiyanın yeni yolda uğurla irəliləməsinə samballı kömək göstərdi. Ömrünün



ahıllıq çağında Ələsgər müəllim redaksiyanı tərk etsə də, kollektivlə son günlərinədək sıx əlaqə saxladı”.

Əlavə edək ki, dərin elmi biliyi, geniş dünyagörüşü, xalqına və ölkəsinə sonsuz sevgisi ilə seçilən Ələsgər Cabbarovu həyatın çətinlikləri və özünü təsdiqləmək əzmi vaxtından əvvəl yetkinləşdirmişdi. İnsanlarla münasibətdə həddindən artıq səmimi, mehriban və qayğıkeş idi. O çətinlikdən qorxmur, bir qayda olaraq, ağır vəziyyətdən asan çıxış yolu tapırdı. Xeyirxahlığı, sabitqədəmliyi onun ağsaqqallığına xüsusi sambal gətirirdi. Hər yerdə hörmətlə qəbul olunur, hər işdə öz yerini bilirdi.

Ələsgər Cabbarov milli jurnalistikamızın ən yaxşı ənənələrinə bağlı idi və gəncləri də həmişə qələmi ilə xalqa gərəkli olmağa çağırırdı. Ömrünün son illərində yaşadığı Yasamal rayonunun və respublikanın Ağsaqqallar Şurasının, Azərbaycan Mətbuat Şurasının Ahıl Jurnalistlər Məclisinin tədbirlərində yaxından iştirak edir, sözünün sambalı, mövqeyinin mötəbərliyi ilə seçilirdi.

Yetkin qələm sahibi, yurdsevər vətəndaş, mehriban həmkar və dost olan Ələsgər Cabbarovun zəngin, mənalı ömür yolu yeni nəsil yazarlar üçün daha bir örnəkdir.

***Ə.ƏLİYEV, “Xalq qəzeti”***

---

# “Kitabsız bir ömrün nə mənası var?”




**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən hazırlanmış “Azərbaycan ədəbiyyatında vətən və dövlətçilik məfkurəsinin intibahı, Heydər Əliyevdən – İlham Əliyevə” monoqrafiyası “Elm” nəşriyyatında çapdan çıxıb.**

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illiyinə həsr olunan nəşr institutun Elmi şurasının qərarı ilə işıq üzü görüb. Kitabda ulu öndərin bədii ədəbiyyatda parlaq obrazının yaradılması, müstəqil dövlətçilik ideallarının tərənnümü məsələlərindən bəhs olunur. Monoqrafiyanın ideya müəllifi və elmi məsləhətçisi AMEA-nın prezidenti akademik İsa Həbibbəylidir. Kitabda yer alan ilk yazı da akademikin “Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz” tədqiqatıdır. Nəşrin elmi redaktoru AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu, məsul redaktoru filologiya elmləri doktoru Elnarə Akimovadır.

Kitabda T.Əlişanoğlunun “Heydər Əliyevin tarixi obrazı və ədəbiyyat”, L.Həsənovanın “Beynəlmiləl məfkurədən milli ideyaya doğru: müasir nəsrdə Heydər Əliyev obrazı (bədii-sənədli nəsr və publisistika)”, A.Bağırlının “Uşaq ədəbiyyatında və dramaturgiyada Heydər Əliyevin bədii obrazı”, Ə.Əsgərlinin “Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət”, E.Akimovanın “Vətən və dövlət məfkurəsinin intibahı: Heydər Əliyevdən – İlham Əliyevə” məqalələri yer alıb.

***

**Azərbaycan Ağsaqqallar Şurası uzun illərdən bəri bu qurumda çalışan, Şuranın sədr müavini Bayram Yusifovun 60 illik yubileyi münasibətilə kitab nəşr edib.**




“Bir ömrün missiyası: Vətənə, xalqa, dövlətə sədaqət” adlı bu kitabda tanınmış ictimai-siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin, nüfuzlu ağsaqqalların, o cümlədən yubilyara yaxın insanların ürək sözləri, təbrikləri, o cümlədən Bayram Yusifovun ictimai-siyasi fəaliyyəti ilə bağlı müəyyən məqamlar, tədbirlərdəki çıxışları və bəzi şeirləri öz əksini tapıb.

Şeirlərin arasında Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə həsr olunmuş “Ali Baş Komandanım” adlı şeiri də var. Azərbaycanın 44 günlük Vətən müharibəsində dillərdən düşməyən və bu gün də sevilən mahnılardan olan, Əməkdar artist, müğənni Abbas Bağırovun ifa etdiyi “Zəfər marşı”nın sözləri Bayram Yusifovun bu şeirindən götürülüb. Kitabda toplanan dəyərli qələm nümunələrinin hər bir sətrində yubilyara tükənməz sevgi və hörmət hissi duyulur. Kitab boyu mətnləri yubilyarın həyat və fəaliyyətini tarixiləşdirən müxtəlif fotolar müşayiət edir.

***

**Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində “Azərbaycan nəsri antologiyası”nın birinci hissəsi nəşr edilib.**

Antologiyanın ideya müəllifi Bakı DövlətUniversitetinin professoru Vaqif Sultanlı, redaktoru və ön söz müəllifi Sankt-Peterburq Dövlət Universitetinin müəllimi, türkoloq-yazıçı Şahnaz Kamaldır. Kitab UNESCO üzrə Azərbaycan Milli Komissiyasının maliyyə dəstəyi ilə işıq üzü görüb.

Antologiyada Azərbaycan yazarları Seyran Səxavət, Firuz Mustafa, Kamran Nəzirli, Natiq Rəsulzadə, Vaqif Sultanlı, Zahid Sarıtorpaq, Rafiq Tağı, Fəxri Uğurlu, Sənan İsmayılov, Nüşabə Əsəd Məmmədli, Mübariz Ərən, Emin Pirinin hekayə və esseləri yer alıb.

***



**Şair, esseist Şahnaz Şahinin Vətən Müharibəsindən bəhs edən “Zəfər nəğmələri” kitabı Türkiyədə “FERFİR” nəşriyyatı tərəfindən nəfis tərtibatla çap edilib.**




Kitabın redaktoru şair, tərcüməçi Səlim Babullaoğlu, tərcüməçisi Ömər Küçükmehmetoğludur.

Şahnaz Şahinin vətənpərvərlik şeirləri və lirik poemasından ibarət kitabı qardaş ölkənin geniş oxucu auditoriyası üçün nəzərdə tutulub. Mütaliəsi xoş hisslər yaradan bədii nümunələr, əslində şairin poetik etiraflarlarıdır. Bu şeirləri tənqidçi Rüstrəm Kamal özünəməxsus şəkildə ömrü boyu dialoq arzusunda olan bir insanın monoloqu adlandırıb. “Şahnaz Şahinin yazdıqları hər gün, hər saat davam edən “dialoqun ilğımı”dır. Ona görə də bu şeirlər sonuncu susqunluğa qədər söyləniləcək...”

***Hazırladı: Əli NƏCƏFXANLI, “Xalq qəzeti”***

# Sumqayıtlı alimlər Almaniyada



**Sumqayıt Dövlət Universitetinin (SDU) nümayəndələri – Strateji Araşdırmalar Mərkəzinin direktoru, dosent Günel Paşayeva və Keyfiyyət təminatı şöbəsinin müdiri Nərmin Həsənova Almaniya Federativ Respublikasının Brandenburq Texniki Universitetində (BTU) ezamiyyətdə olublar.**

Səfər zamanı universitet əməkdaşları BTU-nun Kottbus və Zeftenberq şəhərlərində yerləşən korpuslarının maddi-texniki bazası, akademik heyəti, elmi-tədqiqat laboratoriyaları və tədrisin təşkili ilə yaxından maraqlanıblar. BTU-nun mütəxəssisləri ilə görüşlər işgüzar şəraitdə keçib, müxtəlif proqramlar barədə faydalı fikir mübadiləsi aparılıb. Ətraflı müzakirələr universitetlərin mümkün ola biləcək bütün istiqamətlərdə əməkdaşlığa başlamaq üçün hazır olduğunu göstərib.

Görüşlər zamanı birgə ikili diplom proqramının hazırlanması ilə bağlı müəyyən ortaq nöqtələrin olduğu qeyd edilib. Bildirilib ki, BTU-nin maşınqayırma, elektrik mühəndisliyi və enerji sistemləri fakültəsinin müvafiq proqramı ilə bağlı əməkdaşlıq SDU-da analoji modelin yaradılmasına stimul ola biləcək. Eyni zamanda, BTU tərəfindən SDU məzunlarının müxtəlif ixtisaslar üzrə magistratura proqramına müraciət edə biləcəyi qeyd olunub. Bundan əlavə, tələbə və müəllim mobilliyinin, mübadilə proqramlarının həyata keçirilməsi üçün hazırlıq əzmi bəyan edilib.

Zəngin görüş proqramının bir hissəsi kimi, sumqayıtlı qonaqlar Drezden şəhərində Volksvagen şirkətinin elektrikli maşınlar istehsal edən zavoduna da səfər edib və istehsalatla yaxından tanış olublar.

SDU nümayəndələrinin ölkəmizin Almaniyadakı səfirliyində də görüşləri olub.

***Ə.ƏLİYEV, "Xalq qəzeti"***

***Sosial xəbərlər***

# Banklar həssas qruplara dəstək olacaq



**Ölkədə Prezident İlham Əliyevin həssas qrupların özünüməşğulluğuna banklar tərəfindən kömək göstərilməsi ilə bağlı sosial məsuliyyətin bölüşdürülməsi təşəbbüsünə dəstək məqsədilə növbəti layihəyə – "Özünüməşğulluğa dəstək–2023" layihəsinə başlanır. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər.**

Qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mərkəzi Bank və Banklar Assosiasiyası arasında əməkdaşlıq çərçivəsində özünüməşğulluq proqramına dəstək məqsədilə həyata keçirilən bu layihəyə 23 bank qoşulub.

Dövlət Məşğulluq Agentliyinin icra etdiyi özünüməşğulluq proqramına cəlb olunmuş şəxslərdən 300 nəfərə həmin banklar tərəfindən bu il biznes planlarına uyğun aktivlər verilərək onlar üçün kiçik bizneslər yaradılacaq.

Onlardan əksər hissəsi şəhid ailəsi üzvləri, müharibə iştirakçıları və əlilliyi olan şəxslər, digər həssas qruplardan olanlardır.

Xatırladaq ki, özünüməşğulluq proqramının genişləndirilməsində mühüm dəstək olaraq kommersiya banklarının "Özünüməşğulluğa dəstək" layihəsi üzrə 2020–2021-ci illərdə həssas qruplardan ibarət 1489 şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik bizneslər yaradılıb.

# Oğuzda məşğulluqla bağlı ictimai dinləmə

**Dünya Bankının maliyyə dəstəyi ilə icra edilən "Məşğulluğa dəstək layihəsi"nə dair növbəti ictimai dinləmə Oğuz rayonunda təşkil olunub. Bu barədə aldığımız məlumatda bildiriblər ki, layihəni tanıtmaq, hədəf kateqoriyalarını layihəyə cəlb etmək məqsədilə təşkil olunmuş ictimai dinləmədə işaxtaran və işsiz, o cümlədən öz biznesini qurmaq istəyən şəxslər iştirak ediblər.**




Görüşdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi, icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər, proqramın gözlənilən faydaları, eləcə də müraciət və iştirak qaydalarına dair iştirakçılara ətraflı məlumat verilib. İştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sonda isə layihə və təqdim edilən biznes zərflər barədə məlumatların əks olunduğu çap materialları paylanıb.

Qeyd edək ki, 2025-ci ilə qədər davam edəcək "Məşğulluğa dəstək layihəsi"nin əsas məqsədi işsiz kimi qeydiyyata alınmış həssas qruplara aid şəxslərin (əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, ünvanlı dövlət sosial yardımı alanlar və b.) özünüməşğulluq üzrə kiçik bizneslərinin yaradılmasıdır. İndiyədək 8 min 114 nəfər layihəyə cəlb olunub. Ümumilikdə layihə çərçivəsində 22 min işsiz şəxsin kiçik biznesə çıxışına dəstək verilməsi nəzərdə tutulub.

***Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"***


# "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" PHŞ

## "Ağdam rayonunun Xıdırlı kənd yaşayış məntəqəsinin tikintisi məqsədilə I faza üzrə şaquli planlaşdırma və söküntü" işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs- bərpa və yenidənqurma departamenti müdirinin müavini İntizam Novruzov – i.novruzov@qbti.gov.az və baş məsləhətçi Zabil Vəliyev - z.valiyev@qbti.gov.az,

Telefon- + 99450 466 12 66.

İşlərin qısa təsviri:

Bina qalıqlarının sökülməsi və ərazinin dağıntılardan təmizlənməsi.

Ərazinin şaquli planlaşdırılması və yolların profilə gətirilməsi.

Tenderdə iştirak haqqı- 1500,00 ( bir min beş yüz manat ) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs

VÖEN - 3201635961

Bank - "ABB" nin Mərkəz filialı

Kod - 805722

VÖEN - 9900001881

H/h - AZ95İBAZ38030019443196817204

M/h - AZ03NABZ01350100000000002944

SWIFT İBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

• tenderdə iştirak etmək üçün ərizə;

• iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;

• tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır);

• tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);

• tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

• malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19);

• malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;

• (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir);

• Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;

• (tender elanından sonrakı tarixdə alınmış arayış təqdim edilməlidir);

• iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);

• öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış;

• (tender elanından sonrakı tarixdə alınmış arayış təqdim edilməlidir);

• müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış;

• (tender elanından sonrakı tarixdə alınmış arayış təqdim edilməlidir);

• satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;

• (tender elanından sonrakı tarixdə alınmış arayış təqdim edilməlidir);

• müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;

• malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (əsli olmadığı halda notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir);

• mühasibat balansları, mənfəət və zərər haqqında hesabat;

• kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları;

• baş podratçı kimi son beş il (2018-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 3 (üç) milyon manatdan az olmayan, müraciət edənin hissəsi isə ən azı 1.5 (bir milyon beş yüz min manat) milyon manat olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır, həmçinin 250 000 kub metr həcmində qazma, 350 000 ton həcmində daşınma işləri üzrə təcrübəyə malik olmalıdır) ən azı 2 (iki) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və təsdiqedici sənədlər təqdim edilməlidir;

• Son beş il ( 2017 –ci il yanvarın 1-dən 2021-ci il dekabrın 31-dək) ərzində tikinti- quraşdırma işləri üzrə ən azı 5 (beş) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər.

Qeyd- tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bənlərində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 27 iyun 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 7 iyul 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin inzibati binasında 10 iyul 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin Tikinməkdə olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti "Balakən rayonunun Mahamalar və digər yaşayış məntəqələrinin, Balakənçay və Katexçay çaylarının sel sularından mühafizəsi tədbirləri"nin satın alınması ilə əlaqədar "Xalq qəzeti"nin 29 aprel 2023-cü il və 16 may 2023-cü il tarixli nömrələrində dərc olunmuş elan və tenderlərin şərtlər toplusunun 3-cü bölməsinin məlumat xəritəsinin TİT 13-3.8-ci maddəsində müsabiqədə iştirak edəcək iddiaçılar üçün qeyd olunan tələbdə dəyişiklik edərək, aşağıdakı redaksiyada təqdim olunmasını məqsədə uygun hesab etmişdir.

İddiaçının son 10 (on) tam təqvim ilində analoji işlər üzrə yerinə yetirdiyi müqavilələrin ümumi məbləği 3000,0 min manatdan az olmamalıdır.

• İddiaçı son 10 ildə ayrı-ayrılıqda, yaxud bir yerdə olmaqla ən azı 1 (bir) analoji iş kimi 500 metr uzunluğunda və hündürlüyü 8 metrdən az olmamaq şərti ilə beton bənd və ən azı 15 metr uzunluğunda fiksatorun tikintisi müqaviləsini yerinə yetirmiş olmalı və işlərin bitirilməsinə aid təsdiqedici sənədlərini (təhvil-təslim aktları və işbitirmə) təqdim etməlidir.

***Tender komissiyası***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

## tabeliyindəki idarələr üçün müxtəlif ehtiyat hissələrinin və avadanlıqların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 24 may 2023-cü il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1047.

Ünvan- AZ1003, Bakı, M.Useynov küçəsi 2.

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankında istifadə olunan server, kompüter və rabitə avadanlıqları üçün ehtiyat hissələrinin satın alınması və Azərbaycan Respublikasının Mərkəzi Bankında istifadə olunan printer və surətçıxaran aparatlar üçün kartriclərin və toner tozunun satın alınması ilə bağlı keçirilmiş tenderlərlə əlaqədar satınalmalar komissiyasının qərarına əsasən birinci satınalma predmeti üzrə "TEXNO GALLERY" MMC, ikinci satınalma predmeti üzrə isə "TESTTECH" MMC qalib elan edilmişdir. Qalib cəmiyyətlərlə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Satınalmalar komissiyası***

# "Şəmkir Şərab – 2" ASC səhmdarlarının nəzərinə!

"Şəmkir Şərab–2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 3 iyul 2023-cü il saat 11.00-da Şəmkir rayonu, Çinarlı qəsəbəsi, M.Şəhriyar küçəsi 56 nömrəli ünvanda keçiriləcəkdir.

Bütün səhmdarların şəxsiyyət vəsiqələri ilə iclasda iştirak etmələri xahiş olunur.

Qeyd- səhmdarların nəzərinə çatdırılır ki, müəssisə fəaliyyət göstərmir.

# "NUR" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da "NUR" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələ:

1. 2022-ci ilin yekun hesabatı

Bütün səhmdarların iştirakı vacibdir.

Telefon– 012-595-28-04.

Ünvan– Bakı, C. Qaryağdıoğlu küçəsi 67.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Azərbaycan Milli Konservatoriyası

## boş olan ştatlar üçün müsabiqə elan edir:

**Dirijorluq kafedrası üzrə:**
1.Baş müəllim - 1 ştat

**Muğam (xanəndə) kafedrası üzrə:**
1. Dosent – 1 ştat

**Musiqinin tarixi və nəzəriyyəsi kafedrası üzrə:**
1. Baş müəllim - 1 ştat

**İnstrumental muğam kafedrası üzrə:**
1. Baş müəllim - 1 ştat

**Xalq çalğı alətləri kafedrası üzrə:**
1. Dosent – 1 ştat

**Etnomusiqişünaslıq kafedrası üzrə:**
1. Professor – 1 ştat

# "Sumqayıt Elektrik Dəstləşdirmə" ATSC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.30-da "Sumqayıt Elektrik Dəstləşdirmə" ATSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1.2022-ci ilin yekunları üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti barədə idarə heyətinin hesabatı.

2.Maliyyə- təftiş komissiyasının hesabatı.

3.2022-ci il üçün illik hesabatın müzakirəsi və təsdiqi.

4. 2022-ci ilin yekunlarına görə dividendlərin verilməsinin müzakirəsi.

Telefonlar: 018 - 648-75-20 və 018 - 648-79-72.

Yığıncaq Sumqayıt şəhəri, 42-ci məhəllə, Çerkasski küçəsi 21 nömrəli ünvanda keçiriləcəkdir.

***İdarə heyəti***

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 104 (30220) 19 may 2023-cü il, cümə
veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## “Qarabağ”çempiondur

### “Neftçi” isə 7-ci bürüncü qazanır



**Futbol üzrə Azərbaycan çempionatları tarixinin bütün mükafatçıları bəlli olub.**

Medal sayında rekordçu olan “Neftçi” başa çatmaqda olan 2022/2023 mövsümünü üçüncü sırada tamamlamağı təmin etməklə, 7-ci dəfə çempionatın bürünc medalına sahib olacaq. Bakılılar 5 dəfə də ikinci yeri tutublar.

Bu mövsüm tarixində 10-cu dəfə qızıl medalları təmin edən “Qarabağ” isə 4 dəfə gümüş, 3 dəfə də bürünc mükafatçı olublar.

İkinci yerin sahibi “Sabah” isə tarixində ilk dəfə medal alacaq.

***L.QURBANOVA, “Xalq qəzeti”***

## F1 mərhələsi təxirə salınıb



**İtaliyanın şimalında güclü sel və daşqınlar nəticəsində F1 mərhələsi təxirə salınıb.**

İtaliyanın şimalındakı Emiliya-Romanya bölgəsində leysan yağışları nəticəsində baş vermiş güclü sel və daşqınlardan sonra minlərlə sakin təxliyə olunub. Təbii fəlakət nəticəsində 9 nəfərin öldüyü bildirilir.

İtaliyanın mülki müdafiə naziri Nello Musumeçi yağıntıların illik normanın yarısı qədər olduğunu və 36 saat davam etdiyini, qəsəbələrin, əkin sahələrinin su altında qaldığını bildirib. O vurğulayıb ki, təbii fəlakətlə bağlı bazar günü İmolada keçirilməsi nəzərdə tutulan Formula 1 yarışı da təxirə salınıb. Nazir əlavə edib ki, ümumilikdə 37 qəsəbə su altında qalıb, 120 torpaq sürüşməsi qeydə alınıb. Bolonya şəhərinin yaxınlığındakı körpü də dağılıb, avtomobil yollarının əksəriyyəti yararsız vəziyyətə düşüb.

İtaliya rəsmiləri Formula 1 Emiliya-Romanya Qran-Prisinin nə zaman keçiriləcəyi ilə bağlı suala cavab verməyiblər. Güman edilir ki, bu mərhələ cari ildə baş tutmayacaq.

*Texnologiya yenilikləri*

## Prosessorlara yeni tipli nüvələr qoyulacaq

**Hələ bir neçə müddət bundan öncə xarici mediada məlumat verilmişdi ki, MediaTek şirkəti öz mobil prosessorlarına NVIDIA şirkətinin nüvələrini inteqrasiya etməyi planlaşdırır. Görünür, bu, həqiqətən, belə olacaq. Belə ki, verilmiş yeni məlumata əsasən, MediaTek növbəti flaqman mobil prosessoruna NVIDIA nüvələrini inteqrasiya edəcək.**




Söhbət MediaTek Dimensity 9300 prosessorundan gedir. Maraqlı odur ki, məlumata əsasən, MediaTek şirkəti NVIDIA GPU-larını təkcə mobil prosessorlarına deyil, həmçinin kompüterlər üçün nəzərdə tutulmuş prosessorlara da inteqrasiya edəcək.

Süni zəka ilə çalışmaq üçün nəzərdə tutulmuş tenzor nüvələri də daxil olmaqla NVIDIA-nın digər texnologiyaları MediaTek-ə noutbuklar üçün yüksək imkanlı həllər yaratmağa imkan verəcək.

***Zərifə HÜSEYN, “Xalq qəzeti”***

*Sosial şəbəkələrdən seçmələr*

## Sevinc paylaşdıqca artır!

**Bir çox sosial şəbəkə izləyiciləri, əsasən də xanımlar bəzən öz paylaşımlarında gözəl təbiət lövhələrini əks etdirən rəsm və fotolar yerləşdirir və bununla dost, tanış və doğmalarına, əslində tanıdıqları və tanımadıqları hər kəsə xoş arzular, gözəl əhvali-ruhiyyə diləyirlər.**



Tanınmış jurnalist Şəmsiyyə Kərimova dünən özünün “Facebook” səhifəsində belə bir paylaşım edib:

***“Oyandığımız hər günə,***
***Sevdiklərimizin varlığına***
***Şükürlər olsun!***
***Xeyirli sabahlar, dostlar!***
***Rəbbim hər kəsin yardımçısı olsun!”***

**P.S.** Hörmətli oxucular! Gəlin, ən gözəl duyğularımızı bir-birimizə ötürməyə çalışaq. Sevinc paylaşdıqca artır!

***Təqdim etdi: M.HACIXANLI, “Xalq qəzeti”***




## Qədim “İncil” 38,1 milyon dollara satıldı

**Nyu-Yorkda “Sotheby’s” hərracında qədim ibrani dilində yazılmış “İncil” 38,1 milyon dollara satılıb. Bu barədə hərrac evi özünün “twitter” səhifəsində məlumat yayıb.**

Xəbərdə qeyd olunur ki, “İncil”, təxminən, 900-cü ildə yazılıb.

Hərraca çıxarılan müqəddəs kitabı diplomat Alfred Moses alıb.

***F.SALMANOVA, “Xalq qəzeti”***

## Montana “TikTok”a qadağa qoyur

**ABŞ-ın Montana ştatı əhaliyə Çinə məxsus “TikTok” sosial platformasına şəxsi cihazlardan daxil olmağa qadağa qoyub.**




Ştatın qubernatoru Greg Gianforte tərəfindən imzalanan qadağanın 2024-cü il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulur.

Qadağaya səbəb isə, dünyanın bir çox yerində “TikTok” məlumatlarının Çin hökumətinə ötürülməsi ehtimalıdır.

Qeyd edək ki, əhalisi 1 milyondan çox olan Montana ştatında ötən ilin dekabr ayında hökumətə məxsus elektron cihazlarda da tətbiqdən istifadəyə qadağa qoyulmuşdu.

***F.HÜQUQQIZI, “Xalq qəzeti”***

## Kosmosda evlənmək şansı



**Bundan sonra yer insanlarının kosmosda evlənməsi də mümkün olacaq. Bununla bağlı “Space Perspective” adlı şirkət cütlüklərə zəmanət verə biləcəyini elan edib. “Lenta.ru”nun verdiyi məlumata görə, şirkət kosmosda insanların evlənməsinə imkan yaradacaq uçuşlar həyata keçirəcək.**

Bu barədə yayılmış məlumatda bildirilir ki, bu cür evlənmə prosesi cütlüklərə bir qədər böyük məbləğə başa gələcək. “Neptun” adlı şarda kosmosa qalxacaq cütlüklər 125 min dollar ödəməli olacaqlar.

“Space Perspective”nin təsisçilərindən Ceyn Poytner deyib ki, artıq insanlar kosmosda evlənmək üçün qeydiyyatdan keçməyə başlayıblar. Şirkətin saytında bu arzuda olanların siyahısı dərc edilib və siyahının 2024-cü ilin sonuna qədər dolu olduğu qeyd olunub.

***“Xalq qəzeti”***

*Sağlamlıq guşəsi*

## Alma sirkəsi – ürəyin dayağı

**Mütəxəssislər ürək- damar sisteminin sağlam olması üçün bəkməz, kərə yağı, ət və ət məhsulları, süd və süd məhsullarını uyğun qida hesab etmirlər. Amma ürək sağlamlığı üçün almanın faydasının daha çox olduğunu bildirirlər. Burada almanın rəngə uyğun düzgün seçilməsi önəmlidir. Bu baxımdan yaşıl almanın ürək çatışmazlığında çox faydalı olduğu deyilir.**



Ürəkdə çırpıntıların yaranmasına və ritmin pozulmasına alma sirkəsi faydalı hesab edilir. Ürək ritminin pozulması həyəcanlanmaq və ürəyin ətrafında yerləşən sinir hüceyrələrinin üzərində olan elektrik axınının müəyyən nöqtədə toqquşması nəticəsində baş verir.

Alma sirkəsinin qəbulu sinirləri stabilləşdirir və ürək ritminin pozulmasının qarşısını alır. Mütəxəssislər bildirirlər ki, alma sirkəsi və alma eyni vaxtda qəbul edildikdə, ürəkdəki digər problemləri də aradan qaldırır.

***Z.HÜSEYNOVA, “Xalq qəzeti”***

*Proqnoz*

## Bölgələrdə hava...



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, mayın 19-da Bakıda və Abşeron yarımadasında gecə saatlarında gözlənilən yağışın səhər tədricən kəsiləcəyi, gün ərzində dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Cənub küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 10-15°, gündüz 20-25° isti olacaq.Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq.

Azərbaycanın rayonlarında əksər rayonlarda əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 22-27° , dağlarda gecə 0-5°, gündüz 8-13° isti olacaq.

***Q.QASIMOV, “Xalq qəzeti”***

## “Ceyms Vebb” teleskopunun su kəşfi

**NASA-nın Avropa və Kanada Kosmik Agentlikləri ilə birgə hazırladığı “Ceyms Vebb” teleskopu 2021-ci il dekabr 25-də uğurla orbitə yerləşdirilərək işə başlayıb. “Hubble” kosmik teleskopunu əvəz edən bu teleskop Günəş sistemindən kənarda kəşf edilən yeni planetlərdə həyatın olub-olmadığını araşdırır.**



“Ceyms Vebb” kosmik teleskopu Günəş sisteminin əsas asteroid qurşağında olan və dünya okeanlarının mənbəyi hesab ediləcək ilk su kəşfini edib. “Vebb” teleskopunun yaxın infraqırmızı spektroqrafından istifadə edərək astronomlar Yupiter və Mars arasında orbitdə olan “238P/Read quyruqlu ulduz”unun ətrafında su buxarının olduğunu təsdiqləyiblər.

NASA-dan verilən açıqlamada, dünyanın formalaşmasının ilkin mərhələsində Yerə düşən asteroidlərin Yer kürəsində su mənbəyini yaratdığı fikirləri qeyd edilib. Hətta bəzi astronomların Yerdəki su mənbəyinin “quyruqlu ulduzlar” olduğu düşüncəsi diqqət çəkib.

***Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5183
SİFARİŞ 1232
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00